Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 20 (6063) 7 iyun 2024-cü il | Qiyməti 40 qəpik

## TÜRKPA-ya sədrlik Türkiyədən Azərbaycana keçdi



**Türk Dövlətləri Parlament Assambleyasına (TÜRKPA) sədrlik Türkiyədən Azərbaycana keçib. Adalet.az xəbər verir ki, bu barədə TÜRKPA Şurasının Bakıda keçirilən 13-cü iclasında qərar qəbul edilib. Belə ki, Türkiyə Böyük Millət Məclisinin sədri Numan Qurtulmuş sədrliyi azərbaycanlı həmkarı Sahibə Qafarovaya təhvil verib.**

## DİN-dən xəbərdarlıq



**Bank kartlarına müdaxilə edərək dələduzluq edən 3 şübhəli şəxs saxlanılıb.**

Bu barədə Adalet.az-a Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətindən məlumat verilib.

Qeyd olunub ki, kiber cinayətkarlığın yeni forması müşahidə olunur: "Hər bir vətəndaş diqqətli olmalıdır. İyunun 2-də bank kartı məlumatlarının daxil edildiyi hansısa alış-veriş və xidmət sahələrinə aid olan saytdan vətəndaşın şəxsi məlumatları götürülərək 11205 manat oğurlanaraq naməlum hesaba köçürülüb. İyunun 3-də isə ayrı-ayrı vətəndaşlara məxsus 1350, 700, 220, 3028, 2050, 200, 4800, 68, 95, 100, 8978, 180, 48, 73, 1014, 210, 470, 800 manat pul vəsaitləri isə bank kartı sahibinin şəxsi məlumatları aldadılıb alınmaqla oğurlanıb". Polis əməkdaşlarının keçirdiyi tədbirlərlə Bakı şəhərində vətəndaşların bank kartlarına müdaxilə etməklə pul vəsaitlərini oğurluq və dələduzluq yolları ilə talayan 3 nəfər şübhəli şəxs müəyyən olunaraq tutulub.

## *Qurban bayramının namaz vaxtı açıqlandı*

**İyunun 16-17-də Azərbaycanda Qurban bayramı qeyd ediləcək.**

Adalet.az xəbər verir ki, bu barədə Qafqaz Müsəlmanları İdarəsindən bildirilib. Qeyd olunub ki, hər il olduğu kimi məscidlərdə Qurban bayramının namazı qılınacaq: "Bəzi məscidlərdə bayram namazı saat 08:00, bəzilərində isə 09:00-da qılınacaq. Ola bilər ki, məscid imamları öz gələn camaatına uyğun vaxt təyin edə bilərlər, məsələn, rayon yerlərində daha tez, şəhər yerlərində bir az gec ola bilər".

## MEDİA-dan saxta kampaniyalarla bağlı çağırış

**Son günlər elektron informasiya resurslarında auditoriyanı çaşdırmaq məqsədilə yaradılmış hiperlinklər vasitəsilə yalan məlumatların tirajlanması halları müşahidə olunmaqdadır.**

Adalet.az xəbər verir ki,bu barədə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin açıqlamasında deyilir.

Məlumata görə, belə ki, Azərbaycan Respublikasının Prezidentinin adından istifadə olunmaqla hazırlanan saxta müraciətdə istifadəçilərə maddi yardım vəd edilir və elektron hesab yaradaraq qeydiyyatdan keçməklə bu yardımdan faydalanmaq təklif edilir. Bildirilib ki, qeyd olunan müraciət bütün dünyada yeni təhdid növü kimi qiymətləndirilən kiber dələduzluq nümunəsidir. Agentlik Azərbaycan vətəndaşlarını, o cümlədən media nümayəndələrini və ictimai fəalları bu kimi hallarla bağlı hər zaman prinsipiallıq nümayiş etdirməyə, saxta və yalan məlumatlara söykənən kampaniyalara qarşı sayıq olmağa çağırıb.

## "Son zəng"in keçiriləcəyi tarix açıqlandı

**Azərbaycan Respublikasının elm və təhsil nazirinin müvafiq əmrinə əsasən 2023-2024-cü tədris ili ölkənin bütün tipdən olan ümumi təhsil müəssisələrində 15 sentyabr 2023-cü il tarixində başlayır, 14 iyun 2024-cü il tarixində başa çatır.**

Adalet.az xəbər verir ki, əktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən APA-nın sorğusuna cavab olaraq bildirilib ki, bununla əlaqədar olaraq 14 iyun son dərs günüdür.

Qeyd edək ki, məktəblərdə şagirdlərdən dərsliklərin tədris ilinin sonuncu həftəsindən başlayaraq təhvil alınması nəzərdə tutulur.

## *XİN: Azərbaycan iqlim dəyişikliyi ilə mübarizədə qlobal əməkdaşlığa sadiqdir*



**Azərbaycan gələcək nəsillər üçün ətraf mühitin qorunması və iqlim dəyişikliyi ilə mübarizə sahəsində qlobal əməkdaşlığa sadiqdir.**

Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin "X" sosial şəbəkəsindəki hesabında paylaşım edilib. "Ümumdünya Ətraf Mühit Günündə Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) təşkilatçısı kimi nümunəvi olmaq niyyətindədir.

Planetimizin gözəlliyinə dəyər verərək, biz iqlim dəyişikliyi ilə mübarizədə və gələcək nəsillər üçün ətraf mühitin qorunmasında qlobal əməkdaşlığa sadiqliyimizi bir daha təsdiqləyirik", - paylaşımda qeyd edilib.

**Aqil ABBAS**
aqilabbas@rambler.ru

## GEDİB URUS OLAJAM



**Bu Tar fabrikinin yanında, ordankı Şuşa gözəl görünür, Bəxtiyar müəllimin maşını dayandı. Təbii ki, biz də dayandıq. Bəxtiyar müəllim, Oktay Akbal və xanımı maşından yendilər...**

**Və gözlənilmədən Oktay Akbal otların üzərində uzanıb sürünməyə, torpağı öpməyə başladı. Bəxtiyar müəllimin gücü çatmadı onu yerdən qaldırmağa. Şahmar Əkbərzadə yüyürüb qonağı qucaqlayıb qaldırdı.**

**Bəxtiyar müəllim soruşdu:**

**- Oktay bəy, nə olub?**

**- Mən Pənah xanın nəslindənəm. Hamıdan gizlədirdim ki, birdən məni Şuşaya buraxmazlar. Uşaqlıqdan and içmişdim ki, Şuşanı görəndə dizin-dizin sürünəcəm.**

**Əynində ağ kostyum vardı, ot onu gömgöy göyərtmişdi.**

**Sonra Şuşanın birinci katibi Əhəd Kərimov ona təzə kostyum bağışlasa da kostyumunu dəyişmədi.**

**Bax: səh.8-9**

## GÜNÜN LƏTİFƏSİ

Hidayət Elvüsalla Vəli Xramçaylı söhbət edirlər.

Hidayət müəllim: **- Vəli, sən məhəbbətdən, sevgidən yazan şairsən. Səncə dünyada ideal cütlüklər var?**

Vəli Xramçaylı: **- Bə nədi qağa, odey limonla araq, viskiylə koka-kola, pivəylə duzlu balıq, o qədər belə qəşəng cütlüklər var ki...**

# Prezident fərman imzaladı



**Prezident İlham Əliyev "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" qanunun tətbiqi barədə fərman imzalayıb.**

Fərmana əsasən, müəyyən edilib ki, "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

Həmin Qanunda "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

Nazirlər Kabineti Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təklifləri üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməli, həmin Qanuna uyğun olaraq, süni torpaq sahəsinin yaradılması məqsədilə ayrılmış su fondu torpaq sahəsinə və süni torpaq sahəsinə görə ödənilən icarə haqqının məbləğini bir ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat verməli, həmin Qanundan irəli gələn digər məsələləri həll etməlidir.

# Prezident İlham Əliyevə təbriklər gəlməkdə davam edir

**Qambiya Respublikasının Prezidenti Adama Barrou Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə təbrik məktubu ünvanlayıb.**

Məktubda deyilir:

"Zati-aliləri.

Müstəqillik Günü münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimizi çatdırıram. Xalqınızın şücaətini, qətiyyətini və gücünü təcəssüm etdirən bu əlamətdar gün ölkənizin tarixində önəmli bir mərhələdir. Azərbaycanın keçdiyi müstəqillik yolunu xatırlayarkən, dünya bu illər ərzində əldə etdiyiniz nailiyyətləri və irəliləyişləri yüksək qiymətləndirir. Xalqlarımız arasında münasibətlər qarşılıqlı hörmət, əməkdaşlıq və ortaq dəyərlər əsasında qurulub. Biz Azərbaycanın regionda və onun hüdudlarından kənarda sülhün, sabitliyin və rifahın təşviqi istiqamətində göstərdiyi səyləri təqdir edirik. Bu əlamətdar günü qeyd edərkən, Azərbaycanı onun bütün vətəndaşları üçün daha parlaq və firavan gələcəyə aparan fəaliyyətinizdə müstəqillik ruhunun Sizi həmişə ilhamlandırmasını arzulayıram.

Sizi bir daha bu bayram münasibətilə təbrik edirəm.

Qarşıdan gələn illərdə Sizə və Azərbaycan xalqına sevinc dolu bayramlar və davamlı uğurlar diləyirəm.

Zati-aliləri, Sizə ən yüksək qardaşlıq ehtiramlarımı çatdırıram".

***

**Rusiya Federasiyası Federal Məclisinin Dövlət Dumasının komissiya sədri, Ümumhəmkarlar İttifaqları Konfederasiyasının Baş katibi Viktor Pinski Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlayıb.**

Məktubda deyilir:

"Möhtərəm İlham Heydər oğlu.

Xahiş edirəm, Müstəqillik Günü münasibətilə təbriklərimi qəbul edin. Ümumhəmkarlar İttifaqları Konfederasiyası Azərbaycanın həmkarlar ittifaqları ilə dostluq və tərəfdaşlıq münasibətlərinə böyük əhəmiyyət verir. Sizə ali dövləti fəaliyyətinizdə səmimi-qəlbdən uğurlar, Azərbaycanın bütün vətəndaşlarına isə rifah və əmin-amanlıq arzulayıram".

# TÜRKPA Şurasının 13-cü iclası keçirilib

**İyunun 6-da Türk Dövlətləri Parlament Assambleyası (TÜRKPA) Şurasının 13-cü iclası keçirilib.**

Adalet.az xəbər verir ki, TÜRKPA-nın fəaliyyətdə olan sədri, Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Numan Kurtulmuş TÜRKPA Şurasının 13-cü iclasını açıq elan edib, tədbirin yüksək səviyyədə təşkilinə və göstərilən qonaqpərvərliyə görə Azərbaycan Milli Məclisinin sədri Sahibə Qafarovaya təşəkkürünü bildirib.

Numan Kurtulmuş qeyd edib ki, təsis olunduğu zamandan bu günədək keçən dövrə, həmçinin görülmüş işlərə nəzər saldıqda əminliklə demək olar ki, Türk əməkdaşlıq qurumları arasında xüsusi yerə malik olan TÜRKPA günü-gündən böyüməkdə və inkişaf etməkdədir.

Sonra Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuş TÜRKPA-da sədrliyi Azərbaycan Respublikası Milli Məclisinin sədri Sahibə Qafarovaya təhvil verib. O, qarşıdakı dövrdə təşkilata sədrlik edəcək Azərbaycan tərəfinə uğurlar arzulayıb.

TÜRKPA-nın fəaliyyətdə olan sədrliyini qürur hissi ilə təhvil aldığını deyən Milli Məclisin sədri Sahibə Qafarova, Azərbaycan Respublikasının Milli Məclisinin qarşıdakı dövr-



də təşkilatın məqsədlərinə nail olunması, əməkdaşlığın daha da inkişafı üçün lazımı tədbirlərin həyata keçirilməsinə səy göstərəcəyini bildirib.

Spiker Sahibə Qafarova, Türk Dövlətləri Parlament Assambleyasının fəaliyyət göstərdiyi 15 ildən artıq dövrdə Assambleyanın əsas tədbirlərinin bununla artıq dördüncü dəfə Bakıda keçirilməsindən məmnunluğunu bildirib. O, bu gün aparılacaq müzakirələrin qarşıya qoyulan hədəflərə nail olmağa kömək göstərəcəyinə inamını ifadə edib.

Vurğulanıb ki, Azərbaycan Respublikası ölkələrimiz arasında dostluq və əməkdaşlıq əlaqələrinin dərinləşməsinə TÜRKPA-nın verdiyi töhfələri yüksək qiymətləndirir. Türk birliyinin gücləndirilməsi istiqamətində həyata keçirilən davamlı tədbirlərin Azərbaycan dövlətinin xarici siyasətinin prioritet istiqamətini təşkil etdiyini deyən Milli Məclisin sədri, TÜRKPA-nın 13-cü plenar iclası çərçivəsində dünəndən etibarən tədbirlərin başladığını diqqətə çatdırıb. Həm Şura iclasının, həm də plenar iclasın gündəliyinin kifayət qədər zəngin olduğu qeyd olunub.

Spiker Sahibə Qafarova çıxışında həmçinin, 44 günlük Vətən müharibəsində 30 illik işğalın başa çatdığını və Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etdiyini, ötən ilin sentyabrında Azərbaycan bütün ərazilərində öz suverenliyini bərpa etdiyini, cari ilin fevral ayının 7-də Azərbaycanda növbədənkənar prezident seçkilərinin keçirildiyini bildirib. Qeyd olunub ki, Müstəqil Azərbaycanın tarixində ilk dəfə olaraq, hər hansı bir seçki Azərbaycanın bütün suveren ərazilərində, o cümlədən işğaldan azad olunmuş ərazilərində keçirilib.

Bu seçkilərdə xalqımız artıq öz ərazi bütövlüyünü, suverenliyini tam bərpa etmiş Azərbaycan dövlətinin gələcək inkişafı naminə səs verib.

Parlament Assambleyasının 13-cü plenar iclasının mövzusunun çox aktual olduğunu deyən Milli Məclisin sədri bildirib ki, noyabr ayında Bakı qlobal iqlim dəyişikliyinə qarşı mübarizə sahəsində ən böyük beynəlxalq tədbir olan COP29 Konfransına evsahibliyi edəcək. Spiker qeyd edib ki, bu gün TÜRKPA-nın plenar iclasında "Türk dünyası üçün yaşıl üfüqlər: Yaşıl gündəliyin həyata keçirilməsində parlamentlərin rolu" ilə bağlı aparılacaq müzakirələr və qəbul ediləcək qərarlar iqlim dəyişikliklərinə qarşı mübarizəyə, ölkələrimizin yaşıl enerji sahəsində əməkdaşlığına parlament dəstəyimizin ifadəsi olacaq.

İclasda çıxış edən Türkiyə Böyük Millət Məclisin sədri Numan Kurtulmuş, Qırğız Respublikası Joqorku Keneşinin sədri Nurlanbek Şakiyev və Qazaxıstan Respublikası Parlament Məclisinin sədri Yerlan Koşanov tədbirin təşkilinə və göstərilən yüksək qonaqpərvərliyə görə Milli Məclisin sədrinə təşəkkürlərini bildiriblər, Azərbaycan tərəfinə sədrlik dövründə uğurlar arzulayıblar.

Çıxışçılar TÜRKPA-nın 13-cü Şura və plenar iclaslarında aparılacaq fikir mübadiləsinin, qəbul ediləcək qərarların təşkilatın gələcək fəaliyyətinin daha da gücləndirilməsinə mühüm töhfə verəcəyinə inamlarını ifadə ediblər.

**İclasda bir sıra təşkilati məsələlər müzakirə olunub və müvafiq qərarlar qəbul edilib.**

*Rüstəm Hacıyev*



# *Tramp məxfi sənədləri açıqlaya bilərmi?*

***CNN telekanalına müsahibə verən Respublikaçılar partiyası milli komitəsinin həmsədri, Trampın xanımı Lara Tramp bəyan edib ki, məhkəmənin qərarından asılı olmayaraq Respublikaçılar partiyası noyabrda keçiriləcək ABŞ prezidentliyinə seçkilərdə eks prezident Donald Trampın namizədliyini irəli sürəcək.***

***"Biz Respublikaçılar partiyası adından Donald Trampın namizədliyini irəli sürəcəyik. Bu belə bir vaxtda mühüm əhəmiyyət kəsb edir"-deyə eks prezidentin xanımı bildirib.***

***Xatırladırıq ki, Birləşmiş Ştatların keçmiş prezidentə qarşı iş sənədlərinin saxtalaşdırılması ilə bağlı ittihama görə, iyul ayının 11-də Nyu-York məhkəməsinin hakimi Xuan Merçan hökm çıxarmslıdır.***

***Respublikaçıların seçki proqramının icrasına iyulun 15-də start veriləcək. Lara Tramp qeyd edib ki, "Donald Trampa qarşı qərarı noyabrın 5-də amerikan vətındaşları verəcək".***

***Bu arada Donald Tramp son günlər səs-küylü bəyanatlarla çıxış etməkdədir. Belə ki, eks prezident seçiləcəyi təqdirdə, 2001-ci il terror aktl ilə bağlı məxvi sənədlərin üzərindən məxfiliyi qaldıracağına, məhrum prezident Con Kennedinin ölümü ilə bağlı məlumatları açıqlayacağına söz verib. Eks prezident bundan başqa, Fələstin müharibəsini bitirəcəyinə də əmin olduğunu bəyan edib.***

***Beləliklə, ABŞ da bu günədək gönünməmiş prezident yaşana bilər. Cinayət məsuliyyətinə cəlb olunmuş birisi prezident seçkilərində qalib gəlib prezident ola bilər.***

***Bəs cinayət məsuliyyətinə cəkb olunmuş, barəsində hökm çıxarıkmış vətəndaş prezident seçkilərində iştirak edə bilərmi?***

***Bəli.***

***Görünən odur ki, Respublikaçılar partiyası iyulun 15-dək Trampın namizədliyini irəli sürəcək. Əgər Tramp real həbs cəzası alarsa, onda vəziyyət mürəkkəbləşə bilər. Lakin onun əməlləri ağır cinayət sayımadığl üçün, həbs cəzası ssenarisi az ehtimal olunur. Çox güman ki, eks prezidentin cəzası ya cərimə, ya da hərəkətləri məhdudlaşdırılmaqla cərimə ola bilər.***

***Tramp prezident seçilərsə, söz verdiyi kimi Kennedinin ölümü və 11 sentyabr hadisələriylə bağlı sənədlərin açılmasına icazə verəcəkmi?***

***Təbii ki, bu inandırlcl deyil. Bunu yalnız seçkiqabağı populizm kimi qiymətləndirmək olar. Hələ 2016- cı il prezident seçkilərində də Tramp söz vermişdi ki, "amerikan donanmasını dünyanın ən nəhəng donanmasına çevirəcək, 300 yeni hərbi gəmi inşa edəcək" və s. Lakin o, verdiyi bu kimi populist vədlərin heç birini yerinə yetirmədi.***

***İndi də, yarım əsrdən artıq bir zamanda təkcə amerikan xalqından deyil, bütün dünyadan gizli saxlanılan Kennedinin ölümü ilə bağlı sənədlərin açılmasına, hələ qanı təzə -təzə qurumağa bsşlamış 11 sentyabr "terror" aktıyla bağlı sənədlərin açılmasına, bu işin əsas iştirakçıları olduğu güman edilən "məxvi dövlət" heç bir halda imkan verməz.***

***Bundan başqa, Trampın vədlərinin yerinə yetirilməsi, hələ amerikan xüsusi xidmət orqanlarının bu işdə əlləri olmasını üzə çıxararsa, nələr baş verə bilər? amerikan xalqlnın dövlətə inamını laxlamazmı?. 11 sentyabr terror aktının sənədlərin açılması, amerikanın dövlətinin təhlükəsizliyi ilə bağlı boşluqları da üzə çıxara bilər.***

***Digər tətəfdən baxsaq, bu səs-küylü bəyanatlar, Trampla bağlı cinayət prossesini siyasi motivlərə bağlamaq imkanları da yarada bilər. Belə bir fikir yarana bilər ki, məhkəmə izləmələri məhz bu sənidlərin açılmasının qarşısını almaq üçün davam etdirilir.***

***Maraqlıdır ki, irəli sürülən bütün ittihamlar, məhkəmə qərarları, Co Bayden demokratlarının gözləntilərinin əksinə olaraq, Trampın nüfuzunu və mövqeyini daha da gücləndirir.***

***Əvvala, amerikan vətəndaşları, ölkədə miqrantların sayını artırmaqla mövqelərini gücləndirməyə çalışan respublikaçılardan çox yorulublar. Həmçinin ölkənin müsəlman əhalisinin böyük hissəsi də, İsrail-Fələstin müharibəsində, minlərlə günahsız müsəlmanların qətlə yetirilməsinə dəstək verən hakim demokrat partiyaslndan üz çevirməyə başlaylblar.***

***Tram isə hazırda, çox sevilməsə də, "iki çomaqdan ən naziyi" hesab oluna bilər. İkincisi də, vətəndaşlarıb əksəriyyəti Trampa qarşı irəli sürülən ittihamlara inanmır və onun siyasi motivlə aparıldığına əmindirlər...***

# Gəncə qiyamının süqutu: İşğala qurban gedən 12 general, minlərlə hərbçi, silaha sarılmış gəncəlilər

**Bəzən deyirlər ki, niyə yeni yaradılmış Azərbaycan Demokratik Xalq Cümhuriyyəti işğalçı bolşevik Rusiyasına niyə tez təslim oldu. Əlbəttə bunu elə şəxslər deyir ki, onlar ya tarix oxumayıblar, o dövrdəki siyasi, iqtisadi, geopolitik gərginlik , böyük güclərin çarpışması ilə bağlı heç bir məlumata malik deyil. Yaxud da, üşmənlərimizə uyub, cümhuriyyətçilərin mübarizəsini heçə endirmək üçün təyinatlanıb.**

Bolşevik Rusiyası ADXC -ni devirməyə çalışarkən böyük hərbi və mütəşəkkil qüvvəyə malik olub. 882-ci ildə-9-cu əsrdə yaranmış Kiyev Rus dövlətinin varisi olan bolşevik Rusiyasının hərbi və siyasi qüdrəti ilə, son 100 ilini çar Rusiyasının tabeçiliyində heç bir ordusu və qüdrəti olmayan, xanlıqlara parçalanmış Azərbaycanın xarabalıqları üzərində qurulmuş 2 illik(23 aylıq ) bir dövlət nə edə bilərdi? Bu birinci və əasa səbəb...

İkinci səbəb isə bolşevik Rusiyasının mənfur "qardaşlıq, azadlıq, bərabərlik"" yaxudda "fəhlə-kəndli" hökumətinin qurulmasına aldanan yüzminlərlə azərbaycanlının yanlış yola girərək təcavüzkarlara inanması oldu. 3-cü ADXC yıxan ən əsas səbəblərdən biri isə Azərbaycanın suverenliyini qoruyacağına söz vermiş böyük dövlətlərin bolşevik Rusiyasının qarşısından qaçması (Böyük Britaniya), digər bir dövlətin isə (Türkiyə) Rusiyanın hiyləgər siyasətinə inanması sayəsində 28-ci atıcı diviziyanın desant rotaları Gəncə stansiyasını və şəhərin dəmir yolu rayonunu tutdular. Növbəti gün bura II Atlı korpusun və Taman süvari diviziyasının alayları gəldilər və şəhəri eləcə də ona tabe rayonları tutdular.

5 may tarixində Sovet Azərbaycanının rəhbərliyinə, Leninin göndərdiyi və Sovet Azərbaycanının yeni dövlət kimi tanınması kimi qiymətləndirilən teleqramdan sonra 8 may tarixində Gəncə İnqilab Komitəsindən quberniya inqilab komitəsinin sədri İbrahim Əliyevin imzası ilə teleqram gəlir. Bu teleqramda Gəncə quberniyasının RSFSR tərəfindən Azərbaycan Sovet Sosialist Respublikasının tanınması alqışlanmış və dünyadakı bütün fəhlə sinfini istismar edənlərə qarşı amansızca mübarizə aparmağa hazır olduğunu ifadə etmişdir.

Bununla yanaşı Gəncə üsyanı zamanı belə bir çox kəndlərin ölkənin sovetləşməsindən xəbərləri olmasa, işğaldan xəbəri olanlar silaha sarıldılar. Bəli, qiyamın məqsədi Azərbaycanı sovet işğalından azad etmək, kommunistlərin özbaşınalığına son qoymaq idi. Bu üsyan XX əsrdə Azərbaycanın işğal edilməsinə qarşı baş vermiş ən böyük və ən çox itkiyə səbəb olmuş üsyandır. Üsyanın təşkilatçıları və istiqamətverici qüvvəsi Azərbaycan Xalq Cümhuriyyəti ordusunun zabitləri idi. Mayın 25-dən 26-na keçən gecə başlanan üsyanda üsyançılar qısa müddətdə şəhərin mühüm obyektlərini, zirehli avtomobili var idi. Bu qüvvələrin çoxu şəhərin şimalında yerləşdirildi və mayın 31-də əsas hücum buradan başladı. Şəhəri tərk etmək imkanları olmayan üsyançılar, habelə dinc əhali mühasirəyə alınaraq kütləvi şəkildə güllələndilər. Üsyan yatırıldıqdan sonra general-mayor Məhəmməd Mirzə Qacar, Qaçaq Qəmbər, hüquqşünas İsmayıl xan Ziyadxanov, ədəbiyyatçı Firidun bəy Köçərli, mühəndis Abuzər bəy Rzayev və müəllim Mirzə Abbas Abbaszadə kimi şəxsiyyətlərlə yanaşı Azərbaycan ordusunun 12 generalı, 27 polkovnik və podpolkovniki, 46 kapitan, ştabskapitan, poruçik və podporuçiki, 146 praporşik və podpraporşiki, 267 digər hərbi qulluqçusu bolşeviklər tərəfindən güllələndi. Üsyanın təşkilatçıları Gəncə hərbi qarnizonun rəhbəri general-mayor Cavad bəy Şıxlinski və Gəncə Piyada alayının komandiri, polkovnik Cahangir bəy Kazımbəyli sağ çıxdılar və xaricə qaça bildirlər.

Tarixçilərin bildirdiyinə görə, Gəncə erməniləri üsyanın ilk günündən etibarən bolşeviklərin tərəfində durdular. Bolşevik Behbud Şahtaxtinskinin Leninə yazdığı kimi onlar düşünürdülər ki, üsyançılar uğur qazansalar onları da bolşeviklərlə birgə məhv edəcəklər. Qırmızı Ordu əsgərlərinə həm də Yelenendorfdan olan alman kəndlilər də kömək edirdilər.

Yeri gəlmişkən, Gəncədə yaşayan qatı kommunist Səid Cavadovun casusları gecələr üzümlüklərin arası ilə qaçıb üsyançıların toplaşdığı yerləri, silah-sursat anbarlarını XI ordunun qərargahına xəbər verirdilər. Etdikləri xəyanətə görə Səid və əlaltılar Sarı Ələkbərin adamları tərəfindən tutularaq güllələnirlər. Gəncə üsyanı bütün respublika ərazisində zəncirvari şəkildə üsyanlara səbəb oldu. Sonradan Tərtər üsyanı, Lənkəran üsyanı, Qarabağ üsyanı, Zaqatala üsyanı, Quba üsyanı və digər bölgələrdə müxtəlif üsyanlar baş tutsa da 1924-cü ildə qədər heç bir üsyan Gəncə üsyanı qədər böyük olmadı. Aprel işğalında və Gəncə üsyanının amansızlıqla yatırılmasında iştirak edən 20-ci atıcı diviziyaya komandiri Mixail Velikanov Azərbaycan SSR və Ermənistan SSR -nin Qırmızı Bayraq Ordenləri ilə təltif edilib. Sonradan sovet hököməti bu qansız rusu özü güllələdi. Üsyan yatırıldıqdan sonra Gəncə Qəza İnqilab Komitəsi (sədri İbrahim Əliyev) 9 iyun 1920-ci ildə Vorontsovskaya küçəsinin adını Kanoqa adı ilə dəyişdirmək haqqında qərar qəbul edir. Buna səbəb XX diviziyanın III alayının komandiri olan Kanoqanın üsyan yatırılanda döyüşərkən bu küçədə öldürülməsidir.

Üsyan zamanı öldürülmüş bolşeviklərin xatirəsini əbədiləşdirmək haqqında Ümumazərbaycan Mərkəzi İcraiyyə Komitəsi qarşısında məsələ qaldırılmış və XI Qırmızı Orduya Gəncədə abidə qoyulması üçün Azərbaycan İnqilab Komitəsi 100 milyon rubl ayırmalı idi. Lakin Gürcüstan və Ermənistanın sovetləşdirilməsi bu məsələni ləngitdi. Yalnız 17 yanvar 1923-cü ildə Mir Bəşir Qasımov tərəfindən abidənin qoyulması üçün büdcənin müəyyən edilməsi haqqında göstəriş verildi.

meydanda tək qalan Azərbaycan Cümhuriyyəti məğlubiyyətə düçar oldu. Amma bolşevik Rusiyasının çar Rusiyasından fərqli olmayan işğalçılıq siyasətini anlayan Azərbaycan oğulları sonuncu güclərini bir yerə səfərbər edərək yenə də mübarizəyə qalxdılar. Tariximizə Gəncə qiyamı kimi yazılan o hadisə məhz bolşevizmin bərabərlik- azadlıq libasına bürünmüş qiyam 1920-ci ilin bu günü sona verib.

Tarixçilər, eləcə də şahidlər həmin hadisələri ətraflı şəkildə analiz ediblər:"1920-ci ilin 21 və 23 aprel tarixlərində Qafqaz Cəbhəsi İnqilab Hərbi Şurası S. Q. Orconikidzenin başçılığı ilə XI Qırmızı Orduya Aprelin 27-də Azərbaycan sərhədini keçib, bütün ərazini tutmaq əmrini vermişdi. Aprelin 26-da XI Qırmızı Ordu qərargahı hücuma rəhbərlik etmək üçün Dərbəndə köçür. XI Ordunun hücumu aprelin 25-dən 26-na keçən gecə saat 12-də başlayır. 70.000 XI Qırmızı Ordu, öndə "III İnternasional", daha 3 zirehli qatar və 300 nəfərdən ibarət piyada desant olmaqla, Samur çayı üzərindəki körpünü keçir. Bu qoşuna rəhbərlik edənlər arasında Anastas Mikoyan və Qəzənfər Musabəyov da var idi. Azərbaycan ordusunun əksəriyyəti Əsgəran döyüşündə olduğu üçün sərhəddi yalnız Quba alayının bir neçə yüngül top və pulemyotla silahlanmış iki rotası, 300 nəfərdən ibarət süvari eskadronu və kiçik jandarm dəstəsi qoruyurdu.

Yalama stansiyasında baş vermiş Yalama döyüşündə böyük say fərqinə görə AXC orudusu 300 nəfərdən çox itki verir. 1920-ci ilin Aprelin 28-də saat 5-də "III İnternasional" zirehli qatarı 23 saatlıq Yalama-Bakı məsafəsini qət edərək Bakı vağzalına çatdı. Azərbaycan bolşevikləri Azərbaycan Müvəqqəti İnqilab Komitəsini formalaşdırıb, Xalq Komissarları Sovetini təşkil edərək, Sovet Rusiyası ilə sıx münasibətlərə hazır olduqlarını bəyan edirlər. Bununla da Azərbaycan Sovet Sosialist Respublikasının əsası qoyulur. Bakıdakı hadisələrdən xəbər tutan AKP Gəncə dairə komitəsi elə həmin gün Quberniya İnqilab Komitəsini formalaşdırır. Növbəti günün axşamı qubernator Xudadat bəy Rəfibəyli bütün Gəncə quberniyasında hakimiyyətin İnqilab Komitəsinə verilməsi haqqında aktı imzalayır. Gəncə İnqilab Komitəsinin tərkibində sədr İbrahim Əliyev,müavin Fərhad Əliyev, Vəkilov, Sultanov və Eminbəyov var idi. Gəncə quberniyasında hakimiyyət dəyişikliyi gedən vaxt Bakıdan Gəncə istiqamətində zirehli qatarlar hərəkətə başlayırlar. Şəhərə yaxınlaşanda onlar yollarını kəsməyə çalışan müsavatçıların dəstələri ilə böyük döyüşə girirlər. 1 may tarixində sovet zirehli qatarları və azərbaycanlılar məhəlləsindəki qırmızı qoşun hissələrini nəzarət altına götürdülər. Hərbi anbar, şəhər həbsxanası, dəmir yolu stansiyası, fövqəladə komissarlığın binası da ələ keçirildi.

Mayın 28-də Gəncə üsyanının rəhbərləri və şəhər ictimaiyyəti dairə məhkəməsinin binasına toplaşıb, Azərbaycanın istiqlaliyyətinin elan olunmasının iki illiyini qeyd edirlər.

Amma əvvəlcə onu qeyd edək ki, bu üsyan haqqında tarixçilər ətraflı yazıblar. Tarixçilərin sözlərinə görə, üsyanın təşkilində başlıca olaraq, Azərbaycan ordusunun 1-ci piyada diviziyası, 3-cü Gəncə alayının şəhərdə olan bölmələri, 3-cü Şəki süvari alayının təlim komandası, bir topçu batareyası, diviziya qərargahına tabe olan komendant bölməsinin şəxsi heyəti iştirak edirdi.

Qaçaq Qəmbər, Sarı Ələkbər, qaçaq Qasım Kolaxani, qaçaq Mikayıl və başqaları da öz silahlıları ilə birlikdə Gəncə üsyanında iştirak edirdilər. Üsyan etmiş orduya ətraf kəndlərin də ordusu qoşuldu. Onların sayı 10 min nəfərdən çox idi. Üsyan ərəfəsində şəhərin daxilində və ətrafında XI Qırmızı Ordunun XX atıcı diviziyasının hissələri mövqe tutmuşdu. Diviziyanın 178-ci və 180-ci atıcı alayları şəhərin erməni məhəlləsində, 3-cü briqadanın rabitə taboru və komendant bölməsi isə şəhərin azərbaycanlılar yaşayan məhəlləsində idi. 40-cı süvari briqadası Zurnabad kəndinin ətrafında dayanmışdı.

Mayın 25-də Taman süvari briqadasının II alayı da Gəncəyə gətirildi.

Mayın 25-dən 26-na keçən gecə başlanan üsyanda üsyançılar qısa müddətdə şəhərin mühüm obyektlərini, azərbaycanlılar məhəlləsindəki qırmızı qoşun hissələrini nəzarət altına götürdülər. Hərbi anbar, şəhər həbsxanası, dəmir yolu stansiyası, fövqəladə komissarlığın binası da ələ keçirildi. Mayın 28-də Gəncə üsyanının rəhbərləri və şəhər ictimaiyyəti dairə məhkəməsinin binasına toplaşıb, Azərbaycanın istiqlaliyyətinin elan olunmasının iki illiyini qeyd edirlər. Azərbaycan istiqlalını qeyd edildikdən sonra - mayın 29-da bolşeviklərin üsyançılar üzərinə hücumu uğursuzluqla başa çatdı. Bir neçə istiqamətdən həyata keçirilən hücumda bolşevik qüvvələri qarşıya qoyduqları vəzifəni yerinə yetirə bilmədilər. Əksinə, üsyançıların əkshücumları bolşevik qüvvələrini ağır vəziyyətə saldı. Daha sonra XI Qırmızı Ordu komandanlığı Gəncəyə əlavə qüvvələr gətirdi. Mayın 30-da növbəti döyüşlər başlamazdan əvvəl 11-ci Qırmızı ordunun Gəncədə 5 piyada alayı, 6 süvari alayı, 7 əlahiddə hissə və dəstələri, 57 ədəd topu və 2

Amma ....

**1994-cü ilin aprel ayının 11-də Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Elsevər İbrahimov Gəncə üsyanının 75 illiyi ilə bağlı şəhərin görkəmli yerlərindən birində Gəncə üsyanında həlak olmuş həmyerlilərin xatirəsinə abidə ucaldılması haqqında sərəncam imzalayıb. Üsyanı rəhbərlərinin adlarının əbədiləşdirilməsi məsələlərinə baxmaq isə Gəncə şəhər İcra Hakimiyyəti yanında fəaliyyət göstərən "Adların əbədiləşdirilməsi" üzrə komissiyaya həvalə edilib. Abidəsinin qoyulması üçün Gəncənin Quru Qobu adlanan ərazisi seçilib və həmin yerə burada gələcəkdə abidənin ucaldılacağı barədə ağ mərmərdən lövhə vurulur. Üzərindən illər keçsə də üsyanı əbədiləşdirmək üçün abidə qoyulmayıb.**

**Əntiqə Rəşid**

***İRADƏ TUNCAY***

# İmpressiya...

***Konsert - yəni yarışmaq... Nə ilə, kim ilə???***

***Əlbəttə, zamanla...***

***Müəllif özü belə təqdim edir... Xanım fəsli deyir... Zamanın Xanım fəsli... Və mənə elə gəldi dinləyib də zövq aldığımız musiqilərin də, şeirlərin də,heç unuda bilmədiyimiz ifaçıların təəssüratı məhz belə idi - xanım-xatın...***



***Hər yeni ifaçını eşitdiyimizdə qəlbimizin dərinliyində yaşayan antik (belə deməkdən qorxmuram ) obrazları yenidən canlanırdı qulaqlarımızda... Bu nöqtələr də onların canlı olduğunu deyir. Onlar yenə var, yenə Xanım fəslində yaşayırlar...Və bizi də yaşadırlar... Hər mahnını eşitdikdə ürəyimizdə təkrar-təkrar oxuyuruqsa ," AĞLA" dedikcə ağlayırıqsa, unuda bilmiriksə "UNUT MƏNİ" dedikcə, çünki "XATİRƏLƏR"i var demək... Zaman var...***

***Xanımın özünün öz zaman anlayışı var və özündən başlamır bu tarix... Ailə var və bu ailə sözlə bağlıdır... İsmayıl Qarayevin ailəsidir... Daha əvvəl də kimlərsə olub mütləq bu tarixdə... Qonaq qismində dəvətli olanların da tarixi vardı bu məclisdə. Və bu məclisin öz aurası vardı... Onlar sevgi ilə gəlmişdilər, öz qucaqlarında sevgi gətirmişdilər, alqış gətirmişdilər... Parlaq obrazlar gətirmişdilər...***



***Elm deyir ki, məhz konsert dinləmək insanın ömrünü uzadır. Canlı musiqi insan psixikasına təsir edir. Belə gərgin bir vaxtda belə dinclik yaşamaq, bunu yaşamaq şəraitini yaşamaq, belə Xanım fəsildə yaşamaq...***

***Böyük əksəriyyət konsertə niyə gedir ??? Sevdiyi musiqiləri dinləmək, sevdikləri ifaçıları canlı görmək üçün əlbəttə. Unikal bir enerji alırsan - təkrar oluna bilməyən...***

***Və həyatdan zövq almağa başlayırsan, ətraf aləmlə bütünləşməyə başlayırsan, hətta əqli fəaliyyətin güclənir!!! Fiziki sağlamlığa təsir edir!!! Yeni tanışlıqlar, maraqlı ünsiyyət... Atmosfer maraqlı olur!!! Hətta fiziki təsir elə güclü olur ki, qor-***



***xduğumuz koloriləri yandıra bilirik!!!***

***Çıxış, şou, tamaşa, göstəri, ifa, müzikl... Bir sözlə, ŞÖLƏN... Musiqi şöləni!!!***

***Xanımın xarakterini bilən biri kimi deyim - şübhə eləmirdim məhz belə olacağına ... Şəbəkədən də izləyirdim gedişatı... Özünə və sevənlərinə dərin hörmətlə yanaşan Xanım... Həm də nə qədər gəncləri yetişdirən Xanım - sanki təqdimat da edirdi... Bu gənclərə ana ola bilən Xanım!!! Sanki hamı vardı - dünyasını dəyişənlər də, bu fani dünyada yaşayanlar da ... Vardı...***

***Var ol hər zaman!!! Xanım!!!***

# QARTAL KİMİ ZİRVƏLƏRDƏ...

**Ölkəmizin şimal-qərb sərhədini tamamlayan və iki xarici dövlətlə - Rusiya Federasiyası və Gürcüstanla həmsərhəd olan Balakən rayonu haqqında vaxtaşırı məqalələr dərc etmişik. Onun keçmişindən - bu gündən çoxlu söhbətlər açmışıq. Bir zamanlar çoxlarının tanımadığı, yolu düşmədiyi bu ucqar rayonun bir çox özəllikləri də elə ucqarlardaca, necə deyərlər, gözdən-könüldən uzaq düşərək sanki öz zamanını gözləyib. Balakən oğullarının Qarabağ döyüşlərində göstərdiyi igidliklər də bir ara diqqətdən kənar qalıb. Sonralar "Balakən qartalları" batalyonunun vətən uğrunda döyüşləri haqqında çoxlu xatirələr danışıldı, qəzetlərdə məqalələr verildi, kitablar buraxıldı, şəhidlərin xatirəsi əziz tutuldu, adları əbədiləşdirildi...**





... Sonralar Balakən rayonu da çox dəyişdi, çox inkişaf etdi.

Dövlətimizin qayğı və diqqəti sayəsində bu ucqar və strateji həssas rayonumuz o qədər inkişaf etdi ki, onu sevənlər, dostlar bu haqda həmişə qürurla danışdılar. Çox dərinə getmək istəmirəm, ancaq yazmasam da olmur - Balakənin böyük inkişafının və gözəlliyinin paxıllığını çəkənlər də az deyildi...

... Və sonra 44 gün davam edən İkinci Qarabağ savaşı, Vətən Müharibəsi! Qarabağın işğaldan azad edilməsi uğrunda yenə Balakən oğulları, vətəni, xalqı sevən igidlər, Ali Baş Komandanın cəsur əsgərləri ön sıralarda oldular. Yüzlərlə balakənli bu döyüşlərdə digər vətən oğulları kimi Vətən sevgisi nümunəsi göstərdi. Şəhid olanların xatirəsi daim əziz tutulan mötəbər bir məkandır Balakən rayonu. Burada qazilər də ən böyük hörmət və nüfuz sahibidirlər. Dövlətimiz, eləcə rayon rəhbərliyi şəhid ailələrinə və qazilərə daim yüksək həssaslıqla yanaşır, keçirilən tədbirlərdə adlarını uca tuturlar.

Beləcə "Balakən qartalları"nın ikinci bir nəsli də bu rayona vətənsevərlik mənasında yeni şöhrət qazandırdılar. Bu dəfə Vətənin azadlığı uğrunda döyüşlərin bir çoxu elə o məşhur "Balakən qartalları"nın övladları idi.

Budur, Balakən rayonu dövlətimizin, Prezidentimiz cənab İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində yenə irəliyə doğrudur, hərtərəfli inkişaf yolundadır. Aylar, illər bir-birini uğurlu hadisələrlə əvəzləyir.

Vətən müharibəsindəki böyük qələbəmizin təntənəsi, yalnız irəliyə olan ədalətli yolumuzun işığında ölkəmizin daha da inkişafı bizi hədsiz qürurlandırır. İndiki mürəkkəb geosiyasi vəziyyətdə respublikada bütün sosial proqramların uğurla həyata keçirilməsi reallığı əks etdirir və sevinc doğurur. Bu uğurların Balakən rayonunda da müntəzəm xarakter alması bölgənin stabil inkişafından xəbər verir. Bu rayonun istər dağlıq və dağətəyi kəndləri, istərsə də aşağı düzən kəndləri eyni qayğı və diqqət sayəsində ən müasir yaşayış məntəqələrinə çevrilməkdədir. Yeni yollar, yeni tikililər, yeni məktəbləri tikilən və ya bərpa edilib müasirləşdirilən sosial-mədəni obyektlərin sayı o qədər artıb ki, elə bil sən burada tamam başqa bir şəhərlə üzləşirsən. Amma çox səmimi, çox şirin, çox gözəl bir vətən torpağı, vətən ucalığı.

Sakinlər Balakən rayonunun bu cür sürətli inkişafına görə həmişə cənab Prezidentə minnətdar olduqlarını bildirirlər. Məsələ burasındadır ki, respublikanın bütün bölgələrinin yüksəlişinə xüsusi qayğı və diqqətlə yanaşan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev son illər Balakən rayonun da inkişafına dair müxtəlif sərəncamlar imzalamış, vətənin bu gözəl diyarına səfərlər etmişdir.

Balakən rayonunda sakinlərin və eləcə də buraya gələn turistlərin rahatlığı üçün çox işlər görülür. Rayon rəhbərliyinin camaatla sıx ünsiyyəti bir çox məsələlərin həllini arzulanan səviyyədə mümkünləşdirir.

Balakən rayonunda regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının icrası uğurla həyata keçirilir. Bu rayon indi təkcə təbiət gözəllikləri ilə deyil, şəhərdəki və kəndlərdəki yenilikləri, müasirləşməsi və nəticə etibarı ilə əhalinin yaşayış tərzinin yaxşılaşması ilə də fərqlənir, gələcəyə inamla addımlayır. Balakən şəhəri daha da gözəlləşir. Bu yerlərin turizm marşurutlarından biri olması görülən işlərin əhəmiyyətini iki qat artırır. Modernləşmələr digər sosial və mədəni istiqamətli tərəqqi... Bu mənada rayon mərkəzinin öz qədim ənənələri üzərində büsbütün müasirləşməsi də inkişafın təntənəsini təsdiqləyir.

Tanıyanlar bilir ki, Balakən Rayon İcra Hakimiyyətinin başçısı İslam Rzayev təcrübəli, işgüzar və prinsipial rəhbər işçi olmaqla yanaşı, həm də səmimi bir insandır. Bu gözəl keyfiyyətlər onun nüfuzunu daha da artırır, sakinlərə daha da yaxınlaşdırır. Və bütün bunların da nəticəsində rayonda yüksək səviyyəli sağlam mühit formalaşır. Bu, xalqa və dövlətçiliyə xidmətin nümunəvi göstəricisidir.





Bütün bunlar vətənpərvərliyin, xalqla iqtidar birliyinin, xoş niyyətli əməllərin nəticəsidir. Elə cənab Prezidentimiz İlham Əliyevin dediyi kimi: "Ölkəmiz beynəlxalq aləmdə layiqli yerini tuta bilmişdir. Daxildə proseslər müsbət istiqamətdə getmişdir. İslahatlar aparılmış, böyük nailiyyətlər əldə edilmişdir. Biz hamımız Ulu Öndərin siyasi xəttinə sadiqik, bu xətti davam edirirk...".

Adamı sevindirən məsələlərdən biri də budur ki, uzaq olduğuna görə əvvəllər çox az sayda qonaq-qarası olan Balakən rayonu, indi sanki bütün Azərbaycanın diqqət mərkəzindədir. Şəhərin içərilərindən ucqarlarına kimi yeni xüsusiyyətlər üzərində qurulduğundan inkişafın gələcək perspektivlərinə də işıq salır, insanlarda ruh yüksəkliyi yaradır.

**Bəli, bura Vətəndir! Gündən-günə inkişaf edən Azərbaycan Respublikasıdır. Özü də təkcə şəhərləri, rayon mərkəzləri ilə deyil, bütün kəndləri və qəsəbələri ilə inkişafda olan gözəl Vətən. Və iki xarici ölkə ilə həmsərhəd olan, indi artıq yalnız sözdə ucqar adlanan Balakən rayonu məhz modern bir inkişafın təntənəsi ilə hamını sevindirir, ruhlandırır...**

**Məzahir ƏHMƏDOĞLU**

## *ABŞ Güləni MİT-ə verdi: Türkiyəyə gətirilir?*



**FETÖ terror təşkilatının lideri Fətullah Gülənin ABŞ-nin Pensilvaniya ştatındakı malikanəsindən qaçırılması ilə bağlı yayılan xəbərlərdən sonra yeni iddia gündəmə gəlib. Adalet.az xəbər verir ki, Fətullah Gülənin Türkiyəyə gətirildiyinə dair iddia ortaya atılıb.**

Əvvəlki iddialara görə, FETÖ-nün Pensilvaniyadakı malikanəsində evlər boşaldılıb, müəyyən ərazilər satışa çıxarılıb və təşkilat daxilində çəkişmələr başlayıb.

Keçən həftə Fətullah Gülənin qardaşı oğlu Əbusələmə Gülən "hoca"mızı qaçırdılar" deyərək Cövdət Türkyolu, Mustafa Özcan, Barbaros Kocakurt, Adil Öksüz və Əkrəm Dumanlının başçılıq etdiyi "baş ucalar" qruplaşmasını ittiham edib. Həmçinin Gülənin öldüyünə dair də iddialar yayılıb.

Qeyd edək ki, FETÖ-nün daxilindəki "baş ucalar" və "mollalar" qrupları arasında "hakimiyyət" mübarizəsi gedir.

Bu xəbərlər fonunda türkiyəli jurnalist Müəssər Yıldız öz yazısında Gülənin Türkiyəyə təhvil verildiyini iddia edib:

"Günlərdir Pensilvaniya ştatındakı malikanəsi boşaldılan və oradan uzaqlaşdırılan Fətullah Gülənin sağlamlıq vəziyyəti müzakirə olunur. "Ölür", "öldü" kimi ifadələr ortaya atılır. Bu gündən gündəmə gələn son iddia isə ABŞ-nin Güləni Milli İstihbarat Təşkilatına (MİT) təhvil verdiyi, təyyarəsinin Türkiyə doğru uçduğu və bu məlumatların hələlik gizli saxlanıldığıdır".

Yayılan bu xəbərlərlə bağlı Türkiyə Böyük Millət Məclisinin Xarici Əlaqələr Komissiyasına sual ünvanlanıb. Xarici Əlaqələr Komissiyasının sədri Fuat Oktay belə bir məlumata sahib olmadıqlarını bildirib.

## *Ekspert: "Bu, asanlıqla həll olunan məsələ deyil"*



**Son zamanlar Bakı metrosunda yaşanan bədbəxt hadisələr, təhlükəsizlik tədbirinə ehtiyac duyulduğundan xəbər verir. Çünki günün müəyyən pik saatlarında metrostansiyalarda sıxlıq səbəbindən xoşagəlməz halların təkrarlanması gözləniləndir.**

Məsələ ilə bağlı Adalet.az-a açıqlama verən təhlükəsizlik eksperti Elmar Nurəliyev bildirib ki, metrostansiyalarda təhlükəsizlik qapılarının olması vacibdir, lakin bunun üçün böyük bir layihə hazırlanmalıdır, çünki bu, olduqca çətin prosesdir:

"Metrostansiyalarda təhlükəsizlik üçün arakəsmənin qoyulması inşa zamanı layihədə nəzərdə tutulan bir prosesdir. Bu, layihələndirmədə infrastruktur nəzərə alınaraq həyata keçirilməlidir. Daha sonradan da təhlükəsizlik üçün belə bir addım atıla bilər. Hətta dünya təcrübəsində də buna oxşar nümunələr var. Ancaq bu düşünüldüyü qədər sadə bir şey yox, olduqca mürəkkəb bir prosedurdur. Bir-iki gün ərzində quraşdırılması mümkün deyil".

Ekspert qeyd edib ki, xoşagəlməz halların qarşısının alınması üçün kifayət qədər təhlükəsizlik təlimatları var: "Təhlükəsizlik qapılarının olması insanların ehtiyatsızlıqdan qatar relsinin üzərinə düşüb xəsarət alması, həyatını itirməsi kimi hadisələrin qarşısını alır. Təhlükəsizlik cəhətdən tədbirlər planının bir hissəsi kimi qəbul edilir. Lakin təhlükəsizlik üçün nəzərdə tutulan digər amillər, metrostansiyanın içərisində təhlükəsizlik xəttinin keçilməməsi kimi kifayət qədər önləyici tədbirlər, təlimatlar var ki, sərnişinlər buna diqqət etməlidirlər. Kiçik bir bir ehtiyatsızlıq, və ya sərnişinlərdən birinin digərinə toxunması onların platforma üstünə düşməsi ilə nəticələnə bilər. Bütün bunlar tədbirlər planının bir hissəsidir. Düşünürəm ki, təhlükəsizlik qapılarının quraşdırılması daha məqsədəuyğun olar. Bu addım insanların həyatını təhlükədən qorumq üçün böyük vasitədir. Yuxarıda qeyd etdiyim kimi bu, asanlıqla həll olan məsələ deyil".

**Əntiqə KƏRİMZADƏ**



Vüqar Abbasov

# Ömrə yazılan bir gün

Bu barədə... Yox, doğru başlanğıc olmadı. May ayının 26 - da Niderlandın Rotterdam şəhərində "Ana Vətən" Avropa Azərbaycanlı Qadınlar Birliyinin təşkilatçılığı ilə 28 May Müstəqillik Günü və Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 140 illiyi münasibətilə "Bir kərə yüksələn bayraq bir daha enməz" adlı tədbir keçirildi. Bu barədə Azərbaycan mətbuatında xəbər verilib, həmçinin social şəbəkələrdə yazılıb. Odur ki, tədbir barədə xəbər vermək fikrindən çox uzağam. Amma tədbir barədə yazmaya da bilmədim. Əvvala onu qeyd edim ki,tədbirdən çox böyük zövq aldım. Çəkinmədən deyə bilərəm ki, hər bir şey olduqca yüksək səviyyədə hazırlanmışdı. Bu ölkədə yaşayan soydaşlarımızın da tədbirə marağı böyük oldu. Düşünürəm ki, Bakıdan dəvət olunmuş qonaqların da bunda xüsusi rolu var idi. Tədbirin təşkilatçısı Mayisə Ağamirzayeva, fikrimcə, olduca doğru seçim etmiş və tədbirin maraqlı keçməsini, dəvət etdiyi qonaqları ilə, öncədən təmin etmişdi.



Gələn qonaqlar, həmçinin Niderlanddakı səfirliyimizin tədbirdə iştirak edən nümayəndəsi yerlərini aldıqdan sonra tədbir başlandı. M.Ə.Rəsulzadənin nəvəsi rəssam Rəis Rəsulzadə tədbir iştirakçılarına video müraciəti soydaşlarımız tərəfindən böyük diqqətlə qarşılandı. Ümumiyyətlə, edilən bütün çıxışlar məzmunlu idi. Azərbaycan Xalq Cümhuriyyətinin və M.Ə.Rəsulzadə irsinin tədqiqatçısı, tarix elmləri doktoru, professor Nəsiman Yaqublu cumhuriyyət dövrü ilə, M.Ə.Rəsulzadə və silahdaşları ilə bağlı çıxışı xüsusilə maraqlı və öyrədici idi. Təvazökarlıqdan kənar da olsa qeyd edim ki, Azərbaycan Xalq Cuhuriyyətinin mövcud olduğu dövrlə, M.Ə.Rəsulzadə və silahdaşları ilə bağlı bir çox kitab oxumağıma baxmayaraq, bu çıxışdan çox şey öyrəndim. Nəsiman bəy elə maraqla çıxış edirdi ki, zalda əyləşmiş hər kəs, necə deyərlər, nəfəsini içinə çəkərək diqqətlə onu dinlədi. Zaldakı sakitlikdən, el dili ilə desək, milçək uçsa idi səsi eşidilərdi.

Zala toplaşan insanların aktivliyi həm də təşkil olunmuş interaktiv oyunla təmin olundu. Zala toplaşanların əksəriyyətinin bu oyunda iştirakı soydaşlarımızın cumhuriyyət dövrünə, M.Ə. Rəsulzadəyə sevgisini bir daha nümayiş etdirdi.

Fasilədən sonra, tədbirin ikinci hissəsində Azərbaycan Respublikasının Əməkdar artisti, Ağdam Musiqi Kollecinin direktoru Firuz Səxavət öz gözəl ifası ilə zalı coşdurdu. Daha doğrusu, zal gah coşdu, gah tam səssiz onu dinlədi. Əməllicə bayram əhvalı var idi; Firuz Səxavətə qoşulub oxuyan kim, səhnəyə düşüb oynayan kim. Tədbirin ikinci hissəsi də olduqca maraqlı və rəngarəng oldu; musiqi, poeziya, rəqslər...



Daha sonra Azərbaycandan gələn qonaqlar və tədbir iştirakçılarının xeyli hissəsi Beniluks Azərbaycanlıları Konqresinin, "Qarabağ İdman Klubu"nun ofisinə təşrif apardılar. Təşkilatın sədri Elsevər Məmmədov yüksək qonaqpərvərlik nümayiş etdirərək qonaqların rahatlığı üçün əlindən gələni etməyə çalışırdı. Burada isə hər şey qeyri rəsmi idi. Deyib-gülən kim, söhbət edən kim... Nəsiman bəy burada da soydaşlarımızın suallarını cavabsız qoymadı. Sonra isə kaman ustası Xəyyam bəy kamanını, Niderlandda yaşayan soydaşımız, tarzən Cavid Slimov tarını dilə gətirdi və təbii ki, Firuz bəy bu ifalara biganə qala bilməzdi. O da qavalını götürərək trionu tamamladı. Üçlüyün ifası həqiqətən möhtəşəm idi, doymaq olmurdu.

Olduqca səmimi bir mühit vardı. Rəsmiyyət tamamilə aradan qalxmışdı. Hər kəs birbiri ilə deyib-gülür, zarafatlaşır,söhbət edir, musiqi dinləyirdi... Həmən gün özümü sanki Azərbaycana gedib-gəlmiş kimi hiss etdim. Orada olan dostlara üzümü tutaraq zarafatla "Siz nə yaxşı adamlarmışsınız, bunu indiyə qədər niyə bilməmişəm?"- dedim. Bu isə bir lətifədəndir və lətifə belədir:

Bir gün birinin evində internet xarab olur. Hər kəs, əvvəlki illərdə olduğu kimi, bir yerə yığışıb xeyli söhbət edir. Sonda övladladan biri deyir: "Siz nə yaxşı, maraqlı adamlarmışsınız. Mən bunu niyə bilməmişəm?"

Ömrə yazılan bir gün oldu. Kimsə getmək istəmirdi. Axşam saat 23:30 - da, könülsüz də olsa, dağılışmağa qərar verildi. Bu gözəl günü bizlərə yaşatdıqları üçün başda bu tədbirin təşkilatçısı "Ana Vətən" Avropa Azərbaycanlı Qadınlar Birliyinin sədri Mayisə Ağamirzəyevaya, bizi öz ofisində səmimi mühitdə qəbul edən Beniluks Azərbaycanlıarı Konqresinin, "Qarabağ İdman Klubu"nun sədri Elsevər Məmmədova, Azərbaycandan gələn qonaqlara, buradakı soydaşlarımıza və zəhməti keçən hər kəsə öz adımdan dərin təşəkkürlərimi bildirirəm. Bir mahnının sözlərində deyildiyi kimi, belə olaq həmişə.

Məzahir ƏHMƏDOĞLU



# ABUNƏ SİNDROMU... VƏ...

Müstəqillik dövrünün ilk illərindən başlayaraq ölkəmizdə dövri mətbuat nümunələrinin sayı az qala aydan-aya artmağa başladı. Sovetdənqalma, bəlkə də ümumdünya praktikasına əsaslanan qəzet və jurnallara maraq normal qarşılanırdı. Ancaq növbəti illərdən problemlər də bu sahənin asan yolla gedə bilməyəcəyindən xəbər verirdi. Kirayə, çap xərclərinin xeyli dərəcədə artması, hətta aparıcı qəzetlər üçün də dozakl (çap üçün ən vacib olan dəmir təbəqə) çatışmazlığı, əməkhaqqı və s.məsələlərin mətbuat həyatının ciddi çətinliklərini diqtə edirdi. Üstəlik jurnalist təhsili olmayan və yaxud da olub orta statistik peşə yükü ilə qəzet çıxarmaq istəyənlər, azad mətbuat deyib, necə gəldi yazmaq istəyənlər də çoxalırdı.

Bu xaos bir müddət davam etdikdəm sonra, nəhayət ələnmələr başladı, bir çoxları da saytlarda çalışmağı üstün tutdu, asan olar deyə. Bütün bu hallar digər sahələrdə olduğu kimi, mətbuatda da demokratiyanın uğursuz nümunəsi idi. Təəssüflə qeyd etməliyəm ki, necə gəldi qəzet, sayt işlətmək, özünü cəmiyyətə jurnalist kimi təqdim etmək mərəzi müəyyən sayda və münasibətdə hələ də davam edir. Mən 46 illik mətbuat həyatımda (qəzetçiliyin nə qədər çətin və əzablı peşə olmasına baxmayaraq bu ifadəni mətbuatı əsl həyat hesab edən peşəkarlara güvənib işlədirəm, çünki onun sevincini, alqışını və qürurunu da yaşayırıq) elə qəribə hadisələrlə rastlaşdım ki, bəzi peşəkarların mətbuatı vaxtsız tərk etməsinə təəccüblənmədim. Mövzumuz bu olmadığından dalğıc olub da dərinliklərə üzmürəm. Akulaları da düşünmək lazımdır.

Məlumdur ki, qəzet-jurnal nəşri də bir növ istehsalat sahəsidir. Burada azad mətbuat ifadəsi xüsusi önəm daşıyır. O imkan yaradır ki, peşəkarlıq səriştəsi, savad, intellektual səviyyə və digər üstün cəhətlər hesabına bu sahədə liderlər cərgəsində olasan, qəzet-jurnalları, jurnalistləri, publisistləri oxucular özünün yaxını, eyni zamanda düzgün və maraqlı məlumat mənbələri kimi qəbul etsin.

Çoxdurmu belə hallar?

Az-çox müsbət nümunələr göstərə bilərik. Ancaq bu nümunələr boşluqları doldurmaq, çatışmazlıqları kompensasiya etmək üçün yetərli olmur. Elə bu səbəbdən də mətbuat ideoloji rupor olaraq cəmiyyəti tam qane etmir.

Yuxarıda qeyd etdim ki, qəzet də istehsalın bir növüdür. Kimsə mənə ölkədə çıxan rentabelli bircə dənə də olsa qəzet göstərə bilərmi? Mümkün deyil. Ən aparıcı qəzetlərin özü belə dövlət dəstəyindən asılıdır. Dövlətimiz şəxsən cənab Prezidentin göstərişi ilə bu çətinliklərin aradan qaldırılması üçün nə qədər xoş məramlı tədbirlər həyata keçirdi. Bu tədbirlər indi də davam etməkdədir. Maliyyə dəstəkləri, evlər, fəxri adlar, orden və medallar...

Bütün bunlara baxmayaraq qəzetlərin hamısının tirajı azalıb. Hətta Prezident Administrasiyasının müvafiq şöbəsinin təsisçiliyi ilə çıxan qəzetlər də abunə üçün müraciətlər etmək məcburiyyətindədirlər. Bir vaxtlar 8000, 10000, hətta 15000 tirajla çıxan qəzetlərin son səhifələrindəki məlum göstəricilər oxucu ilə yüksək səviyyəli təması əks etdirə bilirmi?

Digər tərəfdən rayonlarda mətbuata abunə yazılışlarını təşkil edən qurumlar da bir-bir sıradan çıxır, fəaliyyətləri minumumdan da aşağı enir. Rayon icra hakimiyyətləri son vaxtlaradək bu sahədəki çatışmazlıqları yoluna qoymağa çalışırdılar. Çünki iş elə gətirib ki, mətbuat indi daha çox abunə vasitəsi ilə yayılmalı olur. Ölkə üzrə qəzet köşklərinin də fəaliyyəti tamam başqa istiqamət almaqla qəzet-jurnal satışında maraqlı deyillər.

Bütün bunlar göz qabağındadır.

Onda bəs ənənəvi abunə kampaniyasının normal aparılmamasının səbəbləri hansı məntiqdən yarandı?

Heç bir məntiq-filan yoxdur. Yerlərdə bütün nazirliklərin idarə-müəssisələri fəaliyyət göstərir. Bəzi nazirlər sadəcə öz nümayəndələrinə belə göstəriş verirlər ki, bizdən icazəsiz 1 nüsxə də olsun qəzet-jurnallara abunə ola bilmərsiniz. Özünü göstərməkdirmi, monopoliyadırmı, nəyi oxuyub nəyi oxumamağa nəzarətdirmi? Bir az da kəskin desək: mətbuata qarşı "səlib yürüşü"dür yoxsa?

Təsəvvür edirsinizmi? Guya bütün işləri 100 faiz rəvan gedən bu nazirliklərin yeganə problemləri abunə məsələsi imiş. Özü də belə bir mexanizm keçən ildən daha geniş mahiyyət daşıyaraq peşəkar mətbuata digər "yardımçı" səbəblərlə birlikdə çoxlu zərbələr vurur.

İş elə gətirib ki, artıq rayon icra hakimiyyətləri də belə vəziyyətdən çıxış yolu tapmaqda çətinlik çəkir. Hansı ki, istisnasız bütün rayonlar peşəkar mətbuata həmişə açıq olmuşlar.

Ölkə prezident üsul-idarəsi ilə fəaliyyət göstərir. Prezident institutunun tələblərindən ən əsası da budur ki, rayonda bütün məsələlərə cavabdehlik məhz sərəncamla başçı təyin edilmiş birinci şəxsdən soruşulur və tələb olunur. Təkcə abunə məsələsi deyil, bir çox başqa məsələlərdə də rayon icra hakimiyyətlərinin fəaliyyətlərinə süni dirənclər yaranır. Hətta bəzi elmlər doktorları, professorlar, təqaüddə olan keçmiş rəhbər işçilər ortalığa elə məsələlər atırlar ki, qalırsan mat-məəttəl.

Sirr deyil ki, Qarabağ ölkəmiz üçün müstəsna bir yerdir və burada müəyyən fərqli idarəetmə üsulları da tətbiq olunur. Cənab Prezident bütün bunları yüksək dəqiqliklə və qürurla həyata keçirir. Bəzi diletant adamlar bütün bu gözəl və mütərəqqi tədbirlərin fonunda görün nələr təklif edirlər: "Respublikanın digər rayonlarına da xüsusi nümayəndələr təyin olunsun!"

Bəs Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə təyin olunmuş rayon icra hakimiyyəti başçıları necə olsun? Rayon İcra Hakimiyyətləri cənab Prezidentin ən vacib və aparıcı strukturları deyilmi? Özü də məlum hadisələrdən sonra icra strukturlarında şəffaflığın, işgüzarlığın, etimadı doğrultmağın ən nümunəvi vaxtlarında...

Dövri mətbuata abunə söhbəti də beləcə...

# Putin gülləkeçirməz jilet geyinməyə başlayıb

Rusiya xüsusi xidmət orqanları Vladimir Putinin müdafiəsini görünməmiş şəkildə gücləndirib.

Adalet.az xəbər verir ki, bu barədə "The Moscow Times" məlumat yayıb.

Xüsusi xidmət orqanlarının tövsiyəsi ilə o, açıq hava tədbirləri zamanı gülləkeçirməz jilet geyinməyə başlayıb: "Putini ictimai tədbirlərdə şəxsən bir neçə dəfə görən məmurun sözlərinə görə, o, hələ 2023-cü ildə Federal Təhlükəsizlik Xidmətinin və Prezidentin Mühafizə Xidmətinin məsləhəti ilə gülləkeçirməz jilet geyinməyə başlayıb".



# Dünyanın ən gözəl uşaqları...





**1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür.**

Aydındır ki, həmin gün o uşaqların sevinci yerə-göyə sığmır! Onları sevindirmək və qəlblərində xoş izlər qoymaq hamının borcudur! O ki ola şəhid balaları! Birinci və İkinci Qarabağ savaşında minlərlə şəhidlərimiz oldu.

Və onlar öz qanları, canları hesabına işğal altında olan torpaqlarımızı azad elədilər.

Bax onların qanı bahasına biz bu torpaqlarda yaşayır və qürurla gəzirik! Uşaqların Beynəlxalq Müdafiəsi Günü Füzuli rayonunun Allahyar Əliyev adına Böyük Bəhmənli kənd tam orta məktəbində də yüksək səviyyədə keçirilib! Belə ki, məktəbdə Füzuli rayonunun şəhid övladlarının görüşü təşkil edilib! Tədbirdə Füzuli Təhsil sektorunun əməkdaşı Əli Heydərov, Birinci Qarabağ müharibəsi qazisi Elman Rzayev, kənd ziyalıları Hacı Təbriz Süleymanov, Əsəd Kazımov, Natiq Şükürov, Böyük Bəhmənli kənd 1 nömrəli tam orta məktəbin direktoru Solmaz Qənimətli, şəhid anaları, könüllülərdən ibarət komanda və Allahyar Əliyev adına Böyük Bəhmənli kənd tam orta məktəbin kollektivi iştirak edirdi.






Məktəbin direktoru Həsən Rzayev çıxış edərək tədbir iştirakçılarını salamladı və şəhidlərimizin xatirəsini yad edərək onların övladlarını həmişə uca tutacaqlarını bildirdi! Dedi ki, biz bu torpaqda o şəhidlərimizin hesabına görə ayaqüstəyik və başuca gəzirik! Rəsmi hissədən sonra ədəbi- bədii kompozisiya başladı. Çox maraqlı təşkil edilmiş bədii hissə tədbir iştirakçılarının yaddaşında əbədi iz qoydu. Bir-birindən maraqlı rəqslər, səslənən mahnılar şəhid övladlarının qəlbinə bir sığal çəkir, ata həsrətinə bir məlhəm qoyurdu. Onların şərəfinə açılmış süfrədə hər təam vardı. Tortun kəsilməsi anı isə uşaqların çox böyük sevincinə səbəb oldu! Bu görüş bir daha göstərdi ki, şəhidlər xalqımız tərəfindən heç vaxt unudulmur və onların övladları diqqətdən kənarda qalmır!

**Deməli, onlar - şəhid balaları həmişə bax beləcə sevgi ilə əhatə olunacaq! Bir fikri də xüsusilə vurğulayaq ki, belə tədbiri ancaq vətənpərvər insanlar gerçəkləşdirə bilər. Bu tədbirin də təşəbbüskarı və icraçısı Allahyar Əliyev adına tam orta məktəbin direktoru Həsən Rzayevdir. O, böyük ziyalı və vətənpərvər insandır. Və həmişə də deyir ki, bu, bizim borcumuzdur! Çox sağolsun Həsən müəllim ki, bax şəhid balalarını belə sevindirə bildi! Bizim də borcumuz onların gözəl işini cəmiyyətə çatdırmaq oldu!!!**

**EMİL FAİQOĞLU**



## Aziz Sancar: "Azərbaycanda ilk dəfə Ədalət Muradovun dəvəti ilə olmuşam"

**Kimya üzrə Nobel mükafatı laureatı, UNEC-in fəxri professoru Aziz Sancar Bakıya səfəri çərçivəsində UNEC-də olub.**

Adalet.az xəbər verir ki, Nobel mükafatçısı Aziz Sancar UNEC rektoru professor Ədalət Muradovla birlikdə universitetdə yaradılmış Aziz Sancar adına Qida Təhlükəsizliyi Laboratoriyasında tədqiqatçılarla görüşüb.Aziz Sancar öz təəssüratlarını onlarla bölüşüb:

"Mən Azərbaycanda ilk dəfə 2017-ci ildə Ədalət müəllimin dəvəti ilə olumuşam. Həmin dövrdə müəllim və tələbələrlə çox faydalı və maraqlı görüşlərim baş tutdu. 2021-ci ildə isə hazırda olduğumuz laboratoriyanın açılışında iştirak etmişəm. UNEC-də belə bir laboratoriyanın yaradılması tədqiqatçılar və tələbələr üçün xüsusilə önəmlidir. Keyfiyyətli elmi araşdırmalar, tədqiqatlar üçün laboratoriyalar əvəzsizdir. Gənclər onlar üçün yaradılmış bu imkanı maksimum dərəcədə dəyərləndirsinlər". Tədqiqatçılar Nobel mükafatçısı, professor Aziz Sancarla görüşdən böyük qürur hissi duyduqlarını bildiriblər və dünya şöhrətli türkiyəli alimə elm, təhsil və tədqiqatla bağlı suallarını ünvanlayıblar. Prof.Aziz Sancar sualları cavablandırdıqdan sonra müəllifi olduğu "Aziz Sancarın kalemində Hayatı və Bilimi" adlı kitabını imzalayaraq, UNEC-ə hədiyyə edib.

Aziz Sancarın UNEC-ə səfəri rektor prof. Ədalət Muradovun, dekanların və struktur rəhbərlərinin iştirakı ilə çay süfrəsi arxasında səmimi və maraqlı fikir mübadiləsi və müzakirələrlə davam edib.

## Ekspert: "Bu halda cərimələnəcəklər"

**Məlum olduğu kimi, qanunda edilmiş dəyişikliklər 2024-cü il iyulun 1-dən qüvvəyə minir. Belə ki taksilərə bu cür tələblərin qoyulması qiymət artımına səbəb olub. Maraqlıdır,**

Bakıətrafı kənd və qəsəbələrdən mərkəzə doğru işləyən hər kəsin "1 manatlıq taksi" adlandırdığı bu xidmətin son halı necə olacaq? Məsələ ilə bağlı nəqliyyat məsələləri üzrə ekspert Elməddin Muradlı açıqlamasında bildirib ki, taksi haqqında qəbul edilmiş qərar çərçivəsində taksi fəaliyyəti ilə məşğul olmaq mümkündür:

"Az qalsın ictimai nəqliyyat qədər aktiv olan taksilərin keyfiyyətini artırmaq, taksidə olan nöqsanları aradan qaldırmaq üçün taksi haqqında müntəzəm qanunlar qəbul olunur. Taksi fəaliyyəti ilə məşğul olmaq üçün sürücülər qeydiyyatdan keçməlidirlər. Ancaq bu halda qanunun tələbinə uyğun şəkildə taksi kimi fəaliyyət göstərə bilərlər. Başqa cür məşğul olsalar, cərimələnəcəklər".

Ekspert qeyd edib ki, "1 manatlıq" taksilərin sürücüləri sırf taksi fəaliyyəti ilə məşğul olan sürücülər deyillər:

"Onlar adətən işə gedərkən yolüstü piyadanı götürüb öz gündəlik xərclərinin müəyyən hissəsini qarşılamağa çalışırlar. Ona görə onlar lisenziya almaqda və ya avtomobilinə taksometr quraşdırmaqda maraqlı deyillər. Lakin qanun qüvvəyə minəndə həmin sürücülərə İnzibati Xətalar Məcəlləsinin müvafiq bəndlərinə uyğun olaraq protokol və cərimə tətbiq ediləcək".

**Əntiqə KƏRİMZADƏ**

## Ətin qiyməti bahalaşır?



**Son vaxtlar ölkəmizdə bir çox ərzaq və qida məhsulları kimi, ətin də qiymətində artım hiss olunur.**

Xüsusən də quzu ətinin bahalaşması daha aydın görünür. Belə ki, həm regionlarda, həm də Bakıda demək olar ki, quzu əti daha baha qiymətə satılır! İndi ət köşklərində bir kiloqram quzu əti 20 manatdan aşağı qiymətə satılmır. Mütəxəssislər isə deyirlər ki, kiloqramı 20 manata satılan quzu deyil, toğlu ətidir. Sadəcə olaraq çoxları bu əti tanımadığına görə qəssablar camaatı aldadır.Çünki quzu altı aylıq olur və altı aydan sonra belə heyvanlar toğluya çevrilir. Bir də ki, ölkəmizdə heyvan qıtlığı yaranıb. Bu da istər-istəmiz ətin qiymətinin bahalaşmasına şərait yaradır. Hələ qarşıdan Qurban bayramı gəlir və bayram günlərində qoyun və quzu əti bir qədər də bahalaşacaq! Üstəlik bəzi işbazlar qıtlıqdan istifadə edərək süni bahalaşma yaradırlar. Ekspertlər də deyir ki, bayramdan sonra qoyun, quzu və dana ətinin qiyməti ucuzlaşacaq!

**Təki belə olsun! Amma əlaqədar qurumlar birmənalı olaraq süni bahlaşmanın qarşısını mütləq almalıdır! Yoxsa, işbazlar pul qazanmaq üçün çox oyundan çıxa bilər!**

## Dənizdə boğulanlar...

**Hələ çimərlik mövsümü gəlməyib, dənizdə çimməyə gedən adamlar var!**

Hansı ki, aidiyyatı qurumlar əhaliyə xəbərdarlıq edib ki, mövsum gəlməmişdən dənizdə çimmək çox təhlükəlidir. Çünki orada - yəni çimərlikdə insanların təhlükəsizliyini təmin edən Fövqəladə Hallar Nazirliyinin məlum qurumu fəaliyyət göstərmir. Onlar həmin yerlərdə iyunun 15-dən sonra işə başlayacaqlar! Amma buna baxmayaraq, bəzi insanlar çimərliyə gedir və çimirlər! Bu isə birmənalı olaraq qanuna ziddir!

Çox təəssüf ki, bu yaxınlarda bir nəfər nəzarət edilməyən yerdə çimdiyinə görə boğularaq ölüb! Hadisələr göstərir ki, aparılan izahat və maarifləndirmə işlərnə baxmayaraq, hələ də dənizdə vaxtından tez çimməyə can atan insanlar var!



**Əhali aidiyyatı qurumun tövsiyələrinə əməl etməli, monitorinq nəticəsində lazımi gigiyenik və sanitar qaydalara cavab verən çimərliklərə üz tutmalıdır və təhlükəsizlik xidmətinin əməkdaşlarının olmadıqları yerlərdə çimməməlidir! Çünki nəzarət olmayan yerlərdə kimsə çimərkən suda boğulsa, onun həyatını xilas edən olmayacaq!**

## Sürücülər diqqətsiz olanda...

**Hər bir sürücü sükan arxasında olanda son dərəcə məsuliyyətli və diqqətli olmalıdır.**

Ən azından ona görə ki, avtomobildə özündən başqa digər sərnişinlərin də həyatına cavabdehdir. Çox təəssüf ki, hər sürücü bu məsuliyyəti dərk etmir. Sərxoş halda sükan arxasında əyləşir, yorğun olsa da dincəlmir, bir sözlə, yol hərəkəti qaydalarını tez-tez pozur! Bu isə hər an qəza və ölüm deməkdir.



Hətta elə sürücülər var ki, həddindən artıq səhlənkarlıq edir, sükan arxasında yatır və idarəetməni itirir. Bu günlərdə Tovuz rayonunda sürücü yol səhv salaraq Kür çayına düşüb. Bir nəfər üzüb çaydan çıxa bilsə də , digər üç sərnişin suda boğularaq ölüb! Bax bu nə deməkdir? Bu, o deməkdir ki, o avtomobili idarə edən sürücü çox məsuliyyətsiz olub. Əgər diqqətli olsaydı, həmin faciə baş verməzdi! Ona görə də bu hadisə başqalarına dərs olmalı, sükan arxasında diqqəti artırmalı, özünün və yanındakıların taleyini düşünməlidir!

## "Azəriqaz"ın əməkdaşlarını...

**Hər il mənzillərin və evlərin hamam otaqlarında su qızdırıcısı cihazlarının standartlara uyğun olmadığına, tüstü-bacaların vaxtında təmizlənmədiyinə və digər texniki nöqsanlara görə onlarla insan dəm qazından boğularaq ölür.**

Heç şübhəsiz bu, əhalini və aidiyyatı qurumu narahat etməyə bilməz! Ona görə də artıq " Azəriqaz" xeyli vaxtdır ki, təhlükəsizlik tədbirlərini həyata keçirmək üçün fəaliyyətə başlayıb!

Onlar mənzillərə baş çəkir, qaz xətlərini, qurğuları, qızdırıcı su cihazlarını müayinə edir, mövcud nöqsan və çatışmazlıqları abonentlərin nəzərinə çatdırır və əhalini maarifləndirir!

Son bir neçə ayda yüzlərlə abonentə aşkar olunmuş nöqsanları aradan qaldırmaq tövsiyə edilib!

Bu tövsiyələrə əməl edən də olub, əməl etməyən də... Ən narahatedici fakt odur ki, bir çox abonentlər min bir bəhanə gətirərək "Azəriqaz" əməkdaşlarına evlərinin qapısını açmırlar.




**Bu isə ilk növbədə həmin adamların özlərinə ziyandır. Hər bir istehlakçı düşünməlidir ki, onun da üzərinə düşən vəzifələr var və o, həmin vəzifəni yerinə yetirməyə borcludur!**

**EMİL FAİQOĞLU**





Tural Cəfərli

# ONUN QƏRİBƏ SEVİNCİ

Məşhur Alman filosofu Hegel qeyd edirdi ki, estetik hissə malik olmadan mənəvi cəhətdən inkişaf etmək mümkün deyil. Bu ifadənin mahiyyətində həm də ”qəribə” bir mesaj var. Bəlkə də, qəribə deyil, ancaq adi də görünmür...

İndi bu qəribə mesajı müəlliflər əsərlərdə, kinolarda tez-tez göstərməyə çalışırlar. Ancaq bəzən bu istənilən nəticəni vermir... Halbuki ən sadə bir tərzdə, yazı ilə, həm də sosial şəbəkədə bunu etmək mümkündür.

Xalq yazıçısı Aqil Abbasın Xankəndiyə səfəri zamanı başına gələn maraqlı bir hadisə bayaq dediyim ”mesaj”ın ən sadə bir nümunəsidir, desəm yanılmaram. Sosial şəbəkə dili ilə desək postu olduğu kimi təqdim edirəm:

”Nəhayət, gəldim çatdım Xankəndinə. ”Qarabağ”ın ”MOİK”lə Xankəndi stadionunda Kubok oyununda iştirak etmişdim. Onda Xankəndində gəzmişdim. Maşını döndərdim Xankəndinə ki xanımım da gəzsin azad olan Xankəndində, ürəyi açılsın.

Elə təzəcə Xankəndinə girmişdim ki, qarşıdan gələn Yol polisi maşını məni saxladı. Cavan, sütül, boylu-buxunlu serjant özünü təqdim elədi. Çox təəssüf ki, soyadı yadımdan çıxıb, mən də həmin vaxt telefonla danışırdım. Dedi ki, sükan arxasında telefonla danışmaq olmaz, bu 80 manat cərimə və 3 baldır. Mən də gülümsəyirəm, serjant da çaşıb baxır ki, məni bunu cərimələyirəm, bu da gülümsəyir. Çox xoşhallanmışam ki, məni Xankəndində öz Yol polisimiz saxlayıb cərimələyir. Cəriməni ödəməyə hazırlaşırdım ki, bir polis zabiti yaxınlaşdı”.

Yazının post hissəsini oxumaq kifayət edir ki, yuxarıda vurğuladığım ”qəribə” mesajın mahiyyətini anlayasan. Bu mahiyyətin tərkib hissəsində həsrətin sonu, inamın əvvəli, həqiqətin qələbəsi var

Məncə, Aqil Abbasın bu ”qəribə” mesajı, həm də onun ”qəribə sevinci”dir. Adam cərimə olunmağının qəribə sevincini yaşayır və bunu o qədər həssaslıqla, bir o qədər də, təbiiliklə təsvir edir ki, bu hadisə adamın ürəyinə yağ kimi yayılır. Necə deyərlər, Aqil müəllimin cərimə olunduğuna sevinirsən.

Çox vaxt cərimə tədbirlərinə bu qədər neqativ baxdığımız bir vaxtda yazıçı kimi Aqil Abbasın cəriməsi fonunda ”qəribə” sevincinə hansı fəlsəfi izah verirsən, ver, hansı məna qatırsan, qat bu hadisənin bir adı var: ”Onun qəribə sevinci”...

## *Sahə həkimlərinin fəaliyyətinə nəzarət gücləndirildi*



**TƏBİB tibb müəssisələrində ilkin səhiyyə xidmətinin optimallaşdırılması və təkmilləşdirilməsi istiqamətində tədbirləri gücləndirib.**

TƏBİB-dən Adalet.az-a verilən məlumata görə, bu məqsədlə ilkin səhiyyə xidməti göstərən tibb müəssisələrində (şəhər və uşaq poliklinikalarında) sahə həkimlərinin və sahə tibb bacılarının tibb müəssisələrində və eləcə də xidmət göstərdikləri sahələrdəki iş saatları dəqiq tənzimlənib. Onlar iş gününün 4 saatını poliklinikada, 2 saatını isə sahədə vətəndaşlara tibbi xidmət göstərərək onların zəruri tibbi müayinələrini həyata keçirirlər. TƏBİB tərəfindən verilən, həmçinin sahə həkimlərinə gündəlik çağırışlardan əlavə, hər gün xidməti sahəsi üzrə dispanser qeydiyyatında olan xəstələri, ahıl şəxsləri (ən azı 2 xəstə) ziyarət etmələri, ertəsi gün isə həmin tibbi çağırış və aktiv gedişlərin müvafiq qeydiyyat jurnalında (TQS31 jurnalı) qeyd olunması tapşırığı verilib.

Bununla yanaşı, sahə həkimlərinin fəaliyyətini dəyərləndirmək üçün vətəndaşlardan xidmətin keyfiyyətinin sorğusu aparılır. Bütün bunlar TƏBİB-in prioritet tutduğu sahələrdən olan ilkin səhiyyə xidmətinin keyfiyyətinin daha da artırılması, eləcə də ilkin səhiyyə xidmətinin optimallaşdırılması və təkmilləşdirilməsi məqsədilə atılan addımlar çərçivəsində həyata keçirilir.

Qeyd edək ki, TƏBİB əhalinin ilkin səhiyyə xidmətinə əlçatanlığının daha da asanlaşdırılması və ümumilikdə ilkin səhiyyə xidmətinin optimallaşdırılması, keyfiyyətinin artırılması istiqamətində fəaliyyəti gücləndirib. Bununla əlaqədar, tibb müəssisələrində fəaliyyət göstərən sahə həkimlərinin işinin keyfiyyətini yüksəltmək məqsədilə onların işinə nəzarət artırılıb.

*Məti Osmanoğlu*

# Göylərə can atan qovaq ömrü



*Bəzən zamanın üstümüzdən yel kimi keçdiyindən, vaxtın bizi qabağına qatıb qovduğundan, ömrün qaçhaqaçından, etibarsızlığından şikayətlənirik. Keçmişdə qalan xatirələrin əksəriyyətini özümüzdən çox-çox uzaqlarda, zamanın qatı dumanı içində görürük. Gözdən itirdiklərimiz, görə bilmədiklərimiz də olur...*

*Ömrün elə anları, elə məqamları da var ki, aradan nə qədər zaman keçsə belə, o anlarla, o anların içindəki insanlarla aramızdakı məsafə heç dəyişmir. O anlarda gördüklərimiz, yaşadıqlarımız, o anların xatirələri rəngini, ətrini heç vaxt itirmir.*

*Zamanın üstündən qanrılıb geri baxanda yerini və görünüşünü dəyişməyən ömür dayanacaqlarından biri də tələbəliyin ilk günüdür.*

*O vaxt əksəriyyətimizin on yeddi yaşı yenicə tamam olmuşdu. Universitetin filologiya fakültəsində ilk dərsimiz olacaqdı. Zəng vurulmuşdu. Gözümüz qapıda idi. Həyəcanla desəm, yalan olar, böyük maraqla bizə ilk dərsi deyəcək müəllimi gözləyirdik. Qapıdan otuz yaşı haqlamış, səliqə ilə geyinmiş cavan bir oğlan girdi. Əsl müəllim görkəmi olan cavan oğlanın şərəfinə əsgəri intizamla və ehtiramla ayağa durduq. O da gülə-gülə "əyləşin!" deyib təmkinlə arxa oturacağa keçdi. Məlum oldu ki, tələbə yoldaşımızdır. Onun soyadını, adını fakültəmizin dekanı, professor Əkbər Ağayev jurnalda "hazır-qaib" eləyəndə öyrəndik: "İbadov Kamal"...*

*Bu hadisə 1975-ci il sentyabrın 1-də olub. İndi o gündən az qala yarım əsr keçir. Ancaq Kamal ilk dərsdən bu günə qədər, tələbəlik illərində də, tələbəlikdən sonra da dost və qardaş gözündə gördüyüm, ünsiyyəti davam etdirdiyim insanlardan biri oldu və olaraq qalır.*

*Tələbə vaxtı mən ona "Kamal dayı" deyirdim. O da məni səmimiyyətlə "bacıoğluluğa" qəbul eləmişdi...*

*Tələbə yoldaşlarımızdan Rasim, Xəlil və Kamal universitetdə bizimlə oxuyanda kifayət qədər həyat təcrübələri vardı və düzünü desəm, onları o yaşda universitet təhsili almağa sövq eləyən bədii ədəbiyyatın, şeirin tilsimli cazibəsi idi. O vaxtın insanlarında ədəbiyyata fanatik bir maraq və sevgi vardı.*

*Təcrübəli tələbə yoldaşlarımızın üçü də şeir yazırdı və onlar universitetə böyük xəyallarla gəlmişdilər...*

*Rəhmətlik Rasim şairliyin daşını tez atdı - ən azından, tələbkar və hər şeiri bəyənməyən filoloq tələbələrə şeir oxumaq həvəsindən tez düşdü. Hərdən ilhama qapılanda bədahətən qafiyə deməyindən isə qalmadı. Xəlil bədii yaradıcılığını davam etdirir. Bir müddət Gürcüstanda rayon qəzetində işlədi. İndi Rusiyada yaşasa da, Bakıda ona yaxın kitab nəşr etdirib. Həmin kitablardan birinin ön sözünü də mən yazmışam.*

*Kamalın şeir və nəsr əsərləri yazdığından isə tələbə yoldaşlarımızın çoxunun xəbəri olmadı. Hərdən yazdıqlarını yaxın bildiyi adamlara oxuyurdu, heç kəslə də mübahisə eləmirdi...*

*Kamal ilə tələbəlikdən sonrakı ilk görüşümüz "Ulduz" jurnalının redaksiyasında oldu. Mən onda jurnalda ədəbi işçi vəzifəsini "icra edirdim". Ata adını özünə təxəllüs götürən Kamal jurnalın redaksiyasına "Sürəkçi" adında bir hekayə təqdim eləmiş, yazı bəyənilmişdi. Jurnalda Kamalın hekayəsi və şeirləri çap olundu. O vaxta qədər də Kamalın mətbuatda ara-sıra bədii yazıları nəşr edilmişdi və əslində, bunlar onun üçün gecikmiş başlanğıc idi. Kamal oğlu Raufa həsr elədiyi (o biri oğluna - Rəşada da eyni məzmunda şeir həsr eləyib) "İlk addım" şeirində başlanğıcın insan həyatı üçün nə qədər əhəmiyyətli olduğunu vurğulayır:*

*Bizimçün açılmaz sirr idi hələ,*  
*İlk addım tanıtdı bizə göyləri.*  
*Titrəyən, büdrəyən ilk addım ilə*  
*Sındırdıq, dağıtdıq çox tilsimləri...*

*Kamal o vaxtın hərəkətli və mürəkkəb ədəbi mühitində öz imzasını təsdiq etmək, səsini eşitdirmək üçün də tilsimləri sındırmalı - bir çox maneələri keçməli, lay divarları aşmalı idi. Düşünürəm ki, onun qarşısındakı ən qalın divar öz xarakteri, təvazökarlığı oldu. Xarakterindəki keyfiyyətlər, təvazökarlıq Kamala ilk addımdan tanıdığı sonsuz göylərə can atan, ucala-ucala qocalan köklü qovaq ömrü yaşamaq qismətini verdi...*

*Göylərə can atan bu cavan qovaq*  
*Ucalmaq eşqilə ucalır elə.*  
*Gördükcə göylərin sonsuzluğunu*  
*Ucala-ucala qocalır elə...*

*Bu misralarda yaratdığı metafora Kamalın həm insan, həm də şair, nasir və*



*publisist kimliyini, yaradıcı şəxsiyyətini dəqiq ifadə edir. O, bədii yaradıcılıq yolunun başlanğıcında olarkən, ilk addımını atarkən başının üstündəki göylərin sonsuzluğundan yaxşı xəbərdar idi, bədii söz tarixinin kökünün dərində hansı laylara işlədiyini, budaqlarının haraya yüksəldiyini bilirdi. Üzünü sonsuzluğa tutan cavan oğlanın gözündə "Nizamilə dahiləşən, Füzulilə dühalaşan, Nəsimi əqidəsilə Allahlaşan Vətən" sözümüzün, mədəniyyətimizin tarixini yaradan şəxsiyyətlərin çiynində ucalmaqda idi. Kökü dərinə işləyən qovaq məhz bu ucalığı fəth etməyin eşqində idi...*

*Ancaq həyatın, gerçəkliyin hesab-kitabı könlü şeirlə dolu şairin hesabları ilə düz gəlmədi. Kamal Alışoğlu ilk şeirlər kitabını 2010-cu ildə, 61 yaşında nəşr etdirdi. "Sən adlı ünvan" kitabına xəsisliklə yazdığı yığcam ön sözdə, dəqiq desəm, "Ön söz əvəzi"ndə Kamalın şair taleyinin cizgiləri aydın əks olunub...*

*Mən kitabdakı şeirləri oxuyarkən iki məqama fərqli nəzər yetirməyə çalışdım:*

*-Qarabağ müharibəsi mövzusunun Kamalın şeirlərində necə əks olunması;*

*-tələbəlik illərində və müharibədən əvvəl qələmə alınmış şeirlərin poetik dünyası.*

*Kamalın şeirlərində Qarabağ müharibəsi mövzusunun necə əks olunması mənim üçün həm də ona görə ciddi əhəmiyyət daşıyır ki, o, Qarabağda - Cəbrayıl rayonunda,*

*Tumas dağının ətəyində doğulub-böyüyüb.*

*Birinci Qarabağ müharibəsi zamanı ermənilər tərəfindən işğal edilmiş Dağ Tumas kəndinə otuz ilə yaxın gediş-gəliş olmadı, kənd düşmən girovluğunda qaldı. Publisistik yazılarında, qəzet məqalələrində (Kamal uzun müddət "Respublika" qəzetində məsul vəzifədə çalışıb) Qarabağ problemini, xüsusilə doğma yurdundan, isti yuvasından didərgin düşən, yeni şəraitə uyğunlaşmağa çətinlik çəkən insanların qarşılaşdıqları faciəvi reallıqları vətəndaş yanğısı ilə qələmə alan, qaçqın düşərgələrindən təsirli reportajlar hazırlayan Kamalın kitabında birbaşa Qarabağ müharibəsindən, torpaqlarımızın işğal altında olmasından, insanların didərgin həyatından bəhs eləyən şeir "yoxdur" deyə biləcəyimiz qədər azdır. "Şəhidlərə", "Bir gecə Şuşada", "Abas, hey" kimi şeirlərin əhəmiyyətini azaltmadan, Kamalın Qarabağ mövzusuna təmkinlə yanaşmasında bir neçə səbəb görürəm. Birinci səbəb, məncə, Kamalın hər şeyə gözəllik, kamillik ölçüləri ilə baxan şair təbiətinin məğlubiyyətlə barışmamağıdır. Kamalın içindəki şair məğlubiyyəti qəbul və etiraf etmədi. Yəqin buna görə də o, doğma torpaqların işğal mənzərələrini, didərginlik ruhunu ifadə edən şeirlər yazmaq istəmədi. Kamal hələ "dünyanın düz vaxtında" öz kəndinin düçar olduğu ictimai ağrıları ürəyində və düşüncələrində daşıyırdı. Onun müharibədən əvvəl qələmə aldığı "O yerlərə gedəndə" şeiri yaxın tariximizdəki ziddiyyətlərin şair düşüncəsindəki əks-sədası kimi maraq doğurur. Bu şeirdə o vaxt gənc olan Kamalın yurd xiffətindən daha çox vətəndaş narahatlığını görmək mümkündür. Burada həm də müharibədən əvvəl yaranan ədəbiyyatın poetik iqliminə düşürürk, həmin iqlimlə Kamalın şeirlərinin təmasını görürük. Xüsusən dağ kəndlərimizdə yaşayan insanların həyatına laqeydlik kəndlərimizin boşalmasına, yurdlarımızın kimsəsizləşməsinə səbəb olurdu və o vaxt ədəbiyyat bu mövzuya həssaslıq göstərirdi:*

*Cavanlar quş qanadlı - uçublar şəhərlərə*  
*Boş yuvaya dönübdü haylı-küylü bu dərə.*  
*Hardasan sonam mənim, gözəllik dünyam mənim?*  
*A qayğılı bu günüm, a qayğısız dünənim,*  
*Sən gilas çiçəyiydin, şaxtaya, qara düşdün...*

*Sonradan "şaxtaya düşən gilas çiçəyinin" ağrısının üstünə evləri və taleləri tar-mar edən müharibə dəhşəti gəldi. Tarix kimi insan ömürləri də parçalandı. Müharibə vaxtı, həmçinin təxminən 30 il sürən "atəşkəs" dövründə Kamalın gördüyü müdhiş insan mənzərələri, mühairbənin əlində pələsəng olmuş talelər onu dərindən sarsıtmaya bilməzdi. O, birbaşa müharibəni, müharibədəki ölüm-itimləri, məhrumiyyətləri şeirin mövzusuna çevirməsə də, şeirə və dünyaya müharibənin içindən keçən və yurdun ağrılarını içində daşıyan insanın sarsıntılı nəzərləri ilə baxdı. Hətta başqa mövzuda yazdığı əsərlərdə belə, bu sarsıntını, yanğını, daxili təlatümü görməmək mümkün deyil:*

*Min fikir içimdə yeyir qəlbimi,*  
*qaranlıq pərdələr keçir gözümdən.*  
*Hərdən hiss etmirəm özüm mənəmmi,*  
*Hərdən də qaçıram özüm özümdən.*

*Tarixin və taleyin sınaqları nə qədər ağır, nə qədər zalım olsa belə, Kamalın şeirlərində gizli bir qüvvə onu dünyanın əyilən arşını ilə tarazlıq yaratmağa sövq eləyir, ümidlərdən qopmağa, zamanın selində axıb getməyə qoymur. Onu həyata və dünyaya bağlayan təsəlliləridir. "Təsəlli" şeiri Kamalın özü ilə söhbətidir və həm yaradıcılığını, həm də insan kimi kimliyini səciyyələndirmək baxımından mənalıdır.*

*Ümidim doğranıb dırnağım boyda,*  
*Odlu nəfəsimdən çıxmayıb ahım.*  
*Əllərim çənəmdə nə qədər dözüm,*  
*Təsəlli Allahım, ümid Allahım...*

*On il bundan əvvəl şair dostumuz Əbülfət Mədətoğlu Kamalın 65-illik yubileyi münasibətilə səmimi bir məqalə yazmışdı. Həmin yazıdakı son cümlələri xatırlatmaq istəyirəm: "Mən sadəcə, bu söhbətin sonunda Kamal Alışoğlunu bir daha təbrik edir, ona cansağlığı, yaradıcılıq uğurları və bir də doğma torpaqlara dönmək üçün daha dözümlü olmaq, daha ümidli olmaq diləyimi çatdırıram".*

*Bu diləyin on yaşı, sənin də 75 yaşın tamam oldu, Kamal dayı! Uca Tanrımıza şükürlər olsun ki, torpaqlarını düşmən işğal etmiş məğlub ölkə adı üstümüzdən götürülüb.*

*İndi işğaldan azad edilmiş Qarabağ yeni həyatını, yeni həyatın sevincli və qayğılı günlərini yaşayır. Yaxın vaxtda səninlə Araz yaxasına getməyi, oradan Tumas dağına qalxmağı dilək eləyirəm. Tumas dağının qənşərində ayaq saxlayıb, bu şeirini oxuyarsan:*

*Baxıb bu dağlara dağa dönmüşəm,*  
*Arzular qəlbimdə aşıb-daşıbdır.*  
*Əsrin təhlükəsi yadımdan çıxıb,*  
*Dünya gözlərimdə yaşıllaşıbdır...*

# LAÇINIM, LAÇINIM,

## ŞUŞADAKI HƏBSXANANI XAN QIZININ TİKDİRDİYİNİ BİLİRDİNİZMİ?!

*(II məqalə)*

Bu Tar fabrikinin yanında, ordankı Şuşa gözəl görünür, Bəxtiyar müəllimin maşını dayandı. Təbii ki, biz də dayandıq. Bəxtiyar müəllim, Oktay Akbal və xanımı maşından yendilər...

Və gözlənilmədən Oktay Akbal otların




üzərində uzanıb sürünməyə, torpağı öpməyə başladı. Bəxtiyar müəllimin gücü çatmadı onu yerdən qaldırmağa. Şahmar Əkbərzadə yüyürüb qonağı qucaqlayıb qaldırdı.

Bəxtiyar müəllim soruşdu:

- Oktay bəy, nə olub?

- Mən Pənah xanın nəslindənəm. Hamıdan gizlədirdim ki, birdən məni Şuşaya buraxmazlar. Uşaqlıqdan and içmişdim ki, Şuşanı görəndə dizin-dizin sürünəcəm.

Əynində ağ kostyum vardı, ot onu gömgöy göyərtmişdi.

Sonra Şuşanın birinci katibi Əhəd Kərimov ona təzə kostyum bağışlasa da kostyumunu dəyişmədi.

- Bu takım əlbisəylə əynimdə Türkiyəyə qayıdacam, sonra onu evin ən görkəmli yerindən asacam. Çünki onda Şuşa torpağının, otunun ətri var. Müsafirlərimə də lovğa-lovğa deyəcəm ki, mən getdim babamın tikdiyi şəhəri gördüm.

Mən bunu dəfələrlə yazmışam, dəfələrlə də xanımıma danışmışam. O da xətrimə dəyməmək üçün qulaq asır.

Ərimgəldiyə az qalmış yolun kənarında bir çayxana var, maşını orda saxlayıram.

Qacar Tiflisi yandırıb yenidən Şuşaya qayıdanda, bax, bu yerdə atını saxlayıb və Qalaya xəbər göndərib ki:

- Ya qapıları açın, ya da sizi Tiflisin gününə salaram.

Sonra qapılar açılır, Şuşanın axundu ağsaqqallarla birlikdə gəlib Qacarın hüzuruna, diz çöküb Şahənşahın atının ayağından öpüb və Qalanın açarlarını təqdim edir.

Xanımım deyinir:

- Bunu Batmanqılıncda yazmısan, oxumuşam da.

- Bunu məndən əvvəl Yusif Vəzir Çəmənzəminli yazıb. Qarabağnamələrdə də var.

Həmin yerdən ilk gözə dəyən Şuşa həbsxanasıdı. Yəqin çoxları bilmir ki, bu həbsxananı Xan qızı Natəvan tikdirib. Xan qızının qardaşı cinayət törətdiyinə görə həbs olunmuşdu, Sibirə göndərmək istəyirdilər, Xan qızı da Çara müraciət edir ki, icazə ver Qalada bir həbsxana tikim, qardaşım cəzasını orda çəksin. Çar da Xan qızının xətrinə dəymir. Təbii ki, həmin həbsxana indiki müasir həbsxanalardan fərqlənirdi. Zindan formasında tikilmişdi. 15 nömrəli kamerada da Xan qızının qardaşı yatmışdı. Bu kameraya burjuy kamerası deyirdilər. ”Dolu” romanında bu barədə yazmışam. Bu kamerada yatanlar sonra lovğa-lovğa danışırdılar:

- Sən mənlə söhbət eləyə bilməzsən, mən on beş nömrəli kamerada yatmışam.

Nodar Dumbadzenin ”Ağ bayraqlar” əsərində belə bir yer var. Yazır ki, Metex qalası (həbsxanası) Çar hökuməti vaxtı tikilmişdi. Sonra sovetlər hakimiyyətə gələndə bu həbsxanaya bir qədər əl gəzdirib adı və funksiyasını saxlamaqla verdilər zəhmətkeşlərin daimi istifadəsinə.

İndi sovetlər gələndən sonra Şuşa həbsxanasına da bir az əl gəzdirib adı və funksiyasını saxlamaqla vermişdilər zəhmətkeşlərin daimi istifadəsinə.

Yekə-yekə danışmaq olmasın, mənim Dəvəçi adlı (əsl adı Hafiz idi, amma Qarabağda hamı onu Dəvəçi çağırırdı) özündən razı bir dayım vardı. O da gəbəli-xəlili həmin kamerada yatmışdı. Əsgərlikdən imtina etdiyinə görə tutmuşdular.

Xanımım:

- Dayın Sovet ordusuna xidmət eləməyə etiraz etməmişdi ey, qorxusundan əsgərliyə getməmişdi.

Və əslində dediyi həqiqət idi.

1992-ci ilin mayından sonra bu həbsxanada ermənilər bizim əsirləri saxlayırdılar. Bu həbsxananın divarları bizim əsirlərə verilən işgəncələrin şahididi. Dilləri olsa nələr danışardı, onu bir Allah bilir.



Yəqin ki Şuşa bir mədəniyyət mərkəzi olduğuna görə daha burda həbsxana fəaliyyət göstərməz. Amma həmin həbsxananı təmir edib İşgəncələr muzeyinə çevirə bilərlər. Gələn turistlər də görər ki, ermənilər burda azərbaycanlı əsirlərin başına nə oyun açıblar, necə işgəncələr veriblər.

Nəhayət, polislər portalda adımızı yoxlayandan sonra bizi buraxırlar şəhərə, Gəncə qapısından giririk. Gözümün



qabağına Şuşanın girişindəki çayxananın üstünə çıxıb şəkil çəkdirən ermənilər gəlir. İndi həmin çayxana yoxdu, söküblər.

Gəlirik ”Şuşa” otelinə. Otelin əməkdaşları məni tanıyır.

Deyirlər:

- Aqil müəllim, siz Qarabağ komandasıyla da gəlmişdiniz

Resepşndə işləyən xanım qız nəzakətlə soruşur:

- Müəllim, keçən dəfəki otağınızı verim?

- Fərq etməz.

Ağdamdan Şuşaya yarım saatlıq yol olsa da biz bu yolu iki saata gəlmişik. Gəzəgəzə gəlmişik, vaxtımızın çoxunu da Xankəndidə keçirmişik.

Bir saat istirahət edəndən sonra düşürük şəhəri gəzməyə.

Şuşaya ilk köçənlərdən, evinin açarlarını da Möhtərəm Prezidentdən alan Kərim Kərimliyə zəng edirəm. Təbii ki, birinci təbrik edirəm, ”sağ əlin bizim başımıza” deyirəm, sonra da:

- Kərim, biz düşdük Qoçətdə bir tikə çörək yeməyə, gəl ora.

Gəlirik ”Qoçət”ə. Hava yaxşı olmasına baxmayaraq, bayıra qulluq eləmirlər, deyirlər ki, keçin içəri.

Keçib bir stolun arxasında otururuq. Gözləyirik, yaxınlaşan yoxdur. Ofisiantı çağırmaqdan yorulmuşam:

- Ay qardaş, bir bəri bax.

Ofisiantın vecinə də deyil. Öz-özünə gileylənir:

- Mən neyləyim, tək qalmışam.

Yadıma köhnə bir rus anekdotu düşür. Bir rus bir yaponla Moskvada oturur restoranda, nə qədər gözləyirlər ”Qoçət”də olduğu kimi, ofisiant yaxınlaşmır. Yapon cibindən kibrit qutusu çıxarır və bir kibriti yandırıb tutur əlində, kibrit yanıb qurtarır, amma ofisiant gəlmir.

Yapon:

- İkinci kibriti də yandıracam ha.

Rus:

- Yandır da, nə olacaq?

- Əgər ikinci kibrit yanıb qurtaranacan ofisiant gəlməsə onu işdən çıxaracaqlar.

Rus gülüb deyir:

- O, Yaponiyadadı. İstəyirsən bütün qutunu yandır, heç kim onu işdən çıxarmayacaq.

”Qoçət” əsl Avropa restoranıdı, Avropada da yarım saatdan çox ofisiant gözləyirsən.

Nəhayət, ofisiant menyünü gətirir. Menyüda ağız dadımıza uyğun nə isə axtarırıq. Hansını soruşuruqsa, ofisiant deyir, o yoxdur. Yaxud da deyir ki, hələ hazırlanmayıb.

- Bəs, nəyiniz var?

- Hazır şalanpurumuz var, bir də kabablar.

Bu vaxt Kərim gəlib çıxır.

- Kərim, deyirlər burda şuşalıların öz kafesi var, bizi apar ora, bir Qarabağ yeməyi yeyək.

- Var idi, kiminsə mülkündə yerləşmişdilər, mülk sahibləri şikayət etdilər çıxartdılar. İndi deyəsən, şəhərin aşağısında, hardasa bir yer götürüb işlədirlər. Qoy zəng edib yerini öyrənim gedək.

Yerini öyrənir, dururuq. Çıxanda istəyirəm ”Qoçət”i işlədənlərə ”Məşədi İbad” kinosundakı kimi deyəm ki, mənim min manatlıq papağım burda qalsa, onun dalınca bura gəlmərəm. Demirəm, sadəcə istehza ilə süzüb çıxıram.

Şəhərin ucqar bir yerində axtarıb şuşalıların kafesini tapırıq. Bizi çox hörmətlə qarşılayırlar, xeyli də adam var. Bayırda stol azdı, dörd nəfər gənc tez




ayağa qalxır ki:

- Buyurun, oturun. Biz çayı ayaq üstə də içərik.

Dərhal bir çay verirlər və soruşurlar ki, nə hazırlayaq?

- Əsl Qarabağ çığırtması.

Mənzərəli bir yerdi. İki göz istəyir tamaşa eləsin, hava da xoş.

Duranda hesabı almaq istəmirdilər, tək mənə görə yox, elə Kərim müəllimə görə də. Az qala əlbəyaxa olub hesabı ödəyirik.

Qorxuram mənim bu yazımdan sonra ”Qoçət”in sahibləri şuşalıların kafesini bağlada.

Xanımım:

- Kərim, burda bir məktəb direktoru vardı Arsen Xaçaturyan, biz atamla onun qonağı olmuşduq. O evi mənə göstərə bilərsən?

Kərim:

- Əvvəl çıxaq Cıdır düzünə, sonra tapıb göstərərəm...

Qalanı da qalsın sabaha.

Xanımımın ”Yol” romanı var. Mən Laçın səfərini onun kimi yaza bilməsəm də, amma təxminən povest kimi yazacam. Əgər oxucular istəsə.

# LAÇINIM MƏNİM!

## GEDİB URUS OLAJAM

*(III məqalə)*

Xanımım:

- Kərim, burda bir məktəb direktoru vardı Arsen Xaçaturyan, biz atamla onun qonağı olmuşduq. O evi mənə göstərə bilərsən?

Kərim:

- Əvvəl çıxaq Cıdır düzünə, sonra tapıb göstərərəm.

"Qarabağ" otelinin altından Cıdır düzünə gedən yolda möhkəm iş gedir.



Kranlar, ağır yük maşınları, iki hündürmərtəbəli binanın tikintisi davam edir. Burdan keçirik, sağ tərəfdə Şuşanın məşhur bazarı yerləşir. Yadıma dostlarımın bir zarafatı düşür, möhkəm gülürəm.

Deməli, belə. Bərdəli bir dostumun xalası yenir Arana - bacısıgilə. Bir həftə, on gün qalandan sonra bacısına deyir ki, Şuşanın yaxşı vaxtıdı, indi də sən dur gedək bizə. Dostum anasıyla xalasını götürür və qalxır Şuşaya. Bazara çataçatda görür xalası oğlu bazarın qabağındadı. Maşını bir az uzaqda saxlayıb düşüb gəlir. İki xala oğlu görüşüb-öpüşür.

Arandan gələn dostum xalası oğluna deyir:

- Xalaoğlu, iki dənə gözəl-göyçək urus xalaşkası tutmuşam, bir yaxşı bazarlıq elə gedək meşəyə kef eləməyə.

Şuşalı xalaoğlu girir bazara babat bir bazarlıq edir iki torbanı alır qucağına çıxır. Gəlirlər maşının yanına, torbaları qoyur kapotun üstünə, deyir:

- De görüm, nətər xalaşkalardı?

Gəlir arxa qapını açır, görür maşındakıların biri anasıdı, biri də xalası. Özünü itirir.

Anası soruşur:

- Noldu, ay bala, salam da vermədin?

Şuşalı xalaoğlu:

- Heç, Allah buna lənət eləsin.

Bu hadisəni danışıram, xanımım da gülür.

Bu da Bazar meydanı.

Əbdürrəhim bəy Haqverdiyevin bir məşhur hekayəsi var. Şuşada hamıya pislik edən demaqoq bir adam varmış, camaat ondan qorxurmuş. Kimdən nə istəyirmiş dərhal yerinə yetirirmişlər. Bir gün hamı sözü bir yerə qoyur ki, day bəsdi, bizi yığdı boğaza, day ona heç kim heç nə verməsin.

Kimə yaxınlaşır, heç kəs onu eşitmək istəmir. Axırda qalxır bazarın qabağına deyir:

- Ay camaat, məni eşitməsəniz gedib urus olajam.

Hamı da deyir ki, cəhənnəmə get urus ol. Bu vaxt bir nəfər çıxır irəli, üzünü camaata tutub deyir:

- Ay camaat, bu, müsəlmandı başımıza belə oyun açır, görün urus olsa nə pəstaha çıxaracaq. Gəlin nə istəyir verək rədd olub getsin, urus olmasın.

Yaxşı ki, Sovet hökuməti dağıldı, yoxsa hamımız gedib urus olajaydıq!

Maşını Göhvər ağa məscidinin qarşısında saxlayıram. Düşüb giririk məscidin həyətinə. Üzümüzü Şuşa azad olunandan sonra ilk Azan verilən minarələrə tutub dualar edirik. Kərim Kərimli isə məscidin həyətində ziyarətə gəlmiş qadınlarla və bir də bir kişi ilə öpüşüb-görüşür. Yaşlı bir qadını göstərib deyir ki, bu mənim müəlliməm olub.

Məlum olur ki, yeni tikilən Füzuli şəhərinə ilk köçənlərdəndi, kişi də ustad yazıçı Seyran Səxavətin qardaşıdı.

Seyrana zəng edirəm:

- Ustad, Şuşadayam.

- Ay namərd, bir dəfə də məni apar də.

- Ala, qardaşın Vaqiflə danış.

- Boy, ver görüm telefonu.

Məmməd Arazın qardaşı oğlu əsgərlikdən qayıdır gəlir oxuduğu məktəbə, hansı ki atası da, əmisi də bu məktəbdə dərs deyib. Girir məktəb direktorunun otağına, ordan telefonla Bakını yığır, əmisini. Hamı eşidir ki, uşaq Məmməd Arazla danışır, doluşurlar otağa. O deyir ver mən də danışım, bu deyir ver mən də danışım.

Uşaq həmişə bu hadisəni danışıb gülürdü və deyirdi:

- Neçə ildi məktəbdə telefon var, heç kimin ağlına gəlməyib ki, burdan birbaşa şairi yığıb danışa bilərlər.

İndi Seyranın qardaşı da ustad ilə elə danışırdı ki, elə bil uzun illərmiş danışmırmışlar, əllərində mobil telefon ola-ola.

Vaqif deyir:

- Həftədə bir dəfə xalalarımı, qohum-əqrəbadakı xanımları yığıb gətirirəm Şuşaya, Göhvər ağa məscidini ziyarət etməyə.

Bizi çox istəklə Füzulidə təzə aldıqları evə qonaq dəvət etsə də vaxtımızın olmadığını, səhər Laçına gedəcəyimizi bildirib ayrılırıq. Ayrılanda Vaqif soruşur ki, sən canın, maşında kitabın var, bir-ikisini ver aparım Füzuliyə. Təzə çıxan iki kitabımı bağışlayıram Vaqifə.

Sonra üz tuturuq Cıdır düzünə. Yeni inşa edilmiş möhtəşəm bir məktəb binasının yanından keçəndə Kərim məlumat verir ki, Mikayıl Gözəlovun qızını bura məktəb direktoru qoyublar.

Xanımımın yadına nəsə düşür:

- Kərim, burda bir internat məktəbi vardı, biz atamla onun yataqxanasında qalmışıq.



Kərim:

- Siz internat məktəbin yataqxanasında yox, sağdakı binada qalmısınız, Pedaqoji Texnikumun yataqxanasında. Çünki internat məktəbi başqa yerdədi.

Cıdır düzünə qalxanda xanım yolun solundakı xaraba qalmış evləri göstərib deyir:

- Bax, bu evlərin hansındasa Əli Kərimin arvadı Elzanın qohumları yaşayırdı. Biz onların qonağı olmuşuq.

Bir armud ağacını göstərib deyir:

- Deyəsən, ordakı evdi. Həyətlərində böyük bir armud ağacı vardı.

Bu da Cıdır düzü.

Şuşa azad olunandan sonra ilk dəfə Cıdır düzünə qalxanda heyrətə gəlmişdim. Ermənilər Cıdır düzündə qoymamışdılar Cıdır düzülük qala. Ağır yük maşınları ilə vəhşicəsinə bu müqəddəs yeri eşim-eşim eşmişdilər. Elə bil nəyinsə heyfini alırlarmış. Çünki bu Düz onlar üçün heç bir müqəddəs məna daşımırdı.

Cıdır düzü niyə müqəddəsdir?!

Dünyanın düz vaxtı Malıbəyliyə Bakıdan Vasif Quliyevin toyuna gəlmiş qonaqları götürüb çıxartdım Cıdır düzünə.

Mehman Cavadoğlu mənə sataşmaq üçün dedi:

- Nə var ey, Cıdır düzü, Cıdır düzü, basıb bağlayırsız. Nədir buranın müqəddəsliyi?

- Mehman, burda Pənah xan gəzib, İbrahim xan, Mehdiqulu xan gəzib, Vaqifin, Natəvanın ayaq izləri var. Xanlar burda at yarışları keçirib, Şuşa camaatı üçün toy-bayram təşkil edib, burda Şuşa igidləri qurşaq tutublar. Məmməd bəy burda öz batman qılınclarını oynadıb. Bu düzə Vaqifin və oğlunun qanı tökülüb. Heç bilirsən burda kimlərin ruhu var?!

Mehman da gülüb dedi:

- Ə, hirslənmə, zarafat edirəm.

İndi ermənilər sanki Cıdır düzünü bu hala salmaqla Pənah xandan, İbrahim xandan, Məmməd bəy Batmanqılıncdan intiqam alıbmışlar. Axmaqlıq və insana yaraşmayan bir şey, əgər erməniyə insan demək mümkünsə.

İndi bu neçə ildə Cıdır düzü öz doğmalarının nəfəsini duyub və əvvəlki vəziyyətinə qayıdıb.

Bilmirəm hansısa il idi, biz orta məktəbdə oxuyurduq. Məktəbliləri Cıdır düzünə gəzməyə aparırdılar. Onda bura maşınları da buraxırdılar. Arandan gələnlər də, şuşalılar da axşamlar öz süfrələrini Cıdır düzündə açırdılar.



Deməli, bir yük maşınında məktəbliləri gətiriblər, sürücü maşından düşüb ehtiyatsızlıq edib əl əyləcini çəkməyib. İçi uşaqla dolu maşın yellənib üzü aşağı, sıldırımlığa doğru. Burdan maşın düşsə bu uşaqların bir tikəsi də ələ gəlməz.

Bu vaxt ailəsi ilə istirahətə gəlmiş bir Müəllim bunu görür. Gecikmək olmazdı, özünü çatdırıb çöməlib oturur daş kimi dal təkərin altında, maşın dayanır. Bu hadisə Qarabağda bomba kimi partlamışdı.

Deyirlər qəhrəmanlar unudulmur. Çox təəssüf ki, bəzən unudulur. Yəqin ki, indi otuzdan çox uşağın həyatını xilas etmək üçün özünü şəhid edən həmin Müəlllimi indi xatırlayan yoxdur.

Xanımım deyir:

- Burda, sol tərəfdə bir yeməkxana vardı, biz orda çörək yemişik.

Kərim:

- Ermənilər dağıdıblar, amma özülü qalıb.

İradəni yendirirəm sıldırıma doğru. Daşlardakı güllə yerlərini göstərib deyirəm:

- Gör bizim igidlər hardan atışa-atışa dırmaşıblar ey. Bu güllə yerləri də onların atdıqları mərmilərin yeridi.

Bir daşın üstündə oturur. Gülüb deyirəm:

- Dur gəl bu daşın üstündə otur, bu daş yumşaqdı.

- Deyirsənsə gəlim o daşın üstündə oturum.

Xanımımı Cıdır düzündə keçirdikləri atalı-analı günlərin xatirələri ilə baş-başa qoyuram.

Bu vaxt mənlə Kərimə bir ailə yaxınlaşır. İki cavan oğlandı, yanlarında da uşaqları və xanımları. Kərimlə öpüşüb-görüşürlər. Kərim cavan oğlanları mənlə tanış etmək istəyir.

Deyirlər ki:

- Biz Aqil müəllimi yaxşı tanıyırıq.

Məlum olur ki, bu gənc oğlanlardan biri xüsusi təyinatlıların müharibə vaxtı podpolkovniki imiş. Əli ilə Daşaltı tərəfdəki dağları göstərib deyir:

- Aqil müəllim, bax, gördüyün dağlar var ey...

(Ardı var)



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# Ruhun səsini dinləyərkən yaşadıqlarım...

**Adətən oxuduğum hər hansı bir kitabı və yaxud sözü, cümləni öncə necə deyərlər elə belə - yəni kitab kimi, söz kimi, cümlə kimi görürəm.Və bu məqamda özümü sıradan bir iş görmüş adam kimi hiss edirəm. Ancaq üstündən müəyyən zaman, hətta bəzən beş-on dəqiqə keçəndən sonra da məni özünə çəkən kitab, söz, cümlə olur. Və bu gün də var. Məsələn, Nüsrət Kəsəmənlinin, Əli Kərimin, Rüstəm Behrudinin, Xalq şairləri Bəxtiyar Vahabzadənin ,Sabir Rüstəmxanlının, Zəlimxan Yaqubun Məmməd Arazın , Şahmar Əkbərzadənin və digər yazarlarımızın hansısa bir şeiri yəqin ki, çoxlarının diqqətini çəkib. Bax bu mənada son günlər yazı masamın üstündə yer tutmuş gözünü gözümdən çəkməyən bir kitabla təmasdayam. Demək olar ki, onun vərəqlərini çevirməkdən kitab da deyəsən mənimlə isinişib...**

Elə ona yaxınlaşan kimi dərhal açıram, tam səmimiyyətlə deyim ki, bu kitabdakı şeirlərin əksəriyyəti mənə ruhumun səsi qədər yaxındır. Çünki onların özündə ehtifa etdiyi fikirlər,həm də hisslərdir- yaşanmış hisslər! Bir oxucu olaraq şeiri oxuyanda elə bilirəm ki, səs eşidirəm- hisslərini səsini ! O səs şeiri gözümün önündə canlandırır. Şeir dipdiri olur.Baxır gözlərimin içinə.Və mən ona sarılmaqdan özümü saxlayan bilmirəm.Bu, diri sözün qüdrətidir. Ona nfəs verən söz adamı üzünü Tanrıya tutub deyir:

*sevinə- sevinə*
*qəriblikdən*
*ağappaq buluddan*
*tikilən evimə,*
*sənə dönürəm,*
*evdəsənmi, İlahi?*

Bu bəndi oxuyanda yəqin siz də göz önünə ağ buludu gətirdiniz, onun evə bənzərliyini gördünüz. O ”ev”in qapısını açıb siz də içəri keçdiniz. Və içinizdə olan Allah o evdə ”bəndəm, xoş gəldin” dedi sizə. Bu ”xoş gəldin” artıq Allaha qovuşmaqdır.Allahın dərgahında olmaqdır.

Yaxud da:

*Bu nə eşq, nə sevda imiş*
*Yol nə yerdə, nə göydəymiş.*
*Dərdin özü dərman imiş,*
*Rəbbin yolun bulanlara.*

*Gələn gedəndən çox imiş,*
*Bilgi bilәndən çox imiş,*
*İnsan Tanrının sirriymiş*
*Sirrə sirdaş olanlara...*

*Kim deyir gedənlər dönmür,*
*Dualardan yol görünür,*
*Ölüm toy- vüsal günüdür,*
*Yurda qurban olanlara...*

Mən bu şeiri ilk dəfə oxuyanda əlimi ürəyimin üstə qoyub and içə bilərəm ki, biraz xoflandım. Çünki ölümün toy- bayram olduğunu, vüsal olduğunu, bu qədər zərif -incə, az qala pıçıltı ilə ifadə etmək, o böyük çoşğunu adamın ruhuna hopdurmaq tapıntıdır, kəşfdir, ya da möcüzədir. Mən bunun adın hələ də bilmirəm.Təkcə bildiyim odur ki, müəllif yurduna, vətəninə qurban gedənləri, yeni şəhidlərimizi vüsala çatanların zirvəsinə qaldırır.Onların şəhidliyini Tanrıya qovuşmaq mərtəbəsində görür.Təbii ki, Tanrıya qovuşmaq da toy- bayramdır, vüsaldır!




Bu fikir ən müqəddəs kitabımızda da öz təsdiqini tapıb.Şəhadətə yüksəlmək hər adama nəsib olmur axı.

Mən bu kitabın başqa bir səhifəsində yenə heyrət doğuran fikirlə qarşılaşıram. Əslində bunu hamımız bilirik qığılcım da işıq yarada bilir.Yəni qaranlıqda işarır, özünü göstərir.yəni diqqəti çəkir.Deməli o qığılcım qaranlığa meydan oxumaq gücündədir.Bu mənada kiçik bir əl fanarının qaranlığı yarması şairin oxucuya təqdimatında həmin gücün əks edilməsidir. Əl havasında dolaşdığın qaranlığın içərisində hayına çatan o kiçik fanar sənə yol göstərir- işıq yolu! Sən də o işıq yolu ilə işığın ardınca gedirsən. Elə şair də bunu poetik şəkildə bizə çatdırır:

*Kiçik əl fənəri*
*bapbalaca boyuyla*
*könüllərdən,*
*düşüncələrdən*
*zülmət xofunu qovmuşdu...*

Deməli buradan bir məna da ortaya çıxır: - Qaranlığa qalib gəlmək üçün kiçik olmaq, zəif olmaq qorxulu deyil.Əsas var olmaq- qaranlığı yaramaq, işıqlandırmaq istəyində olmaqdır.Mən bu şeirin aurasında həmin OLMAĞI gördüm.Anladım ki, insan öz yerində, öz anında olanda onda qaranlıqlar qorxulu olmur.Təbii ki, müəllifin mənə xatırlatması daxilimdəki müəyyən ümidsizliyə bir tərs şillə oldu.Özüm özlüyümdə inandım ki, ümid sonuncu ölür deyənlər, yanılmayıblar.Həqiqətən, mənə görə , həyat ümid öləndə bitir.Ona görə də kitabdakı ümidlər şeirini təkrar - təkrar oxudum. Onun bir bəndini dəsizə çatdırıram:

*Qıymayın əzilsin bir könül,*
*sınsın bir ürək.*
*Qaldırın bu daşı,*
*səpələnsin ətrafa*
*sevgilərim,*
*ümidlərim*
*çiçək- çiçək...*

Burada söhbət həyatımıza, ömrümüzə, hətta ürəyimizə yükələnən daşdan gedir.Yolumuza yumalanan, əlimizi altında saxlayan daşdan gedir. O daşı qaldıranda ümidə nəfəs verilir, bax o ümid də çiçək-çiçək açır. Həm bizim üçn, həm də çevrəmiz üçün.Sadəcə onu istəmək, o işi görmək bizə qalır. O istəyi gördüyümüz anda da yaşamın mənası da dəyişir bizim üçün. Yalanın, saygısızlığın, etinasızlığın, hətta tapdalanan haqqımızın bizə nələr yaşatdığını, bizə nələr toxduğunu anlamağa başlayırıq. Dərk edirik ki , yalandan Allaha and içməklə çox da uzağa getmək olmur. Atacağımız adddım büdrəməklə başa çatacaq.Ona görə də şairə qulaq asmaq, onun şeirindəki fikir yükünü anlamaq yerinə düşər.

*Allah özü şahiddir gizlilərə,*
*könüllərdən keçənlərə.*
*Görmürsənmi, gülüm,*
*Allah yalanlardan,*
*olanlardan bezib*
*çoxdan çıxıb gedib,*
*insanlar olmayan yerə...*

Sonuncu fikir, mirsa yəqin sizi də düşündürür.Yəqin sizing də ağlınızdan gəlib- keçdi ki, insanlar, yəni biz olmayan yerlər Allahı darıxdırmayacaqmı?Şəxsən mən bu sualın ardına düşüb, bir neçə gün yol getdim.Və gəldiyim nəticə də bu oldu ki, dünyada insanlar olmayan yer var, amma Allah olmayan yer yoxdur.Deməli şair bizi öz fəlsəfi düşüncəsiylə yenidən Allah olan yerə qaytardı.Dedi ki, ay insanlar, siz olmayan yerlətdə də Allah var. Onu unutmayın.Allahını unutmayanlar, sonda qalib olurlar.Çünki onların dəstəyi Allahdandır.! Bunu bildiyimiz üçün biz öz Allahımıza hər zaman sevgilərlə, saygılarla, ümidlə əl açırıq.Və bir bəndə olaraq içimizdən keçənləri də Allahla bölüşürük. Odur ki, şair də bir bəndə olaraq, içindəki sızıltını, acını da Allahla bölüşür və yazır:

*Bir söz sorsam, bilərsənmi?*
*Yer üzü göyün əksimi?*
*Sağ- salamat yerləşdinmi?*
*Yerdən göyə köçən adam?*

Insan sevdiyini, doğmasını, əzizini itirəndə haldan- hala düşür.Zaman- zaman barışmır bu itgiylə.Çoxdakı torpağın üzü soyuqdur. Alır bizdən aldığını, sinəmizə dağ çəkir. Ancaq göy üzü bizə təsəlli verir , inandırır ki, itirdiyimiz Tanrı dərgahındadır. Ən müqəddəs yerdədir.Bax o ən müqəddəs yerdə olan üçün də biz bir təlaş yaşayırıq.Bir narahatlıq keçir içimizdən.Düşünürük ki, görəsən necə yerləşdi, rahatlana bildimi?Sonra da yenə yerinin Tanrı dərgahı olduğunu qəbul edib, buna inanıb, sükürlər edirik.Bax elə bu təsəllimiz də bir qurtum su kimi, bir udum havam kiimi bizi rahat edir.

Baxmayaraq ki, ayrılıq elə ayrılıqdır və bunun başqa adı yoxdur. Bunu şair də etiraf edir:

*Bu cənnət, bu da cəhənnəm*
*O əzrayıl, bu da ki mən.*
*Qələmimnən, qələmiynən*
*Yazılıram yarpaq- yarpaq.*

*Yol hanı çıxıb getməyə?*
*Qaçıb ölümü ötməyə,*
*Külümdə od böyütməyə*
*Bağlanıram ayrpaq- yarpaq.*

*Can dediyin qorxum imiş.*
*Uçub gedən ruhum imiş,*
*Ölüm solğun yuxum imiş*
*Oyanıram yarpaq- yarpaq.*

Bir hissəsini təqdim etdiyim şeirdə öncədən vurğuladığım hislərin toplumunu gördüm. Elə bil ki, bir dəstə bənövşə idi, bir qom nərgiz idi. ətri də, rəngləri də bir- birini elə tamamlayırdı ki, o cənnətdən ayrılamq istəmidim. Bütün bunlar da sözlə çəkilmiş rəsm əsəri idi mənim üçün. O rəsmi açmışdım vərəq- vərəq gözümün qarşısında. Baxırdım, duyurdum, hiss edirdim və özüm hopurdum həmin hisslərə. Necə ki həmin hislər mənə hopmuşdu.Bu sözün bütün mənalarda özü demək idi.Yəni SÖZ nəyə qadir olduğunu sərgiləmişdi mənim üçün. Şair də öz sözünün ağası idi bu yerdə. Yazır ki:

***Qoymaz bir kimsədən minnət götürəm,***
***Ölüm xəbərimi söz yetirəcək.***
***Oğuldan, uşaqdan, dostlardan qabaq,***
***Mənim cənazəmə sözüm girəcək.***

Və həmin şeirin sonunda şair sanki oxucuyabir nişanə göstərir:

***Qalaca ruhumun yükü sözümdə,***
***O məndən doymadı, doymadım ondan.***
***Mən ”Ol”la gəlmişdim, ”Öl”lə gedirəm,***
***Yaşamaq ümidim başlayır sondan.***

Mən bu kitab barəsində ilkin yaşıntılarımı, ilkini duyğularımı ona görə ”Sözüm” şeiri ilə bitirirəm ki, müəllif burda həm göstərir, həm də çox böyük inamla öz iddiasını ortaya qoyur.Bəyan edir ki, sözüm uzunömürlüdür, ölümsüzdür və yaşayacaqdır.

Məndə bir oxucu olaraq bu gerçəyə inanıram.Ən azından ona görə ki, ”Deyilən söz yadigardır”.Yadigarlar isə ölməzdir.

***P.S.** Barəsində söhbət açdığım kitabın adı ”Ömrün yaddaşı”-dır ! ”Ömrün yaddaşı”-nın müəllifi isə Sona Vəliyevadır!*

## *32 il sonra şəxsiyyəti müəyyənləşdirilən şəhid dəfn olundu*



**Birinci Qarabağ müharibəsində itkin düşmüş və şəxsiyyəti müəyyənləşdirilənlərdən biri də Səbuhi Yamən oğlu Süleymanovdur.**

Adalet.az xəbər verir ki, Birinci Qarabağ müharibəsində naməlum şəhid kimi Tərtərdə şəhidlər qəbiristanlığında dəfn edilən Səbuhi Süleymanovun nəşinin qalıqları bu gün Şəkinin Cəfərabad kəndinə gətirilib.

Şəhidin nəşi əvvəlcə ailəsinə təhvil verilib. Ata yurdunda şəhid üçün vida mərasimi keçirilib.

Mərasimdə yüzlərlə kənd sakini, şəhidin ailə üzvləri, qazilər, eləcə də rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının əməkdaşları, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Cənazə namazı qılındıqdan sonra şəhidin nəşi kənd qəbiristanlığında torpağa tapşırılıb, dualar oxunub. Dəfn zamanı hərbi orkestrin müşayiəti ilə Dövlət Himni ifa olunub, yaylım atəşi açılıb.

Qeyd edək ki, Səbuhi Süleymanov 1972-ci ildə anadan olub. İkiillik hərbi xidmətdən sonra döyüşlərə könüllü qatılıb. Ailədə üç övlad olublar. 1992-ci ildə Ağdərə uğrunda gedən döyüşlərdə itkin düşmüş sayılırdı.

## *Respublika Klinik Xəstəxanası köçürülür*

**Respublika Klinik Xəstəxanası köçürülür.**

Adalet.az xəbər verir ki, bu barədə TƏBİB-in icraçı direktoru Vüqar Qurbanov jurnalistlərə açıqlamasında deyib.

V.Qurbanov bildirib ki, Nərimanov Tibb Mərkəzindən sonra, Respublika Klinik Xəstəxanası da köçürüləcək.

Onun sözlərinə görə, tibb müəsisəsində əsaslı təmirə ehtiyac var: ”Yaxın müddətdə təmir işlərinə başlanılır. Həkimlərimizin vətəndaşlara tibbi xidməti daha keyfiyyətli təmin etmək üçün yeni təmir olunmuş tibb müəssisələrə ehtiyac var.

**Ümumilikdə tam olaraq tibb müəssisənin bağlanması haqqında müzakirə getmir. Hissəvi olaraq, korpusların birbir təmir olunacağı nəzərdə tutulur”.**

*Saz havası üstdə*

# 75 yaşın söhbəti...

**Bəzən zamanı qınayırıq...illərin acımasız olduğunu dilə gətiririk...vaxtın azlığını az qala özümüzün qurduğu dar ağacına çəkirik...Bütün bunlar isə heç də eləbelə, yəni səbəbsiz baş vermir.Həmin səbəb elə bizim narahatlığımızın içində, mayasında özünə dam tikib, yuva qurub. Və bunu ovcumuzun içi kimi bilən, görən bizlər bir növü özümüzü görməyən, bilməyən göstərməyə çalışırıq...cəhd edirik! Amma..**

Bəli, hamımıza gün kimi aydın olan "bu amma" açılmazlıqdı! Reallıq, gerçəklik və həqiqətdi. Cəm halında bizim bütünlüyümüzü anbaan özündə ifadə edəndi. Fikrimi bir az da çılpaqlasam , onda deməliyəm ki, doğumdan başlanğıc alıb bu yazını oxuduğunuz ana qədər olan zaman kəsiyindəki sənsən, mənəm, o-dur!

Bax elə, bizi zamanla qarşılaşdıran, onunla vuruşduran da elə budur! Gerçəklik olan " bu amma" isə hər zaman qalibdir! Qalibin iradəsi isə müzakirə olunmur! Deməli biz içində olduğumuz zaman kəsiyinin başlanğıcına tərəf boylanmaq məcburiyyətindəyik - özümüzü görüb, tanıyıb , tanıtmaq üçün...

Barəsində könül dostum Şahismayıl Şəmmədoğlundan və Vüqar həkimdən eşitdiyim Əhməd müəllimlə bağlı bildiklərimi, öyrəndiklərimi təkrar-təkrar yaddaşımda təzələdim...Təbii ki, məqsədli şəkildə... Və birdən yadıma ustadım, unudulmaz xalq şairimiz Zəlimxan Yaqubun bir fikri düşdü.Zəlimxan müəllim söhbətlərimizin birində vurğuladı ki,Gücüstan azərbaycanlılarının ucdantutma hamısının sazdan, sözdən çox mükəmməl məlumatı var Çoxluq da saz çalıb, söz deyə bilir. Xatırladığım bu söhbət mənim üçün köklənməyə "Sarıtel" havası üstə yazıya başlamağıma təkan verdi...



## *Öncə tanış olaq*

Əhməd Adil oğlu Məmmədov 1949-cu ilin iyun ayının 9-da Gürcüstanın Qardabani rayonunun Kosalı kəndində doğulub.Torpaqla təması, ağac budaqlarına qalxmağı, mal-davar saxlamaq qayğılarını, bağ-bostan becərməyin çətinliyini öyrənə-öyrənə 1956-1966 -cı illərdə Kosalar kənd orta məktəbində oxuyub.Həyat məktəbinin onu bərkə-boşa çəkməsi bəhrəsiz qalmayıb. O oxuduğu sinifdə də yaşdlarından fərqlənməyi bacarıb.Nəticədə sovet dönəminin qanunlarına uyğun olaraq qazandığı təhsil uğurlarına görə gümüş medala layiq görülüb.Bu Əhməd Adil oğlunun ilk diqqətçəkən mükafatı idi. Orta məktəbi bu cür uğurlu nəticə ilə başa vuran Əhməd Adil oğlu 1966 -cı ilin yayında sənədlərini o vaxtkı Azərbaycan Politexnik İnstitunun (İndiki ATU -Ə.M.) Elektrotexnika fakultəsinə verdi. Burada xüsusi qeyd etmək lazımdır ki, ailənin müəyyən qayğıları Adil kişiyə oğlunu Bakıya gətirməyə imkan vermirdi. Bu qayğı missiyasını Adilin qardaşı, kəndin sayılan kişilərindən olan Şəmməd öz üzərinə götürdü. Və o, Əhmədi Bakıya gətirdi. Qəbuldan sonra isə kirayə ev tapıb tələbə Əhmədin bu problemini də çözdü. Bütün bunları Şəmməd kişi Əhmədin savadına, nəsilin və elin önə çıxan ilk nümayəndəsi olduğu üçün, həm də atasının adını daşıdığı üçün təmənnasız etmişdi.

Bu seçimi etməkdə onun əsas məqsədi respublikamızda yeni elmi sahə olan "Radiotexnika" ixtisasına yiyələnmək idi.İndinin özündə də Əhməd müəllim dəfələrlə vurğulayır ki, bu ixtisası gələcək üçün seçdim.Başa düşdüm ki, radiotexnika bütün zamanlar üçün zəruridi Bu ixtsas üzrə işlə təmin olunmaq heç vaxt problem deyil və olmayacaqdı!



Təbii ki, ali təhsil illəri onun yanılmadığını sübut etdi. Real həyata açıq və cəsarətlə baxan , görüb öyrəndiklərini qiymətləndirməyi bacaran Əhməd Adil oğlu artıq institutda da , yəni tələbə arenasında da seçilib önə çıxa bildi. Artıq o bir çox müəllimləri ilə təkcə müəllim -tələbə yox, həm də sabahın gənc mütəxəssis-alimi kimi münasibət qura bilmişdi. Fakultənin pedaqoji kollektivi yavaş-yavaş onu öz sırasına çəkirdi.

1974-cü ildə tələbəliklə vidalaşan Əhməd Adil oğlu sovet ordusunda xidmət keçib yenidən Azərbaycan Politexnik İnstituna qayıdır. Bu qaydış əvvəlkindən çox fərqlənirdi. İlk gəlişdə öyrənmək istəyi, ikinci gəlişdə öyrənə-öyrənə öyrətmək - işləmək istəyi onun qəlbinə hakim idi. Bəli, ataların bir ulu fikri bu məqamda öz təsdiqini tapdı , yəni " Niyətin hara, mənzilin də ora!" Etdiyi seçim Əhməd Adil oğlunun adına əmək kitabçasının açılması ilə rəsmləşdi. O , bir zamanlar təhsil aldığı ali məktəbdə öncə lobarant, sonra isə laboratoriya müdiri oldu.

İllər bir-birin əvəz etdikcə Əhməd müəllimin də uğurları ilə paralel alim nüfuzu da çalışdığı ali məktəbin hüdudlarını aşırdı. Gənc alimin uğurla müdafiə etdiyi namizədlik işi dövrünün ən maraqlı elmi hadisələrindən idi. 2020-ci ilin dekabrında "Əməkdar müəllim" fəxri adına layiq görülmüş Əhməd müəllim 4 övlad atasıdır. O , bu gün də bir alim-müəllim kimi öz pedaqoji fəaliyyətini Heydər Əliyev adına Hərbi İnstitutun "Elektronika və telekommunikasiya" kafedrasında davam etdirir.

## *75 yaşın anları...*

Kosalı kəndində yurd sahibi olmuş Adil Əhməd oğlu ilə Şöhrət Muxtar qızının birgə nigahlarında bir qız, üç oğul dünyaya gəlibdi. Oğlan lar ali, qız isə orta təhsillidi. Yəni Əhməd müəllimin qardaşları İsmixan , Zəlimxan və Elmxan ali təhsil alıblar. Hazırda İsmixan və Elmxan Kosalıda ata-baba yurdunun işığını yandırırlar. Zəlimxan isə paytaxtın 6 saylı poliklinikasında həkim-stomotoloq kimi fəaliyyət göstərir.Əhməd müəllimin övladlarının dördü də ali təhsil alıb. Böyük oğlu Pərviz İstanbulda yaşayıb işləyir ,Rəşad Almaniyyanın Bonn şəhərində informasiya texnalogiyaları üzrə mütəxəssis, Anar və Sevda isə Bakıda yaşayıb işləyirlər. Bu övladların dördü də oğul-qız sahibidi. Bunu ona görə xüsusi vurğulayıram ki, Əhməd müəllim söhbətində övladlarından daha çox nəvələrindən danışdı. Vurğuladı ki, üç nəvəm idmanla məşğuldu. Bu uşaqlar Avropa çempionatlarında öz bölmələri üzrə bir neçə dəfə bayrağımızı yüksəklərə qaldıra biliblər. Yunan -roma güləşi üzrə 2-ci və 3-cü yerləri tutublar.



Əhməd müəllim onu da dedi ki, bu gün gənclər üçün ölkəmizdə geniş şərait var.Hər kəs seçdiyi işin qulpundan tutub qabağa çıxa bilər. Sadəcə inadkar, məqsədli və əməksevər olmaq lazımdı. Doğrudur, bu gün bəzi texnalogiya və labarator şərait baxımından hələ böyük dünyadan geri qalırıq, cihazlarımızın bir qismi 70-80-ci illərə aiddi. Buna baxmayaraq sürətlə yenilənmə gedir, Qarabağı azad edən xalq, onun gənc övladları digər problemləri də bütünlüklə çözəcək.Müəllimlərin, elm, mədəniyyət, incəsənət, bir sözlə yaradsıcılıq siferasının təmsilçiləri maddi sıxıntıdan qurtaracaq!.

**Bəli, həmsöhbət olduğum Əhməd müəllim 100-dən çox elmi-metodik işin, iki dərsliyin və 30-dan artıq dərs vəsaitinin müəllifidir.Əhməd müəllif dəfələrlə Azərbaycan alimlərini Beynəlxalq Konfranslarda təmsil edib. Xüsusilə Çin də, Almaniyada, Türkiyədə onun elmi fəaliyyəti diqqət mərkəzində olub. Bu gün də azərbaycan aliminin fəaliyyəti bu sahənin araşdırıcıları tərəfindən böyük maraqla öyrənilir.**

... Bu günlərdə ömrünün 75-ci yayının əlini sıxan Əhməd Adil olu ilə söhbət edərkən hiss etdim ki onun özəl dünyasına saz havaları hakimdi...O , özünün də qeyd etdiyi kimi, yorulanda, sıxılıb darıxanda və bir də qarşılaşdığı haqsızlıqdan dilxor olanda onun köməkçisi, xilaskarı və səbr diləyəni saz havalarımız olur...O gözlərini yumub sakitcə dinləyir...Baş sarıteli...Yanıq Kərəmi ...Ruhani...Gözəlləmə... Bu havalar onun üçün həm ana laylasıdı, həm də toparlanmaq üçün verilən ilahi güc! İnanıram ki bu cür dəstək Əhməd müəllimə hələ çox illərin kürəyini yerə vurmaqda kömək edəcək...Əslən Gürcüstandan olan ailə dostum Səlim həkimin də dediyi kimi, el-oba təssübkeşliyi, ağsaqqallıq bacarığı və səmimiyyəti Əhməd müəllimin həyatda ən üstün cəhətlərindəndi. Bu isə həm də onun qazandığı el-oba duasıdı!

**Əbülfət MƏDƏTOĞLU**

# Altmışıncı qonağım evə girmədi...



*Kərim Kərimli*

**Dostlar, altmışıncı (12x5) qonağım evə girmədi...**

**Şəkil də çəkdirmədik...**

**Zəng elədi, dedi ki, gəlirəm sizə...**

**Ünvanı bildirdim.**

**İki maşın adam gəldi...**

**Nə qədər təkid etsəm də içəri keçmədilər.**

**Məni qucaqladı, kövrəldi...**

**Dedi ki, mən hələ də bu möcüzəyə inanmıram. Gəlmişəm səninlə Şuşada görüşüm, bağrıma basım və öz gözlərimlə görüm ki, Şuşa işğaldan tam azaddır, burada öz millətimiz üçün təzə evlər tikilib və camaat öz yerinə-yurduna qayıdır. Bu məni bu yaşımda xoşbəxt edir. Əgər mən bu günü gördümsə, deməli, dünyanın ən xoşbəxt adamıyam!**

**Allah şəhidlərimizə rəhmət eləsin!**

**Ali Baş Komandandan sıravi əsgərədək bütün Silahlı Qüvvələrimizi qorusun, qazilərimizə can sağlığı versin!**

**Sonra oğluna tapşırdı ki, Rusiyada yaşayan qardaşına, yəni oğlunun əmisinə video ilə zəng etsin və telefonu oğlundan alıb dedi:**

**- Qardaş, gözün aydın, Şuşada Kərimgildəyəm!**

**Telefonu mənə verdi, Rusiyadakı qardaşı ilə xeyli danışıb-güldük, sevindik..**

**Sonra da məni yenə də qucaqladı:**

**- Allahın bu gününə çox şükür! Min şükür! Milyon şükür! - deyib əyləşdi maşına.**

**Gəldikləri kimi də sürətlə getdilər...**

**Uzun müddət bu görüşün təsirindən çıxa bilmədim...**

***P.S.Altmışıncı "qonaq" böyük qardaşım Arzuman Kerimli nin sinif yoldaşı və 70 illik yaxın dostu, Füzuli rayonunun Yağlıvənd kəndinin ağsaqqallarından olan Sahib Aslanov, söhbətimizə Rusiyadan video əlaqə ilə qoşulan isə onun qardaşı Varşa Aslanov idi...)***

# ABŞ müharibənin Rusiya ərazilərinə keçməsini istəmir

**Baydenin məsləhətçiləri etiraf edirlər ki, bu məsələdə ABŞ-la Ukraynanın maraqları üst-üstə düşmür**

Ağ Ev nüvə müharibəsinin başlaya biləcəyindən ehtiyat edir. Ukraynanın artıq itiriləcək heç nəyi qalmayıb. Ərazilərinin böyük bir hissəsi Rusiya tərəfindən işğal olunub, qalan hissəsi də işğal olunmaq təhlükəsiylə üz-üzədir. Ona görə də ABŞ münaqişənin daha da qızışmasında maraqlı deyil. Onlar müharibənin sonsuzluğa qədər, nisbətən sakit məcarada davam etdirilməsini istəyirlər. Qırılan ukrayna vətəndaşları, dağılan şəhərlər, məhv edilən infrastrukturlar və s. onlar üçün heç bir əhəmiyyət kəsb etmir.

Daha əvvəllər də yazırdıq ki, Birləşmiş Ştatları Ukrayna və ukrayna xalqının gələcək taleyi maraqlandırmır. Bayden hakimiyyətinin əsas məqsədi Rusiyanı iqtisadi və hərbi cəhərdən çökəltmək, hətta imkan yaranarsa parçalayıb məhv etməkdir.

Lakin zaman ötdükcə "Sem dayının" bu arzuları puça çıxmaqdadır. Rusiya iqtisadi cəhətdən nisbətən əziyyət çəksə də, hərbi cəhətdən hələ də ayaq üstə durmağı bacarır. Bunu son zamanlar həyata keçirdiyi işğal əməliyyatlarının əhatəsinin genişləndirilməsi də sübut edir.

ABŞ və Qərb dövlətləri günü-gündən Ukraynaya hərbi yardım paketlərinin siyahısını artırsa da, cəbhədə dönüş yaratmaq mümkün olmur. Artıq Ukraynanın ən böyük şəhərlərindən sayılan Xarkov şəhəri də, işğal təhlükəsi qarşısındadır. Ukrayna prezidenti Volodimir Zelenski bütün dünyaya həyəcan təbili çalmaqla, verdikləri silahlardan Rusiya ərazilərinə hücumlar həyata keçirilməsinə icazə verilməsinə razılıq ala bilmir. Ukrayna nə edəcəyini bilmir. Avropa İttifaqının və NATO-nun 20-yə yaxın ölkəsi, onların verdikləri silahlardan Rusiya ərazilərinə zərbə endirilməsinə icazə vermirlər. Kiyevin isə bu əməliyyatları həyata keçirmək üçün müvafiq silahları yoxdur.

Rusiya tərəfi isə, əks halda taktiki nüvə silahlarından istifadə edəcəkləri ilə Qərbi daima təhdid etməkdədir.

Fransa prezidenti Emanuel Makron, NATO-nun baş katibi Yens Stoltenberq, Avropa diplomatiyasının təhbəri Cozep Borrel kimi Qərbli liderlər, Ukraynaya Rusiyanın ərazilərundəki hərbi obyektlərin vurulmasına icazə verilməsi ilə bağlı bəyanatlar səsləndirsələr də, onların bu tələbləri digər liderlər tərəfindən etirazla qarşılanır. Bir sözlə, ABŞ-ın və tərəfdaşlarının öz maraqları xatirinə Ukraynanı qurban kimi ortaya qoymaları göz qabağındadır. Qərb ehtiyat edir, Ukrayna isə bir dövlət kimi dünya xəritəsindən silinmək təhlükəsi qarşısındadır.

Hələ ki, bu regionda nə vaxtsa sabitliyin yaranacağından danışmaq mümkün deyil.

**Rüstəm Hacıyev**

# «Paşinyan «soyqırımı» deməsə də, böyük qüvvələr yalanı körükləyir»

*Bir neçə gündür erməni mediası baş nazir Paşinyanın mifdən ibarət olan və dünya gündəmini zəbt edən saxta erməni soyqırımına münasibətini yenidən müzakirələrə çıxarıb. Xatırlayırsınızsa, bu ilin aprelində Ermənistan baş naziri Nikol Paşinyanın qondarma soyqırımı ilə bağlı verdiyi göstəriş ermənilər təlaşlandırıb. Əlbəttə ki, yüz illik yalanlarının üzə çıxacağından ehtiyatlanan ermənilər Ermənistanın arxivlərində bu barədə yetərincə məlumat və materialların olmadığını etiraf ediblər.*

*ABŞ prezidenti Co Baydendən fərqli olaraq Paşinyanın 1915-ci il hadisələri ilə bağlı ”böyük fəlakət” və ”cinayət” ifadələrindən istifadə etməsi də Ermənistanda mübahisələrə səbəb oldu. Paşinyan həmin hadisələr üçün işlədilən ”soyqırımı” sözü əvəzinə ”böyük fəlakət” və ”cinayət” sözlərindən istifadə edib. Paşinyan qısa müddətdə müxalifət dairələrindən kəskin reaksiya aldı.*

*Hətta 1919-cu ildə -Birinci Dünya Müharibəsindən sonra ABŞ prezidenti Vudro Vilsonun Ermənistanla münasibətləri araşdırmaq üçün Yaxın Şərqə komissiya göndərdi Komissiyanın rəhbəri Türkiyədə araşdırma aparan General Harbord həmin müddətdə rəsmi hesabat hazırladı. Hesabatında bunları qeyd etdi: ermənilərin iddialarının yalandır,soyqırımdan söhbət gedə bilməz! Belə olduğu halda ermənilər niyə 1965-ci ildən etibarən saxta ”erməni soyqırımın”na sarıldılar ”sualımıza siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Zaur Əliyev cavab verir.*

**- Zaur müəllim , ABŞ hələ 1919-cu ildə elan etdi ki, Osmanlı dönəmində erməni soyqırımı olmayıb. Ondan sonra uzun müddət bu söhbət gündəmə gəlmədi. Qəflətən 1965-ci ildə artıq ermənilərin yalandan qaladıqları ocağın üstünə sanki kimsə yağ tökdü...Kimdir, erməniləri yalana həvəsləndirən?**

-Məlumdur ki, 2001-ci ilə qədər rəsmi Vatikan 1915-ci ildə Osmanlı imperiyası daxilində baş verən hadisələrlə bağlı ”soyqırım” sözünü işlətməyib. 2001-ci ildə Roma Papası 2-ci İohan Pavel ilə Patriarx 2-ci Qareginin yaydığı bəyannamədə ilk dəfə ”soyqırımı” sözü işlədilib. Bundan sonra Vatikan siyasətini dəyişdirdi.

**-Niyə məhz 2001 -ci ildə birdən birə Papa bu ifadəni işlətdi?Buna səbəb Nyu-Yorkda yerləşən Dünya Ticarət Mərkəzinin qüllələrinin partladılması səbəb oldu? Axı, bu terrorda müsəlmanlar hədəfə alındı?**

- Əslində səbəb daha dərində idi....Papalığın bütün maliyyə sistemi rəsmi olaraq Dini İşlər İnstitutu (IOR) kimi tanınan Vatikan bankı üzərində qurulub. Bu bankın fəaliyyətinə nəzər salanda Dini istiqamətdə xərclənən pullardan çox çirkli pulları yumaq, Papanı bir çox işlərdə razı salmaq üçün böyük məbləğli korrupsiya məsələləri ilə görmək olar.

Hazırda Avropada ”Dünyanın ən məxfi bankı” kimi də tanınan IOR çirkli pulların yuyulması və korrupsiya ilə tanınır. IOR ilə bağlı ən böyük qalmaqallardan biri onun əsas səhmdarı olduğu Ambrosiano Bankın Siciliya mafiyası üçün çirkli pulların yuyulmasında ittiham olunması idi.

Çox uzaq zamana getməyək, elə 2022-ci ildə Roma Baş Prokurorluğunun araşdırma hesabatında Dini İşlər İnstitutu (IOR) adı altında fəaliyyət göstərən Vatikan Bankının bəzi köçürmə əməliyyatlarında Aİ ölkələrində çirkli pulların yuyulmasının qarşısının alınmasına yönəlmiş qaydaları pozduğu təsdiqlənib. İstintaq çərçivəsində, keçən aylarda pulların yuyulması əməliyyatı şübhəsi ilə IOR-dan JP Morgan Frankfurt və Fucino banklarına köçürülən 23 milyon avroya həbs qoyan prokurorluq, təxminən 140 milyon avro məbləğində pul köçürmə əməliyyatlarını da yoxlamağa qərar vermis idi.

Məhz bu banka 2001-ci ildə 25 milyard dollarlıq bir köçürülmə baş verir. Köçürülümə İsveçrə banklarından birinin vasitəsilə baş verib və köçürməni edən isə Amerikalı milyarder Kirk Kirkoryan idi. Bu pul hansı məqsədlə köçürülüb. Kirkoryan ABŞ-da Fresno şəhərində (Kaliforniya ştatı)-da anadan olub. 1800-cü illərin sonunda Maraşdan ABŞ-yə köç etmiş bir ailənin övladı idi. Atası Aharon Qriqoryan, anası Liliya Qriqoryandır. Böyük biznesə malik olan Kirkoryan 9 yaşında Türklərin düşməni olaraq çıxışlar etməyə başlayıb. Bütün var dövlətini Türkiyə və Azərbaycan əleyhinə yönəldib. Qarabağ işğalda olanda 80 milyon dollar Xankəndi-Şuşa-Laçın yolunun çəkilməsinə xərcləyib.



**- Oxucularımız bu erməni milyarderi yaxşı tanıyır. Hollivudda ilk dəfə ”Qondarma erməni soyqırımı” mövzusunda olan ”Vədə” filminin çəkilməsi üçün 100 milyon dollar ayırdı. Film romantik səhnələrlə dolu bir sevgi hekayəsi ətrafında soyqırımın təbliğatı idi. Film ”Oskar”a namizəd oldu. Hər ilin 24 aprelin dünyanın 70-ə yaxın ölkəsinin dövlət televiziyalarında nümayiş olunur.**

- Bəli həmin o millətçi erməni, Vatikana kiçik miqdarlarda maliyyə yardımı edərək Papa II İohann Pavelin diqqətini cəlb edir və onunla görüşməyə razı olur. Görüş zamanı əldə edilən razılıq belə idi:



**1)** Vatikan Gizli Arxivlərində bolqar əsilli polkovnik Panço Dorefin təqdim etdiyi sənədlərin üzə çıxarılmaması (qeyd edim ki, 1931-ci ildə erməni məsələsi ilə bağlı sənədlərin Bolqarıstana, oradan da Vatikana qaçıran şəxsdir)

**2)** Erməni Katolik Kilsəsini ziyarət edən Apostol kilsəsinin nümayəndəsi monsinyor Jovanni Naslian tərəfindən Papanın katibi, kardinala yazdığı hesabat üzə çıxarılmır. Çünki həmin hesabatda əldə etdiyimiz bir məktubda Jovanni Naslian Papaya yazır ””Erməni Katolik Kilsəsi katoliklərin Türk hökumətinə çətinlik yaratmayacağı təminatını verirlər. Türk hökuməti də katoliklərə hər zaman yaxınlıq göstərdiyini bəyan edir. Katolikləri sadiq və güvənilsi təbəələri kimi tanıdıqlarını rəsmən qeyd edirlər.”

**3)** Vatikanın Osmanlı dövləti ilə yazışmaları üzə çıxarılmır

**4)** 1915-ci ildə Vatikanın xüsusi nümayəndələrinin Osmanlı dövlətində apardıqları araşdırmalar üzə çıxarılmır

**5)** Papa Ermənistana səfər edir və soyqırım abidəsini ziyarət edir və soyqırım faktını təsdiq edir.

**6)** Bütün bunlar icra edilsə 25 milyard dollar Vatikanın IOR bankına köçürülür.

- Papalar üçün hələ qarşıdakı müsəlmandırsa, pulun xətrinə onların əleyhinə qərar vermək su içimi kimi asan bir işdir.

- Elə belə də olur. Bu müqavilədən sonra Vatikan Gizli Arxivləri Müdiri Sergio Paganonun ”Il Messaggero” qezetində müsahibəsi dərc edilir və Papanın belə qərar qəbul etməsindən qəmgin olduğu ifadə işlədilir.

Vatikanın gizli arxivlərində olan, 1915-ci ildə ”soyqırım” olmadığını göstərən yüzlərlə sənəd var və onlar 2001-ci ildən bağlı sandıqlarda gizlədilir. Mən Amerika, Fransa, İngiltərə, Almaniya və digər ölkələrin arxivlərində uzun müddət axtarışlar aparmışam, yüzlərlə sənəd, fotofakt, yazışmaların surətləri və digər sənədləri əldə etmişəm, amma ”erməni soyqırımı”na aid heç bir materiala rast gəlməmişəm.

Odur ki, Roma Papası II İohann Pavel 2001-ci ildə Ermənistanda xristianlığın dövlət dini qəbul olunmasının 1700 illiyinə həsr olunmuş tədbirlərdə iştirak edir və Birinci Dünya Müharibəsi zamanı Osmanlı İmperiyasında ermənilərin” kütləvi qırğınını yenidən ”soyqırım” ”adlandırır.

**- Bəs, bu saxtakarlığın bir gün bitməsi üçün nə etmək lazımdır?**

- ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvü olmuş, Ohayo ştatından seçilmiş Jan Şmidt hələ uzun müddət öncə bu fikirlə gündəmə gəlib: ”1915-ci il hadisələrini soyqırımı kimi qiymətləndirmək doğru deyil və bu problemin birdəfəlik həlli üçün mütəxəssislərdən ibarət müstəqil beynəlxalq komissiyanın yaradılması fikrini dəstəkləyirəm”. Nə oldu sonra? Ermənilər dərhal lobbilərini işə salıb komissiya yaradılmasına mane oldular. Niyə? Çünki sənədlər onların yalanlarını üzə çıxaracaqdı”.

**- Maraqlı bir məqamı da qeyd etmək istəyirəm: Deməli, məhşur amerikalı siyasətçi, Ronald Reyqanın məsləhətçisi Bryus Feyn tərəfindən aparılan araşdırmada da bir daha ”erməni soyqırımı” barədə deyilənlərin əsassız olduğu bildirilib: ”Prezident Reyqanın tapşırığına əsasən, biz bu məsələ ilə bağlı araşdırma apardıq. Bir neçə Avropa ölkəsinin və o dövrdəki Osmanlı imperiyasının hərbi arxivindən materiallar aşkar olundu. Araşdırmanın nəticəsində məlum oldu ki, o dövrdə ermənilərdən qat-qat daha çox türk qətlə yetirilib. ”Erməni soyqırımı” haqqında nağıllar erməni tarixçilərinin uydurmasından başqa heç nə deyil. Erməni quldur dəstələri 2 milyondan artıq türkü qətlə yetirmişlər”. Buna baxmayaraq ”soyqırımı” kəlməsini ABŞ prezidentləri arasında ilk işlədən Ronald Reyqan olub. 1981-ci ildə. Təbii ki şərtlər dəyişəndə məqsədlər də dəyişir.**

-Papa Fransisk 2015-ci ildə qondarma erməni soyqırımının 100-cü ili səbəbiylə bir dini ayin keçirir.

Roma Papası Fransisk bütün ermənilərin katolikosu II Qareginin müşayiəti ilə Yerevanda ”Erməni soyqırımı xatirə kompleksinə” baş çəkir. 2016-cı ildə və Fransisk İrəvanda yazılı mətndə olmamasına baxmayaraq, şifahi nitqində ”erməni soyqırımı” ifadəsindən istifadə edir. Papa Francis 2001-ci ildə Roma Papası II İohann Paulun bəyanatındakı sözləri işlədərək deyir: ”'20-ci əsrin birinci soyqırımı' sayılan ilk faciəni erməni xalqı yaşayıb”.

Bu fakt bir daha sübut edir ki, ermənilərin uydurduğu soyqırım əfsanəsi sadəcə pul gücünə inandırılır insanlara və dünyada Xristian dinin mərkəzi sayılan Vatikan və Papalar pulla satılan şəxslərdir. Din və sairə onlar üçün puldan sonra gəlir . Bütün bu səbəblər erməniləri yalan , mif ”erməni soyqırımı”na inandırır və onlar da bunu gündəmdə saxlayırlar.

**- Geniş məlumat üçün sizə təşəkkür edirik. Ümidimiz var ki, Ermənistan Baş naziri siyasi iradə nümayiş etdirərək soyqırım yalanlarını ortaya çıxaracaq və öz xalqının başqa dövlətlət, siyasi xadimlər tərəfindən ”maşa” kimi istifadə edilməsinə son qoyacaq.**

**Əntiqə Rəşid**

## *Məscidin yerində məbəd tikdirən, müsəlmanların qənimi Modi və komandası*



**İslam dünyasına , müsəlmanlara nifrəti ilə seçilən Hindistanın Baş naziri Narendra Modi istefa verib. İstefa verməsi ölkəsinin daxili məsələsi olduğunu düşünüb , oxucuların diqqətini onun siyasi fəaliyyəti dövründə təsdiqlənmiş anti-islami faktlara yönəldək. Hindistanda yaşayan təxminən 200 milyona yaxın müsəlmanın hər birinə Modinin böyük zərbəsi dəyib.**

**Xatırlayırsınızsa, 2022-ci ildə Hindistanın hakim radikal millətçi ”Bxaratiya Janata” (BJP) partiyasının rəsmiləri tərəfindən islam dininə qarşı və Məhəmməd peyğəmbərlə bağlı təhqiramiz ifadələr işlədilməsi nəinki ölkədə eləcə də bölgədə növbəti iğtişaşların təməlini qoydu.**

**Beləki, Hindistanın Baş nazir Narendra Modi və partiyasının 2014-cü ildə hakimiyyətə gəlməsindən sonra müsəlmanlara qarşı pis rəftarın sayı artıb .Onun ”Hindistan hindusları üçün” şüarından sonra Hindistanda iqtidarda olan ”Bharatiya Canata” Partiyasının Yaşpal Suvarna ölkədə ictimai yerlərdə hicabın yasaqlanmasını tələb etdi.**

**Bundan başqa islam əleyhinə olan pardiyadaşları da müsəlmanlara qarşı nifrətlərini tez-tez ortaya qoyublar. 2022-ci ilin İyun ayında həmin rəsmilərdən biri, hakim partiyanın sözçüsü Naveen Kumar Jindal Twitter-də Məhəmməd peyğəmbəri təhqir edən paylaşımı böyük reaksiya aldı.**

**Daha sonra Hindistanın Heydərabad şəhərində hakim Bharatiya Janata Partiyasının parlamentdəki deputatı Zakur Raca Sinq Məhəmməd Peyğəmbərin ünvanına təhqiramiz ifadələr işlətdi və video yayımladı...Ona etiraz olaraq əhali şəhərin bir çox yerlərində piketlər keçirdi.**

**Hindistanın Uttar Pradeş əyalətində İslam və Hz. Məhəmmədi təhqir edənlərə etiraz edən 3 müsəlmanın evi buldozerlərlə dağıdıldı. Hindistan polisinin müsəlman gənclərə qarşı zorakılığını əks etdirən videolar ortaya çıxdı.**

**Bu ilin yanvarında isə Modi Ayodhya şəhərində qədim məscidin xarabalıqlarının yerində Rama tanrısına həsr olunan Ram Mandir hindu məbədi inşa etdirib.**

**Mərasimdə 8 min siyasətçi, diplomat, kino və estrada ulduzları iştirak ediblər, yüz minlərlə zəvvar şəhərə axın edib.**

**Qeyd olunub ki, əvvəllər bu yerdə əsrlər boyu məscid dayanıb, 1992-ci ildə isə hakim ”Bharatiya Canata” partiyasının üzvləri tərəfindən qızışdırılan dini fanatiklər tərəfindən söküləb. Məscidin sökülməsi iğtişaşlara səbəb olub və nəticədə əksəriyyəti müsəlman olan 2 minə yaxın insan ölüb.**

**Modi bu günlərdə -seçki çıxışı zamanı ölkə müsəlmanlarını ”təxribatçı” adlandırmaqdan çəkinmədi. Bu onu göstərir ki, artıq Hindistanda dini ayrıseçkilik dövlət səviyyəsində aparılır.**

***P.S.** İndi Hindistandakı müsəlmanlara arzu edirik ki, islama qarşı səlib yürüşü elə Modi ilə başa çatsın.*

**Əntiqə Aslan**

## Bu qalıqlar Mikayıl Müşfiqə aid deyilmiş

**Mikayıl Müşfiqə aid olduğu iddia edilən meyit qalıqları üzərində DNT analizləri aparılıb, həmən qalıqların ona aid olmadığı təsdiqlənib.**

Adalet.az xəbər verir ki, bunu APA-ya açıqlamasında Səhiyyə Nazirliyi Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin direktoru, tibb elmləri doktoru, professor Ədalət Həsənov deyib.

O bildirib ki, şairə aid olması ehtimal edilən aşkar olunmuş bütün sümük qalıqları üzərində DNT analizləri aparılıb:

"Bu analizlərin heç biri heç biri təsdiqini tapmadı. Tapılan qalıqların heç biri Mikayıl Müşfiqə aid olmadı".

Ədalət Həsənov onu da vurğulayıb ki, Mikayıl Müşfiqin sümük qalıqları bu günə qədər hələ aşkar edilməyib.

Qeyd edək ki, bir neçə il əvvəl Qaradağ rayonu Puta qəsəbəsində Mikayıl Müşfiqə aid olması iddia edilən meyit qalıqları aşkarlanıb.

Xatırladaq ki, bu gün Mikayıl Müşfiqin anadan olmasından 116 il ötür.

## Azərbaycanda havanın isti keçməsinin səbəbi açıqlandı

**İyun ayı ölkəmizin qlobal iqlim dəyişmələrinin təsirinə daha çox məruz qaldığı periodlardan biridir. Bu təsir havanın temperaturunda daha çox hiss olunur.**

Adalet.az bildirir ki, bu barədə Milli Hidrometeorologiya Xidmətinin rəisi Nazim Mahmudov bildirib.

O qeyd edib ki, son illər havanın temperaturunda bir qədər artım müşahidə olunur. Belə ki, son illər ən isti hava 2021-ci ilin iyununda qeydə alınıb. Havanın maksimal temperaturu Bakıda və Abşeron yarımadasında 41, bölgələrdə isə 43 dərəcəyədək yüksəlib:

"Bu ilin iyun ayının ilk günlərində mülayim cənub küləklərinin, isti hava axınının təsiri ilə əlaqədar havanın temperaturu bir qədər yüksəlib.

Maksimal temperatur Bakıda və Abşeron yarımadasında 34, bölgələrdə isə 37 dərəcə isti qeydə alınıb". Xidmət rəisinin sözlərinə görə, yaxın günlərdə havanın temperaturunun bir qədər də yüksələcəyi, maksimal temperaturun Bakıda və Abşeron yarımadasında 31-36, bəzi yerlərdə 38, Naxçıvan MR və Aran rayonlarında 35-38, bəzi yerlərdə 40, dağlıq rayonlarda 20-25, bəzi yerlərdə 28-30 dərəcə isti olacağı gözlənilir".


**VAQİF ŞİRİNOĞLU**
**AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitunun baş elmi işçisi, tarix elmləri doktoru**




# ÇAĞDAŞ AZƏRBAYCAN TARİXŞÜNASLIĞI: YENİ ELMİ-NƏZƏRİ AXTARIŞLAR

**Yeddi cildliyin birinci cildində 1-ci fəsil ibtidai icma quruluşu ilə başlayır, amma sonrakı fəsil və paraqraflar dövlətlər üzərindən qurulub. Lakin "E.ə. I minilliyin əvvəllərində Cənubi Azərbaycan tayfalarının xeyli hissəsi ilkin quldarlıq cəmiyyəti şəraitində yaşadığı da qeyd olunur. (Azərbaycan tarixi. Yeddi cilddə. I cild (Ən qədimdən - b.e. III əsri). Məsul redaktor: Iqrar Əliyev Akademik. Bakı. "Elm". 2007. 520 səh. + 40 səh. illüstrasiya. S.166).**

Yeddi cildliyin ikinci cildi III-XIII əsrin I rübünü əhatə edir. Burada III-VII əsrlərdə Azərbaycamn şimalında - Albaniyada feodal istehsal üsulunun meydana çıxması və təşəkkülü, IX-X yüzilliklərdə feodal dövlətlərindən, XI-XII yüzilliklərdə Azərbaycanda inkişaf etmiş feodalizm dövründən və s. məsələlərdən bəhs olunur.

IV cilddə yenə də feodal qaydalarından və Kapitalist münasibətlərinin meydana çıxmasında bəhs olunur və s.

Bunları yazmaqda məqsəd ondan ibarətdir ki, çağdaş dövrün tarixçilərinin elmi əməyinin məhsulu olan, 1998-2003-cü illərdə və daha sonra təkrar olaraq 2007-2008-ci illərdə işıq üzü görmüş yeddi cildlik Azərbaycan tarixinə daxil olan mövzular, əsasən formasion sistem üzərindən yazılması davam etmişdir.

Marksist nəzəriyyədən hansı səbəblərdən tamamilə imtina edilməyib sualına çağdaş Azərbaycan tarixçilərinin cavabları da maraq doğurur. Məsələn, Akademik Şahin Mustafayevin fikrincə, bu nəzəriyyə tarixi prosesi subyektiv səbəblərlə deyil, ictimai inkişafın obyektiv qanunları ilə izah edilən və bir-birini ardıcıl şəkildə əvəz edən dövrlər (ictimai-iqtisadi formasiyalar) sxemi çərçivəsində nizamlayır. (Şahin Mustafayev. Çağdaş Azərbaycan tarixşünaslığının bəzi nəzəri məsələləri Məqalələr toplusu. Tarix və mədəniyyət. Faktlar və dəyərlər. Akademik Nailə Vəlixanlının yubileyinə həsr olunmuş məqalələr toplusu / Məsul redaktor F.R.Cabbarov. Bakı: "Nurlar" Nəşriyyat-Poliqra?ya Mərkəzi, 2020. - 656 s. (səh. 29-64) S.36). Bununla belə, Ş.Mustafayev müasir şəraitdə Azərbaycan tarixi araşdırmalar, özəlliklə tarixin dövrləşdirilməsi sahəsində marksizmin ictimai-iqtisadi formasiyalar nəzəriyyəsinin heç bir modi?kasiyasız və sovet dövründə olduğu kimi tətbiq edilməsi mümkün və məqsədəuyğun" (Şahin Mustafayev. Çağdaş Azərbaycan tarixşünaslığının bəzi nəzəri məsələləri Məqalələr toplusu. Tarix və mədəniyyət. Faktlar və dəyərlər. Akademik Nailə Vəlixanlının yubileyinə həsr olunmuş məqalələr toplusu / Məsul redaktor F.R.Cabbarov. Bakı: "Nurlar" Nəşriyyat-Poliqra?ya Mərkəzi, 2020. - 656 s. (səh. 29-64) S.36) olmadığını önə çəkir. Onun fikrincə, bu, heç də bu və ya digər xalqın tarixində sosial-iqtisadi amillərin önəmli rolunun inkar edilməsi mənasına gəlmir. Azərbaycan tarixçiləri ciddi şəkildə nəzəri ?krin inkişafı, tarixi araşdırmalarda bu gün dünya tarix elmində mövcud olan ən adekvat və optimal metodoloji prinsiplərin öyrənilib istifadə olunması haqqında düşünməlidirlər. İctimai-iqtisadi formasiya sistemini tənqid edən Ş.Mustafayev, eyni zamanda bu nəzəriyyəni birmənalı və birtərə?i şəkildə dəyərləndirmək doğru olmadığını və onun həm müsbət elmi tərə?əri, həm də ciddi qüsurları olduğunu göstərir. (Şahin Mustafayev. Çağdaş Azərbaycan tarixşünaslığının bəzi nəzəri məsələləri Məqalələr toplusu. Tarix və mədəniyyət. Faktlar və dəyərlər. Akademik Nailə Vəlixanlının yubileyinə həsr olunmuş məqalələr toplusu / Məsul redaktor F.R.Cabbarov. Bakı: "Nurlar" Nəşriyyat-Poliqra?ya Mərkəzi, 2020. - 656 s. S.32).

O, formasion sistem nəzəriyyəsinin qüsurlarından bəhs edərkən, qüsurların daha çox nəzəriyyənin özünə deyil, onun sovet ideoloji çərçivəsində necə işlənib şərh olunmasına və nəzəriyyəni sıxan, onun daxili çevikliyini məhdudlaşdıran və zamanın tələblərinə uyğun şəkildə təkamülünə mane olan həmin ideoloji konstruksiyanın doqmatizmi və sərtliyinə aid edir.

Professor Kərim Şükürov üç cildlik "Azərbaycan tarixi" kitabının 1-ci cildində "Azərbaycan tarixi tarixinin Azərbaycan tarixi dövrlərinə uyğunlaşdırılması" başlığı altında verilmiş cədvəlin sonunda "1980-ci illərin sonundan "Marksist baxışların süqutu, nəzəri-metodoloji sahədə pərakəndəliyin" olmasını yazır və sonra qeyd edir ki, bu dövrü müəyyənləşdirən tarixçilər də əsasən sovet tarix məktəbinin yetirmələridir. (Şükürov K. Azərbaycan tarixi. Üç hissədə. I hissə. Elmi-nəzəri və praktik problemləri. Elmi redaktoru: t.e.n.B.Şabiyev. Bakı: Bakı Universiteti nəşriyyatı. - 2004. - 234 s. S. 73-74).

Heç şübhəsiz, yuxarıda qeyd olunan amili Sovet sistemi dağılandan sonra tarixin formasion sistem üzərindən yazılmasının səbəblərdən biri kimi göstərmək mümkündür. Digər bir səbəbi isə Azərbaycan tarix elmində yeni tarixçi nəslin hələ tam yetişməməsi ilə (ikinci səbəb) əlaqələndirmək olar.

Əlbəttə, 70 il marksist nəzəriyyənin üzərindən yazılan tarix elminin birdən-birə yeni müstəviyə keçirilməsinin, yəni yeni bir nəzəriyyəyə əsaslanaraq yazılmasının çətinlikləri də nəzərə alınmalıdır. Fikrimcə, bu amili üçüncü səbəb kimi göstərmək olar.

Çox da uzaq olmayan o dövrün (sovet dövrünün) tarixşünaslığının müsbət və mənfi tərəfləri ciddi təhlil olunmadan müasir dövr tarixşünaslığının yazılması da bəzi tarixi reallıqların təhrifinə (dördüncü səbəb) səbəb ola bilər.

Nəhayət, marksist nəzəriyyənin tarix elmində müəyyən üstünlükləri qoruyub saxlamasının digər bir səbəbi də onun 70-ildən çox bir müddət ərzində həm ideoloji, həm də vahid konsepsiya baxımından sovet dövləti tərəfindən ciddi müdafiə olunması (beşinci səbəb) idi.

Tarixçi-tədqiqatçıların diqqətini digər bir məsələyə cəlb etmək istəyirəm. Hal-hazırda çağdaş Azərbaycan tarixçiləri tərəfindən insanlıq cəmiyyəti tarixinin ən qədim dövrdən günümüzədək olan dövrünü yeni elmi-nəzəri baxışlar əsasında dövrləşdirilməsi məsələsi ilə əlaqədar cəhdlər göstərildiyini müşahidə etmək mümkündür. Məsələn, ən qədim dövrdən günümüzədək Azərbaycan tarixinin dövrləşdirilməsi ilə əlaqədar yeni baxışlar sərgiləyən (formasion sistemdən fərqli olaraq) tarixçilərimizdən professor Kərim Şükürov üç cildlik "Azərbaycan tarixi" əsərinin "Azərbaycan tarixi. Ən qədim zamanlardan bizim günlərədək: dövrlər, hadisələr, sinxronlaşdırılmış cədvəllər" adlı ikinci cildində Azərbaycan tarixinin dövrləşdirilməsi ilə əlaqədar maraqlı və həm də yeni təkliflər irəli sürür.

Yeni dövrləşdirmə ilə əlaqədar süni meyarlar axtarmağa ehtiyac olmadığını, əvəzində "dövrləşdirmə üçün materialı tarixi inkişafın özündə axtarmağın vacibliyini qeyd edən K.Şükürov, "Azərbaycanın ən qədim zamanlardan günümüzədək olan inkişaf tarixini nəzərdən keçirməyin zəruriliyini və onun əsasında da müstəqil Azərbaycan dövlətlərinin fəaliyyəti durduğunu" göstərir. (Şükürov K. Azərbaycan tarixi. II hissə. Ən qədim zamanlardan bizim günlərədək: dövrlər, hadisələr, sinxronlaşdırılmış cədvəllər: 3 cildə IIc. Bakı: Şirvannəşr, 1998, 480 s. S. 21).

O, ən qədim zamanlardan günümüzədək olan inkişaf tariximizi 17 dövrə bölür (müəllif tərəfindən həmin dövrləri sonrakı mərhələlərdə birləşdirməyin və dövrlər daxilində dövrləşdirmələrin aparılmasının mümkünlüyü də qeyd olunur). Məsələn, birinci dövr "Dövlətəqədərki dövr və ya ibtidai cəmiyyət - Ən qədim zamanlar (m.ə.III-II minillik)"; ikinci dövr "İlk dövlətlər - m.ə. III-II minillik-m.ə.VII yüzilin sonları (və ya m.ə. VI yüzilin başlanğıcı)"; üçüncü dövr "Mannanın süqutundan Atropatena-Albaniyayadək. m.ə. VII yüzilin 70-ci illəri-IV yüzillər və s. Müəllif sonuncu dövrü "Yeni müstəqillik dövrü (üçüncü respublika dövrü) - 1991-ci ildən bəri" kimi formalaşdırmışdı.

Daha sonraq K.Şükürov təqdim etdiyi dövrləşdirmənin əhəmiyyətini belə şərh edir: 1) Azərbaycanın dövlətçilik tarixinin müstəqillik, yadelli əsarəti və istilalar dövrü aydın olur; 2) Azərbaycanın Cənub və Şimalının əlaqələri, vahid dövlət yaradılmasının gedişi və başqa problemlər də bu səpgidə daha dolğun şəkildə şərh olunur; 3) Belə dövrləşdirmə əvvəldən axıradək Azərbaycanın tarixi inkişafını əyani şəkildə əks etdirməklə mücərrəd deyil, konkret faktlarla yadda saxlanmasına imkan verir, onun tədqiqi və təbliği işinə köməklik göstərir; 4) Dövrləşdirmədən irəli gələn nəticələr müasir dövlət quruculuğu və onunla bağlı olan vacib məsələlərin həlli üçün təcridi əhəmiyyət kəsb edir və s. (Şükürov K.K. Azərbaycan tarixi. II hissə. Ən qədim zamanlardan bizim günlərədək: dövrlər, hadisələr, sinxronlaşdırılmış cədvəllər: 3 cildə IIc. Bakı: Şirvannəşr, 1998, 480 s. S. 22-27).

Professor Eldar İsmayılovun "Azərbaycan tarixinin oçerkləri" adlı əsərində (İsmailov G.R. Oçerki po istorii Azerbaydjana / G.R.İsmailov. - M.: Flinta, 2010.- 424 s.) isə Azərbaycan tarixinin dövrləşdirilməsi ilə əlaqədar təklif olunan dövr üç mərhələdən ibarətdir. Onun Azərbaycan tarixinin dövrləşdirilməsi ilə əlaqədar təklif etdiyi elmi-nəzəri baxışa görə birinci dövr "Azərbaycan islama qədərki dövrdə" adlanır və bu dövr "tarixəqədərki", "Azərbaycan ərazisində ilk dövlətlər", "Atropatena və Albaniya", "İslamlaşma ərəfəsində", "bölgənin etnomədəni xüsusiyyətlərinin formalaşmasının ilkin mərhələsi" adlı alt mərhələyə bölünür. İkinci dövr "Azərbaycan orta əsrlər dövründə" kimi adlanır. Bu dövr "Azərbaycan VII - XII yüzilin əvvəlində", " Azərbaycanda monqol dövrü", "XIV-XV əsrlərin ikinci yarısının dövlət qurumları və dövlətləri", "Səfəvilər dövləti", "Azərbaycan tarixində "xanlar" kimi alt mərhələlərə bölünür. Üçüncü dövr "Azərbaycan XIX-XX əsrlərdə" adlanır. Bu dövr də "Azərbaycan Rusiya imperiyasının tərkibində", "Azərbaycan Demokratik Respublikası", "Azərbaycan sovet tarixi", "Azərbaycan 1941-1987-ci illərdə", "Milli müstəqilliyə aparan yolda", "Müstəqilliyin əldə olunması" adlı alt mərhələlərə bölünür. Akademik Şahin Mustafayevin Azərbaycan tarixi ilə əlaqədar təqdim etdiyi dövrləşdirmə də maraq doğurur. Təqdim etdiyi hər bir dövrün qısa və elmi tutumlu izahatını verən müəllif, Azərbaycan tarixinin yeni dövrləşdirilməsi məsələsini irəli sürür. Onun təqdim etdiyi dövrləşdirmə, əsasən 5 böyük mərhələdən ibarətdir və təqdim olunan dövrləşdirmənin qısa düzümü beləıdir:

1. "Arxeoloji dövrlər çağı Azərbaycan ərazisində insanın məskunlaşdığı ən qədim zamanlardan b.e.ə. III-II yüzilliklərdə kuti və ya qutilər, b.e.ə. III-I minilliklərdə lullubilər, b.e.ə. III-I minilliklərdə hurrilər, b.e.ə. I minillikdə kaspilər kimi tayfa ittifaqlarının yaratdığı ilkin protodövlətlərin meydana çıxmasınadək olan dövrləri əhatə edir. (Şahin Mustafayev. Çağdaş Azərbaycan tarixşünaslığının bəzi nəzəri məsələləri Məqalələr toplusu. Tarix və mədəniyyət. Faktlar və dəyərlər. Akademik Nailə Vəlixanlının yubileyinə həsr olunmuş məqalələr toplusu / Məsul redaktor F.R.Cabbarov. Bakı: "Nurlar" Nəşriyyat-Poliqra?ya Mərkəzi, 2020. - 656 s. s.29-64. S.40-41).

2. Azərbaycan üçün "özək zaman" çağı Urmiya gölü bölgəsində ilk dövlətin (Manna dövləti - b.e.ə. IX-VIII yüzilliklər) əmələ gəlməsi və Azərbaycan ərazisinin Midiya (b.e.ə. VII-VI əsrlər) və Əhəməni imperiyaları (b.e.ə. VI-IV yüzilliklər) kimi qədim dövrün qüdrətli dövlətlərinin tərkibinə daxil olaraq, dünya tarixi prosesində iştirak etməsi ilə əlamətdardır. Bunun önəmli göstəricisi, həm də Azərbaycan ərazisinin dünyada zərdüştiliyin yayılma arealına daxil olması idi.

3. Azərbaycan ərazisində dövlətlərin "bütövləşməsi" çağı (b.e.ə. III - b.e. VI yüzilliklər) dövrü. Azərbaycanın mədəni-siyasi sərhədlərinin formalaşması başlayır və ölkə günümüzə qədər gəlib çıxan öz tarixi adını (Aturpatakan - Aderbadaqan - Aderbaycan - çağdaş Azərbaycan) əldə edir.

B.e.ə. II yüzilliyin sonu - I yüzilliyin əvvəllərində, Cənubi Qafqazın şərq hissəsində gələcəkdə tarixi tamlığa və ya vahidə çevrilən, zamanla öz siyasi və mədəni kimliyini formalaşdıran və uzun müddət ərzində qoruyub saxlayan digər bir dövlət - Albaniya əmələ gəlir.

**Beləliklə, Atropatena və Albaniya kimi iki dövlətin uzun müddət öz daxillərində siyasi və mədəni bütövləşmə və konsolidasiya proseslərini yaşaması nəticəsində artıq islam dövründə tarixi Azərbaycanın formalaşdığı sərhədlərin müəyyənləşdiyini görürük. İslam sivilizasiyasına daxil olma çağı (VII-XVI-II yüzilliklər) Azərbaycan tarixində uzunmüddətli və önəmli bir mərhələdir. Azərbaycan bu sivilizasiyanın bir hissəsi olmuş və bu hadisə onun gələcək tarixi inkişafının başlıca istiqamətini, eyni zamanda onun mənəvi, mədəni, sosial və siyasi varlığının bütün mahiyyətini müəyyənləşdirmişdir.**



BAYAT

№ 10 (870)





# Mən də qəmin saçını hördüm, a qoca dünya!

Vaqif Bəhmənli

## Kişi ol

Gücün yetməsə birə,
yüz kişidən biri ol!
Göz dikmə yad təndirə,
ac ol, amma kişi ol!

Ağ ayran olma itə,
Qarışar, qanın itər!
Uyma xaraya, çitə -
ac ol, amma kişi ol!

Quru daş kimi çat ver,
Çolaq yolçuya at ver!
Qopart canından ət ver,
ac ol, amma kişi ol!

Yaradan qıysa, bəsdi;
Dərini soysa, bəsdi,
Qeyrətin doysa, bəsdi,
ac ol, amma kişi ol!

Dözüm qidadı cana,
Fələyin fəndi fəna -
Daşlar yağsa qafana,
ac ol, amma kişi ol!

Yüz yerdən qalxsa hədə
Haqqı danma, nə badə!
Ellər and içən, sadə
məzarın baş daşı ol,
daş olsan da, kişi ol!

## Yiyə

Nə sübh, nə danın olmaya,
bəhərsiz anın olmaya...
Lənət o günə, olasan -
yiyə duranın olmaya!

## Qoca dünya

Doqquz ay, doqquz gecə ana bətninə dustaq -
Doğuldum alnımdakı yazının yalanına.
Bələyə sildim qanı;
bir az cəld, bir az asta -
baş vurdum taleyimin tininə, dalanına,
Dar yoluna mar kimi girdim, a qoca dünya!
Sünbülüm həşəm olar...
zikr elədim hər sabah,
Dərd əkdim tarla-tarla,
erkən qalxdım biçinə.
İlləri yasəməntək qırıb budaqdan şax-şax
ayaqların altına, alçaq yolun içinə
təzim çiçəklərităk sərdim, a qoca dünya!

Alıb aparan məni, sadədil, hərif bildi,
haçan ki, baha canı qoydum ucuz hərraca.
Öz-özümə nur saçdım,
gördüm işığım seldi,
Halal nurdan özümə saxlamadım zərrəcə -
nə odum var yolunda verdim, a qoca dünya.
Çürüdüm daxmalarda, qısıldım çörəyimə,
Hansı cəhənnəmdəyəm,
harda itdim, bilmədin.
Əl çəkmədin bircə yol göynəyən kürəyimə,
Gözlərimi bürüyən acı yaşı silmədin,
Beləymiş etibarın... gördüm, a qoca dünya!

Azca qalxmaq istədim, boynum kəməndə keçdi,
Sən ovçusan, mən şikar - hardan olsun barışıq?
Qəhr oldu sevgi qəsri, hər yoldan ötən keçdi.
Şahlar hülya başını üzdü hörük qarışıq,
Mən də qəmin saçını hördüm, a qoca dünya!

Heç xəbərim olmadı, əridi damla-damla
başımı sığallayıb əlimə verdiyin şam.
Yarıma əl çatmadı, hünər yetmədi tama,
Qurtuluşa güman yox, hanı çöp, hanı saman?
Aramızda nə oldu, nə sən bildin, nə adam,
Mənimlə gora gedən dərdim, a qoca dünya!

Cavanlığı boşuna, qocalığı didərgin -
Tanrı yaratdığını qoyarmı heç nəzərsiz?
Bəhmənli, səbrini bas; qəm də, kef də gedərgi...
Dörd yanımdan xəbərsiz, dörd yan məndən xəbərsiz
Bax beləcə, bir ömür sürdüm, a qoca dünya!

## Müdrik önündə

*Məhəmməd Füzulinin müqəddəs ruhuna*

Fikir zəncirini hörmək hünərdi -
çilingər dəzgahın görün önündə!
Dəmirçi dəmiri əyə bilərmi
ərsin qızarmasa körük önündə?

Yarpızı görəndə şahmar baş əyir,
Bağbanın çiyninə şaxlar baş əyir,
Şahzadə dizinə şahlar baş əyir,
Sultanlar qıvrılır hörük önündə!

Ahıl yaş - son savaş, tükənir insan,
Özü öz canına yük olur insan!
Qocalıq ki, gəldi... bükülür insan;
Adətdi baş əymək müdrik önündə!

## Qoşa xətt

Var olan hər nə ki var, bilginən, ondan ikidi,
Qoşadı ruh tən ilə, tək deyil insan, ikidi!

Kisə vermiş canı Rəbb, doldura bilsən içini,
Yaradansan deməli, bəxti yaradan ikidi.

Qırmızı, ağ kürəcik meydanıdı hər diri can,
Damarınca köpürüb buğlanan al qan ikidi.

Ora bax, Allahı gör, Göy üzünün sultanı tək,
Ata var, həm də ana - Yerdəki sultan ikidi.

Alnımızda qoşa xətt - orda ”xeyir”, ”şər” yazılıb,
Xilqəti xəlq eləyən bəlli nam-nişan ikidi!

Dəmbədəm ”bəli”, ”xeyir” hasil edən dil haçadı,
Varı yoxdan ayıran dar macal, imkan ikidi!

Kamalın varsa əgər şəxsini tut dərgaha tay,
Biri sən, bir də fəza - küllü -kəhkaşan ikidi.

Çoxluğu qoy qırağa, tünlük hələ məna deyil,
Qananı, qanmazı var, əhli-müsəlman ikidi!

Dikilib yar yoluna şeh sala sübhdən şamacan,
Ağı dibdən saralan gözdəki giryan ikidi!

Bağlıyıq başdan, ayaqdan, fələyin çarmıxına,
Cəhənnəm, cənnət ara; gorda da zindan ikidi!

Yaşayır cədd əbədi, qəm yemə taxt-tarac olur,
Bitmir əfsanələri - təxti-Süleyman ikidi.

Xain oxdan yaralı, qəlbi qırıq, taleyi kəm,
Köksünü Araz bölən Azəribaycan ikidi!

Həmdəmi qeyb olalı badə süzür cüt Vaqif,
Dərd içir dost yerinə... onda istəkan ikidi!

## Qoşma

Yaman tez qocaldıq, çatdı qış fəsli,
Çovğuna tablayan hey hanı bizdə?
Hanı Mirzə Cəlil, Üzeyir nəsli,
Sözü qanun olan bəy hanı bizdə?

Başından dağ çürük, dibindən dərə,
Bir miskin qismətin quludu hərə!
Dikələn başımız soxulmuş yerə,
Dikəlib baxmağa Göy hanı bizdə?

Nə əhd, nə etibar, nə hünər qalmış,
Nə xiridar qalmış, nə gövhər qalmış!
Dərin bataqlığı bürümüş qamış,
Qamışdan yonulan ney hanı bizdə?

Dünya qat-qarışdı; axmağı çoxdu,
Aqili möhtacdı, səyləri toxdu!
Şəksiz, əcdadından xəbəri yoxdu,
Biri durub desə, - ”səy” hanı bizdə?!

Bu da bir qismətdi, nə qorx, nə üşən,
Qəzanı fəhm elə, bizi də düşün!
Qabanı gəbərdən, donuzu deşən
Ox hanı, gərilmiş yay hanı bizdə?

Deyəsən, bir azca uzandı lafım,
Həm də sərt danışdım, nədən ki, safam!
Ucanı alçaldan pisin, əclafın
başına çırpmağa şey hanı bizdə?

## Dilək

Hökmü-rəvansan, Allah, lütfünü dövrana səp,
Seldi, sudu dağların, qətrəni səhrana səp!

Qəfəsdəki qumrunun çöldədirsə naləsi,
Dənləməz, qənşərinə zər çilə, dürdanə səp!

Bazar bəlli bazardı, kimdi orda dərd alan? -
İstəyirsən çeşminin yaşını dörd yana səp!

İfrat görüş azdırır aşiqi haqq yolundan,
Ölüm hökmüdür vüsal, səbrini hicrana səp!

Ömür nədi, ocaqdı, var külündə közərti,
Xışmala son tüstünü, hirsini qəlyana səp.

Heçdi işin əvvəli, heçdi son nədən, Allah,
Haram toxum cücərməz, lap cənnət-məkana səp!

Zaman zalım əjdaha, əzir məğrur başları,
Hünər ver zəiflərə, qeyrəti meydana səp!

Sən ki, səxavətlisən, boldu havan, işığın...
Haqqa məhkumdu Vaqif, nurunu zindana səp!

## Azan yada salır...

İlahi, sən səsdə məlahətə bax,
Elə bil yüksəlir göydən enən Səs...
Ağzı qova dəyir, alışır çaxmaq;
Bu sayaq hikmətin sirri nədir bəs? -
Azan yada salır müsəlmanlığı!

Otluqda mil durur qurbanlıq dana
dan üzü, günorta, şər-axşam çağı!
Cəllad baltasını atır bir yana,
Daxılda gizlədir qəssab bıçağı -
Azan yada salır müsəlmanlığı.

Quş kimi dikəlir yerindən mitil;
Göyləri bəzəyir qanadın izi.
Alnına dirəyib silahı qatil
özü öz başına sıxır gilizi -
Azan yada salır müsəlmanlığı.

Çin olur bir məğmın gəlin diləyi,
Quruyur dəsmalda gözündəki yaş.
Daha içməyəcək... tövbə eləyib
divarda sındırır badəni əyyaş -
Azan yada salır müsəlmanlığı.

Keçidlər genəlir, su gəlir arxa,
örtür quraq yerin çatqınlığını.
Kələkbaz kələyə çevirir arxa,
satqınlar tərgidir satqınlığını -
Azan yada salır müsəlmanlığı.

Rişəsi çürüyür həyazsızlığın,
Göylər abır səpir, pərdə göndərir.
Qaytarır yoluna çapqın azğını,
Əbləhi, namərdi mərdə döndərir -
Azan yada salır müsəlmanlığı.

Dolur pürkamala dünənki dəli,
gopçu, yalançının dili quruyur.
Yaltaq adamların qırılır beli,
rüşvət alanların əli quruyur -
Azan yada salır müsəlmanlığı.

Yer tapmır əlinə cibəgirənlər,
Sola meyl edənlər sağda dayanır.
Haram ağaclardan sərvət dərənlər,
axırda beş arşın ağda dayanır;
Azan yada salır müsəlmanlığı.

Azan... Ətir verir tər nanə kimi,
Sonuncu nəfəsdi, müqəddəsdi o.
Uçur çevrəmizdə pərvanə kimi,
Tanrı varlığından qopan səsdi o -
Haçan azan səsi yüksəlsə, bilin,
Allah yada salır müsəlmanlığı!

## Kök adamlar

*(Yarızarafat)*

Kökdən gələn dib su ən yaxşı sudu -
Tanrı qismətidi boy-buxun, çəki.
Kök adam adamın ən yaxşısıdı,
Çünki öz yükünü, o, özü çəkir!

Candan ruh da atır çəki atanlar,
Kim bilir nə dərdi yüklənir köklər.
Qamış qamətiylə bəbəyə batan
diklər tərəfindən təklənir köklər.

Kütlənin rişxəndli köhləni köklər
dərdi aşkar çəkir, büküb-bələmir.
Yükünü arığa yükləmir köklər,
Yüngül adamlardan imdad diləmir.

Dərələr ruhunda, dağ içindədir,
Köklərin ürəyi yüklü buluddu.
Ciyəri, böyrəyi yağ içindədi,
qarnı tar çanağı, ya bəlkə uddu?

Baxma ki, arıqdı; adamı tanı -
tondan ağır gələr içi şər bəlkə!..
Yüngül adamlara baxıb utanır
köklər xəcalətdən şişirlər bəlkə?

Can şişir qınaqlar aşanda həddən,
Yol itir, cığır da tükənir bəzən.
Uşaqlar sərvətdən, qadınlar dərddən,
kişilər hiddətdən kökəlir bəzən!

Kök adam qılıncdı, sıxılır qında,
Haçansa sıyrılmaq ehtimalı var.
Təngnəfəs gombulun fısıltısında
Tanrı lənətlənir... nə bilmək olar?!

Çəkinin nə fərqi, dərd çəkən çəkir,
Adbaad bölünüb yük adamlara.
Dizim cüt öküzdü - dərdi tən çəkir,
arıq canım qurban kök adamlara!

# Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 20 (2394) 7 iyun 2024-cü il


# Söz azadlığı olan yerdə...



**Dünyada azadlıqdan gözəl şirin varlıq yoxdur. Və biz azadlıq deyəndə həm də insanın yaşadığı cəmiyyətdə özünü rahat hiss etməsi, normal yaşaması və birmənalı olaraq həyatından razı olmasını düşünürük. Eyni zamanda azadlıq həm də o deməkdir ki, hər bir vətəndaş yaşadığı ölkədə öz fikir və düşüncəsini sərbəst surətdə ifadə etməyi bacarır. Başqa sözlə demiş olsaq, fikir prüalizmi və düşüncə azadlığı insanın həyatına yeni bir rəng, yeni bri çalar qatır.**

Biz də ölkəmizdə söz və mətbuat azadlığının şirinliyini və gözəlliyini o vaxt hiss etdik ki, artıq müstəqil dövlət kimi yaşamağa başladıq. Heç kimə sirr deyil ki, biz 70 il SSRİ-nin tərkibində olan bir respublika olmuşuq. Sovet hökumətinin də öz qanunları, daha doğrusu, sərt nizam-intizamı vardı. Yəni vahid mərkəzdən idarə olunan ideoloji



bir sistem mövcud idi. Hər şey də o sistemə uyğun tənzimlənir və cəmiyyəti buna doğru hazırlayırdılar. Əlbəttə, sovet dönəmində demək olmaz ki, söz və mətbuat azadlığı yox idi. Amma bu şərti idi. Yəni, bütün Kütləvi İnformasiya Vasitələri, o cümlədən, televiziya "qlavlit" deyilən bir qurum tərəfindən idarə olunurdu. Başqa sözlə demiş olsaq, bu sərt bir senzura idi. Həmin senzuranın icazəsi və möhürü olmadan nə bir qəzet çap oluna bilər, nə də hansısa televiziya verilişi efirə gedərdi. Bax, belə bir durumda hər şeyə nəzarət olunurdu. Amma elə ki, müstəqillik dövrünə qədəm qoyduq və yeni bir dövlət kimi formalaşmağa başladıq, sovet dönəmindən qalmış senzura və digər nəzarətedici orqanlar bir-bir sıradan çıxmağa başladı. Ulu Öndər Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə gələndən sonra bütün sahələrdə olduğu kimi, söz, mətbuat və fikir azadlığında da yeni bir mərhələ başladı desək, yanılmarıq. Ən azından ona görə ki, 70 il bizi sovet ideologiya maşını elə bir formaya salmışdı ki, həmin streotiplərdən yaxa qurtarmaq elə də asan deyildi. Müstəqillik dövründə yaşamağımıza baxmayaraq, bəzi məmurlar köhnə iş sistemindən əl çəkmək istəmir və yeniliyi qəbul eləməkdə maraqlı olmurdular. Amma bütün bunlara baxmayaraq, cəmiyyətdə gedən qlobal dəyişmələr, müasirlik və demokratik düşüncələr zaman-zaman mövcud qaranlığa bir işıq saldı. O işıq göstərdi ki, Azərbaycan gənc və müstəqil dövlət olmasına baxmayaraq, dünyavi dəyərləri qəbul edir, demokratiyaya doğru hər gün bir addım atır. O addımı atmaq çətin olsa da, amma atmağı bacardı ölkəmiz.

Ölkə mətbuatında, televiziyalarda yeni yaranmış saytlarda və sosial şəbəkələrdə hər bir Azərbaycan vətəndaşı öz fikrini və düşüncəsini azad, sərbəst şəkildə ifadə edirdi. Heç şübhəsiz bu o demək idi ki, Azərbaycan beynəlxalq hüquq normalarına çox böyük hörmətlə yanaşır, bəşəri dəyərlərə sevgisini bildirir və eyni zamanda sivil, demokratik yol tutur. Məhz bunun nəticəsi idi ki, əgər ölkəmizdə, sovet dönəmində 15-ə yaxın qəzet, jurnal və bir televiziya vardısa, müstəqillik dövründə yüzlərlə qəzet, saytlar, özəl televiziya kanalları fəaliyyətə başladı. Onlara verilmiş sərbəstlik və demokratik hüquqlar bu qurumların daha rahat və normal fəaliyyəti üçün şərait yaratdı.

Üstəlik də Azərbaycan Prezidenti Heydər Əliyev mətbuata çox böyük diqqət və qayğı göstərdi. Belə ki, müxalifət və müstəqil qəzetlərini "Azərbaycan" Nəşriyyatına çoxlu borcları vardı. Və o borca görə, qəzetlərin bəziləri bağlanmalı, bəziləri isə gecgec nəşr olunmalıydı. Ulu Öndərin tapşırığı ilə həmin mətbuat orqanlarının "Azərbaycan" Nəşriyyatına olan borcları ləğv edildi. Bütün bu müsbət addımlardan sonra həmin qəzetlər yenidən nəfəs aldı və çap olunmağa başladı. Onu da qeyd edək ki, Ulu Öndər Heydər Əliyev bir neçə dəfə "Jurnalistlərin dostu" mükafatına layiq görüldü. Çünki Azərbaycan mətbuatının ən ağır vəziyyətində Ümummilli Lider ona arxa durdu, söykək oldu və ikinci nəfəs verdi. Əlbəttə, belə bir mühitdə qəzetlərin nəşr olunmasını çox normal bir şərait yaratdı. Üstəlik də ölkədə söz, mətbuat, düşüncə azadlığı daha da geniş vüsət aldı. Kimliyindən asılı olmayaraq, sərbəst şəkildə, istər toplantılarda, istər KİVlərdə, istərsə də sosial şəbəkələrdə fikirlərini cəmiyyətə çatdırdı. Demokratik və hüquqi cəmiyyətdə yaşamaq bayaq dediyimiz kimi, o ölkənin vətəndaşlarına mənəvi bir rahatlıq və sakitlik gətirir.

Artıq Azərbaycan cəmiyyətində də belə bir sağlam mühit formalaşıb.

Onu da qeyd edək ki, Prezident İlham Əliyevin 20 illik hakimiyyəti dövründə də Azərbaycanda söz, mətbuat, fikir və düşüncə azadlığına "yaşıl işıq" yandırılıb. Çünki Ulu Öndər Heydər Əliyevin mətbuatımıza göstərdiyi diqqət və qayğı Prezident İlham Əliyevin dövründə də davamlı olaraq yeni bir mərhələyə qədəm qoyub. Heç şübhəsiz ölkəmizdə söz, mətbuat azadlığına belə önəm verilməsi dünya ictimaiyyəti tərəfindən də diqqətlə yanaşılıb. Bu mənada demokratik və inkişaf etmiş ölkələrdən məmləkətimizə səfər edən siyasətçilər, diplomatlar və digər yüksək titullu şəxslər Azərbaycanda sağlam bir mühitin formalaşdığının şahidi olurlar. Onlar şahidi olurlar ki, ölkəmiz demokratik, hüquqi bir dövlətdir və bu dövlət də bəşəri dəyərlərə çox hörmətlə yanaşır. Heç kim deyə bilməz ki, bu gün Azərbaycanda söz və mətbuat azadlığı məhdudlaşdırılıb. Yəni, hər şey göz qabağındadır.

Prezident İlham Əliyev də mətbuata öz qayğısını bu gün də əsirgəmir. Belə ki, ildə iki dəfə 20-dən çox qəzet və jurnal dövlət tərəfindən maliyyələşdirilir. Nəşriyyat xərclərinin çox olmasına, çap kağızının qiymətinin artmasına baxmayaraq, dövlətin maddi dəstəyi sayəsində respublikamızda tanınmış müxalifət və müstəqil qəzetlər çap edilirlər. Bu isə o deməkdir ki, dövlət söz, mətbuat azadlığına böyük önəm verir, qarşıya çıxan mövcud çətinlikləri vaxtında həll edir.

Dünyada azadlıqdan, sözdən, fikir və düşüncə sərbəstliyindən şirin varlıq yoxdur. Və nə yaxşı ki, dediyimiz və sadaladığımız bu dəyərlər bizim ölkəmizdə də var.

**Heç bir xarici ölkə, heç bir dünyanın güclü dövləti bizə deyə bilməz ki, Azərbaycanda söz və mətbuat azadlığı sahəsində hansısa çətinliklər və problemlər mövcuddur. Əksinə, dünyanın demokratik və sivil dövlətləri görür ki, ölkəmiz demokratik yolla gedir, bu sahədə qarşıyan çıxan sıxıntıları vaxtında aradan qaldırır, inkişaf etmiş ölkələrin səviyyəsinə çatmağa çalışır.**

**FAİQ QİSMƏTOĞLU**


AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Çindən dünyaya yayılan nemət: Ağı-qarası məcun olan, ipək yollarının ehsan tutu...

**Hazırda mövsümüdür! Əgər sağlamlığınızın qayğısına bir neçə günlük qalmaq istəyirsinizsə, mütləq tut yeyin! Həm də mütəmadi yeyin ki, faydasını da hiss edəsiniz!**

Söhbət min bir dərdin dərmanı olan tutdan gedir!

Tutun faydasından danışmamışdan əvvəl qeyd edim ki, o həmdə uşağlığımızda ən çox ”minib-çapdığımız” ağaclardan, ”at”lardan olub.Yəqin ki, keçmiş kənd uşaqlarının xatirələrində böyük bir çadırın uclarından yapışıb tut ağacının ”çırpılmasına” yardımçı olmuşlar var. Hələ ocaq üstə qaynayan tiyanın ətrafında, əlində nəlbəki, boşqab sıraya düzülüb ”sarıköynək” gözləyən, uşaqları demirəm...

Ara bir bəhməzin gec bişməsindən narahatçılıq keçirib az qala ”ocağın gözünə girən” nadincləri anası-nənəsi əlindəki kəfkirlə qovaladıqları da olub. Bu xatirləri gülümsəmədən, qayıtmayacağı üçün kədərlənmədən, köks ötürmədən gözün qarşısından keçirməmək mümkün deyil...



El arasında niyə tuta ”ehsan tut” deyildiyini bir dəfə nənəmdən soruşmuşdum. Demişdi ki, o yeganə ağacdır ki, sahibindən icazə alınmadan onun meyvəsindən yeyə, yığıb apara bilərsən. Meyvəsi də o qədər bol olur ki, yığmaqla, yeməklə azalan deyil, ta ki, mövsümü başa çatıb solana qədər. Hətta yaşlı insanlardan eşitmişdim ki, qanlı-qadalı müharibə illərində şəkər tozu tələb etməyən meyvənin mürəbbəsi hər evdə olarmış. Tutun özü, qurusu, mürəbbəsi, bəhməzi, reçəli ()irçal) çox ailələri o aclıq illərindən sağ çıxardıb. Tut ağacını həm də ona görə yol kənarlarında daha çox əkərmişlər ki, səfərə çıxanlar, yolda qalanlar acarsa, susuz qalarsa, bu meyvə ilə gününü ovuda bilsin. Bəli, elə tut növləri var ki, onlar həm susuzluğu yatırıb, həm də aclığı...Mətləbdən uzaqlaşmayaq...







### Ağ məcun, qara məcun

İndi keçək keçmişdən bu günə qədər ən sevilən meyvə kimi, həm də bir çox xəstəliyin müalicəsi kimi faydalı olan tutun lazımlılığını təsdiq edən faktlara.

Deyilənə görə, tut ağacının ilkin vətəni Uzaq Şərq ölkələri- Çin və Yaponiyadır və 11 növü məlumdur. İstehlakç kimi bizə tutun ağı, bir də qarası tanışdır. Qara tuta da el arasında xartut da deyilir. Xartutun meyvəsi tünd qara, qırmızı və ya tünd bənövşəyi rəngdə, turşa-şirin dadlı və ətirlidir. Hər iki növ bütün rayonlarımızda geniş yayılıb.

Tibb elmi bildirir ki, əgər qanazlığıniz varsa ağ tut və qara tut yeyin:Tutda dəmirin miqdarı çox olduğundan yaxşı qan yaradıcı xassəyə malikdir, qanın keyfiyyətini artırır. Ona görə anemiya, qan azlığı olanlar bu meyvədən ilboyu təzəsini və qurusunu yesin

Bir neçə il əvvəl alimlər açıqlamasında bildirdi ki, ağ tut orqanizmdə yığılıb qalmış seliyi, bronxlardan bəlğəmi çıxarır, şirəsi öskürəyi kəsir, tərlədicidir. Bu məqsədlə tutun şirəsini için. Yarpaqları da, qabıqları da eyni təsir edir.

İstər təzə istərsə də qurudulmuş tutu tez-tez xəstələnən, zəif insanlar yay-qış yesin. İmmuniteti qaldırır, orqanizmi səfərbər edir, maddələr mübadiləsini yaxşılaşdırır, insanı qüvvətləndirir.

Hətta rənginin fərqli olmasından asılı olmayaraq hər tut qaraciyəri toksinlərdən təmizləyir, işini yaxşılaşdırır, qaraciyər hüceyrələrini yeniləyir

Qaraciyəri təmizləməyi bacaran tut, əlbəttə ki, ürək, qan-damar sağlığını qoruyacaq. Qanı təmizlədiyindən, damarlardan pis xolesterini yuyur, ürəyə qanın normal işləməsini təmin edir, nəticədə ürək yorulmur. Tut ürək infarktı riskini azaldır, iflici önləyir. Tibb mütəxəsisslərinin dediyinə görə, tut şirəsi mənim kimi gözü kompüterdə ”yağır” olan insanın gözləri üçün çox faydalıdır.

Yanından etinasız keçdiyiniz o ağ tut uzun müddət radiasiya və işığa məruz qalan gözlər üçün bol A vitamini mənbəyidir. Retinapatiya və görmə zəifləməsini yaradan sərbəst radikalları zərərsizləşdirir.

Hələ böyrəklərində problem olanlar! Hardasınız? 20 qram ağ tut bir stəkan suda 20 dəqiqə saxlanılıb içiləndə sidikqovucu təsir edir. Sidik kisəsi, sidik yolları, böyrəkləri tut şirəsi yuyur.

Yəqin ki, hamınız ”dövrümüzün bəlası” kimi tanış olan xərçəngin çarələrini düşünmüsünz. Çünki indi elə bir ailə yoxdur ki, orada bu xəstəlikdən dünyasını dəyişməyən olmasın. Tutun tərkibində olan antioksidantlar xərçəngə yoluxma riskini azaldır, xərçəngə tutulmuş insanda isə şişlərin azalmasına səbəb olar. Xüsusən prostat xərçənginə qarşı çox təsirlidir.

Çox insanlar tut şirindir deyə, diabet xəstələrinə olmaz deyə düşünür. Lakin Amerika Diabet Dərnəyi 20 insan üzərində apardığı təcrübənin nəticəsində məlum oldu ki, tut qanda qlükoza səviyyəsini düşürür.

İndi isə gözəl olmaq istəyən xanımlar bu sətirləri oxusun:”Tut antioksidant mənbəyi olduğundan dərinin gəncləşməsini, nəmlənməsini təmin edir, dəri xəstəliklərində sağaldıcı təsiri var.

Çox quru dərilərə tut yarpaqlarını əzib zeytun yağı ilə qarışdırıb maska edirlər”.

Bəli, tut dərini qoruyur, dəri xərçənginə qarşı təsirlidir.Çünki, məsələn, qara tuta bənövşəyi-qara rəng verən flavonoidlər qocalma əleyhinədir.

Özünü müsəlman bilənlərin hədislərindən xəbəri var. O hədislərin birində deyilir:”Tut yarpağını qoyun yeyər süd yapar, arı yeyər bal yapar, keyik yeyər mişk (ətir) qoxar, tırtıl yeyər ipək yapar.

Dadı, rəngi, qoxusu və maddəsi bir olan şeydən bu qədər fərqli gözəlliklər yaratmaq, ancaq Allaha məxsusdur”.

Bəli, bu fikri dəstəkləyirəm və bizdə də buna bənzər bir atalar sözü var:” Bəsləsən, atlas olar tut yarpağından”.

Araşdırmaçılar deyir ki, ağac kultu işərisində tut ağacı müstəsna yer tutur. Ağac dini mistik mənada evin ruhudur, evin hüzurunun, istikbalının və bərəkətinin simvoludur.

Qədimlərdə ev təməli qoyulmadan əvvəl xeyir-bərəkət mənasında meyvə -tut ağacı əkilər, budaqlarına diləklərinin yerinə yetməsi üçün bez bağlanarmış ki, bu da, tut ağacının pir-inanc yeri olduğunu göstərir. Deməli tut ağacı, ipəkqurdu və ipək yetişdiriciliyindən də önəmlidir”.

Bir sözlə, qədim zamanlardan səs salmış ipəkli qumaşlar təbii ki, tut ağacının adına dayanır.

Biologiya üzrə fəlsəfə doktoru Asif Mehralıyev də vurğulayıb ki, tut dərdlər dərmanı, yaraların məlhəmi olmaqdan başqa yarpağından tutmuş meyvəsinə, cecəsinə qədər müxtəlif məqsədlərlə istifadə edilir:” Tut ağacından ət döymək üçün toxmaq hazırlanır. Su dəyirmanının unluğu, təhnəsi, xəlbirin və ələyin sağanağı tut ağacından hazırlanır. Musiqi və məişət alətlərinin hazırlanmasında onun oduncağı əvəzsiz xammaldır. Tutun təzə, xırda yarpağına dolma bükülür.

Ağ tutun yarpaqları dəmlənilərək soyuqdəymələrdə hərarətsalıcı vasitə kimi, yarpaqları və qabıqları isə dəmləmə və bişirmə şəklində epilepsiya əleyhinə məlhəm kimi qoturluq əleyhinə işlədilir. Tutun gövdə və kök qabığının dəmləməsi, bişirməsi və maye ekstraktı hipertoniya, sidikqovucu və qurd xəstəliklərində tətbiq edilir”.

***P.S.*** ***Əziz oxucularımız, nə qədər ki, tut mövsümü başa çatmayıb, gedin çoxlu tut yeyin, bəhməz, tut mürəbbəsi, irçal, tut qurusu hazırlayıb, qışa saxlamağı unutmayın! Tut sizə bal, afiyyət, şəkər olsun! Elə mənə də!***

**Əntiqə Rəşid**

## *Şəbnəm Qəhrəmanova: “Məni toyuna çağırmadı”*



**Müğənni Şəbnəm Qəhrəmanova yaxın zamanlarda toyu olan həmkarı Talıb Taledən danışıb.**

Adalet.az bildirir ki, müğənni həmkarının onu toyuna çağırmadığını söyləyib: ”Talıb məni toyuna dəvət etməmişdi. Allah onu xoşbəxt etsin. Aramızda heç bir problem yoxdur. Ancaq toyuna çağırmadı. Dəvətli olub getsəydim, təbii ki, yaxşı oştirak edərdim və 500 Azn yazdırardım.”

## *Aşıq Namiq: “Xanımım evdə oturub uşağa baxmalıdır”*



**Hər açıqlaması gündəm olan Aşıq Namiq bu dəfə də sükutu pozub.**

Adalet.az bildirir ki, o, evlənəcəyi xanımdan söz açıb:

”Ali təhsilli, savadlı işgüzar xanımların hər birinə hörmətim var. Amma mənim xanımım evdə oturub uşağa baxmalıdır. Gözəl-göyçək müğənni xanımlarımız var hamısına hörmətim var. Amma müğənni xanımla ailə qurmaram. Həkim və ya müəllimə xanımla ailə quraram. Amma ilk növbədə istəyirəm ki, xanımım mənə, uşaqlarıma, ata-anama baxsım. Evdarlığı sevsin. Qismətə çox inanıram. Görək qismətimə kim çıxaxaq”.

## *Xatirə: “Bakıdan getməyimi istəyirlər”*



**Müğənni Xatirə İslam gələcək planlarından danışıb. Adalet.az bildirir ki, o, Rusiyada yaşayacığını söyləyib:**

”Əslində işlərimlə bağlı Rusiyaya gedib gələcəyimi söyləmişəm. İnsanlar da elə bilirlər ki, daimi olaraq ora köçürğm. Yox, elə deyil. O gün anam hardass oxuyub ki, mən Bakıdan köçürəm. Tez mənə zəng edir ki, belə xəbər oxumuşam. Bu nə deməkdir? Dedim mən belə deməmişəm. İnsanlar sanki Bakıdan getməyimi istəyirlər. Niyə axı? Mənim Azərbaycansız ürəyim dayanar.”

**Əntiqə**

Aqil Abbas və Əbülfət Mədətoğlu **Ağacəfər Həsənliyə** qardaşı

**Əzizağanın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Vaqif Nəsib və Sabir Cümşüd **Ağacəfər Həsənliyə** qardaşı

**Əzizağanın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Nəbi Muxtarov və Ələddin Muxtarov **Əsədovlar ailəsinə** əzizləri

**Əsəd Abdulla oğlu Əsədovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Aslan Mehdiyev və Əbülfət Mədətoğlu **Əsədovlar ailəsinə** əzizləri

**Əsəd Abdulla oğlu Əsədovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Vaqif Nəsib, Mübariz Məsimoğlu və Əbülfət Mədətoğlu **Sabir Cümşüdə** qardaşı

**Əbdülhüseynin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**Təsisçi və baş məsləhətçi: Aqil ABBAS**

**Baş redaktor: İradə TUNCAY**

Qəzet “Ədalət” qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və “Son dakika” MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, “AZƏRBAYCAN” nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 181
Çapa imzalanmışdır: 06.06.2024